

## İlham Əliyev və Putin Qarabağdakı vəziyyəti müzakirə edib

*Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub. "Unikal" xəbər verir ki, bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb. Qeyd edilib ki, telefon danışığı zamanı Dağlıq Qarabağda vəziyyətin sabit olduğu, atəşkəs rejiminə ciddi şəkildə əməl edildiyi vurğulanıb.*

Səh.2


# UNİKAL

№12 (2050) 2 aprel 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




## Elman Rüstəmovun bankı ilə bağlı böyük müəmma...

### Müştərilər "Bank Respublika"dan 1 ildə 400 milyon manatdan çox əmanətini geri çəkib?

*Azərbaycanın yerli mətbuatı ölkənin aparıcı banklarından biri olan "Bank Respublika"nın göstəricilərinin ürəkaçan olmadığı barədə yazır. Yazılanlara görə, 2019-cu ildən banka sədrlik edən Tariyel İsmayılovun rəhbərliyi dövründə bu qurumun qarşıya qoyulan hədəfləri alt-üst olub. Belə ki, səhmdarlarının arasında Almaniyanın 2 nəhəng şirkəti olan bankın strategiyası dəyişdirilib və yeni hədəflərə yelkən açılıb. Buna görə də bankın cəmiyyətdə olan nüfuzu zərər görüb, müştəriləri isə öz pullarını geri çəkib. "Bank Respublika"nın 3 il üçün əsas strateji hədəfləri kiçik və orta biznes, həmçinin mikro kreditləşmə sahələrində lider bank olaraq, riteyl bankçılıq sahəsində ilk 5 bank sırasında öz mövqeyini qoruyub saxlamaq idi.*

Səh.12

Səh.2




## Bakı və rayonlarda məktəblər yenidən bağlanır

## "Rusiyanın Qarabağdakı "planlarını" yalnız Türkiyə poza bilər"



*Martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında qeyri-formal Zirvə görüşü keçirilib. Görüşdə türkdilli ölkələrin müxtəlif istiqamətlərdə əməkdaşlığı ilə bağlı mühüm məsələlərə toxunulub, önəmli mesajlar verilib. Xüsusən də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan...*

Səh.4

## Şuşaya "İsgəndər" raketlərinin atılması mədəni tarixi izi silmək məqsədi daşıyıb



*44 günlük Vətən müharibəsi zamanı düşmənin kasetli bombalardan istifadə etməsi öz təsdiqini tapsa da, Ermənistana qarşı höləki beynəlxalq təşkilatlardan heç bir sanksiya tətbiq edilməyib. Bu günlərdə isə Vətən müharibəsi zamanı Ermənistanın Azərbaycana qarşı "İsgəndər" raketlərindən istifadə etdiyi rəsmi açıqlandı.*

Səh.15

## Hacıbala Abutalıbovun oğulları ilə bağlı absurd məntiqi



*Yola saldığımız həftə Bakı Şəhər İcra Hakimiyyətinin sabiq başçısı və Baş nazirin keçmiş müavini Hacıbala Abutalıbov uzun fasilədən sonra mətbuata geniş müsahibə verib. Hacıbala müəllim müsahibəsində xeyli məqamlara toxunub, lakin həmin məqamlarla bağlı hər hansı şərh...*

Səh.5

# Azərbaycan "Eurovision"da neçənci çıxış edəcək? - Siyahı açıqlandı

***Azərbaycanı "Eurovision" mahnı müsabiqəsində təmsil edən Samirə Əfəndi səhnəyə 14-cü çıxacaq.***

"Unikal" xəbər verir ki, bu barədə Niderland dövlət kanalı NPO məlumat yayıb. Qeyd olunub ki, Rotterdamda səhnəyə çıxacaq müğənnilərin sıralaması müəyyənləşib və Avropa Yayım Birliyi (EBU) tərəfindən təsdiqlənib.

Siyahıya əsasən, Əfəndi "Mata Hari"ni birinci yarımfinalda 14 nömrə altında səsləndirəcək.

Qeyd edək ki, 65-ci dəfə keçirilən yarışmanın birinci yarımfinalında 16, ikincisində isə 17 ölkə yer alacaq. Hər iki yarımfinaldan 10 nəfər finala vəsiqə qazanacaq.



**Birinci yarımfinal:**

1. Litva
2. Sloveniya
3. Rusiya
4. İsveç
5. Avstraliya
6. Şimali Makedoniya
7. İrlandiya
8. Kipr
9. Norveç
10. Xorvatiya
11. Belçika
12. İsrail
13. Rumınıya
14. Azərbaycan
15. Ukrayna
16. Malta

**İkinci yarımfinal:**

1. San -Marino
2. Estoniya
3. Çexiya
4. Yunanıstan
5. Avstrya
6. Polşa
7. Moldova
8. İslandiya
9. Serbiya
10. Gürcüstan
11. Albaniya
12. Portuqaliya
13. Bolqarıstan
14. Finlandiya
15. Latviya
16. İsveçrə
17. Danimarka

# "Maşında oturub, Aygün Kazımovanı güdürdüm" - Rəhim Rəhimli

***"Verilişimin ilk buraxılışı idi. Demişdim, Aygün Kazımovanı gətirəcəm. Televiziya rəhbəri dedi ki, bacarmayacaqsan".***

Bu sözləri müğənni-bəstəkar Rəhim Rəhimli "Özəl" proqramında deyib. O, aparıcılıq etdiyi ərəfədə Xalq artisti Aygün Kazımova ilə başına gələn hadisədən danışıb:





"Çünki o vaxt münasibətimiz yox idi. Dedim ki, gedib düşəcəm arxasınca, onu güdəcəm. Hara getsə, 11-in yarısı çıxar. Oturub maşında onu güdüb, gözləyirəm. Gördüm, 11-ə qalıb 8 dəqiqə, o çıxmır. Proqram da 11-də başlayır. Gördüm çıxdılar komandası ilə birlikdə. Üzü televiziyaya doğru gedirlər. Tez maşınla keçdim, onlardan əvvəl kanala çatdım ki, gəlirlər hazırlaşın. Bu, Aygün Kazımovanın kanala ilk gəlişi idi. Söz verdiyi kimi gəldi".

# Xatirə İslam müğənnilərdən pul alan şəxsi ifşa etdi

***Müğənni Xatirə İslam dələduzluğa məruz qalıb. Sənətçi bu barədə instaqram səhifəsində məlumat verib.***

O, video paylaşaraq özünü iş adamı Mübariz Mənsimovun yaxını kimi təqdim edən Sahil İmanov tərəfindən aldadıldığını açıqlayıb: "Özünü Mübariz Mənsimovun köməkçisi, ailəsinin ən yaxın adamı, Türkiyədə sayılan-seçilən kanalın rəhbəri kimi təqdim edən Sahil İmanov haqda danışacam. Mənə də dəfələrlə zəng edib, nələrsə soruşub. Əlimdən gələn paylaşımı etmişəm. Bu adama görə yox, Mübariz Mənsimovun xatirinə etmişəm.



Sahil İmanov Azərbaycanda olan tanınmış insanları aldadır, pulunu mənimsəyir. Birinə deyir sənə sosial şəbəkədə mavi işarəni alacam, birinə deyir "Youtube"da hər şey mənlikdir. Hər şeyi bacardığını deyir. Bu cür danışaraq məşhurları aldadır. Biri mən özüm. Yaxınımı da aldadıb. Mübariz Mənsimovun işçisidirsə, bir ölçü götürülsün. Sahilin özünə də dedim ki, bir çox yalan danışmısan, vədlər vermisən, mənə bulaşma. Yazdı ki, üzr istəyirəm, yaxınınızın pulunu qaytaracam. Sözünün üstündə dayanmadı".

Sənətçi daha sonra sözügedən posta yazılan rəylərə cavab verərək aldadılan yaxınının Əməkdar artist Vasif Məhərrəmli olduğunu vurğulayıb.

# "Toppuş bacı" özündən 15 yaş kiçik həyat yoldaşından danışdı

***ARB TV-nin "Onun Sirri" verilişinin növbəti qonağı əməkdar artist Tünzalə Əliyeva olub.***



Aktrisa sağalmağını həyat yoldaşı Röyala borclu olduğunu deyib: "Həyat yoldaşı öhdəyilindən əlavə, sözün əsl mənasında Röyal mənim üçün dostdur. Bu dünyada onu əvəz edəcək ikinci bir insan olmadı. Bütün yaxınlarım sağ olsun. Sözün həqiqi mənasında ən çətin anlarımda yanımda olan həyat yoldaşım oldu. 7 ildir ailəliyik. Sevgi ilə ailə qurduq. O sevgim hələ də qalıb. Hətta daha da artıb. Hər zaman öhdəliklə yaşamışam. Səhər o yuxudan durana kimi yeməyini hazırlayıram. Bunu o özü də edə bilər. Amma bu, mənim xoşuma gəlir. Mənim həyatımda nə varsa ona uyğun hesablanır. Aramızda 15 il fərq var. Yaşda mən böyüyəm. Amma mənimçün həmişə o məndən böyükdür. Ondan icazəsiz heçnə etmirəm. Biz evlənəndə yaş fərqinə görə atam narazı idi. Lakin böyük səhv etdi. Sanki bu gün ailə qurmuşuq. Qızımız Zəhranın gəlişi bizi daha çox tamamladı. 7 ildə cəmi 1 gün bir-birimizdən ayrı qalmışıq. O da qayınanam əməliyyat olunanda olub. Həyatımın çətin dönəmlərimdə Röyal mənə çox dəstək oldu. Sağalmağımı, ayaq üstə qalmağımı, ruhumun gənc qalmasını ona borcluyam".

# Firəngiz Mütəllimova işsizlikdən gileyləndi



***"Pandemiya hamı kimi mənə də keçmişdə yaşadığım rahat həyatın qədrini bilməyi öyrətdi".***

"Unikal" xəbər verir ki, bu sözləri Xalq artisti Firəngiz Mütəllimova sosial şəbəkədə yazıb. Arxiv fotolarını yayımlayan aktrisa teatrsız qalmasından gileylənib:

"Son vaxtlar çəkdirdiyim şəkillərlə təsəlli tapıram. Teatrımız - ikinci evimiz üçün çox darıxıram. Allahım, sən bizə kömək ol, tezliklə bu bəladan xilas olaq".



## Əli Əsədov qərar imzaladı

***"Ərzaq balansının tərtib olunması Qaydası" və "Ərzaq balansının tərtibi mexanizminin təkmilləşdirilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilib.***

Unikal.org-un məlumatına görə, bununla bağlı Baş nazir Əli Əsədov müvafiq qərar imzalayıb.

Qərarla ərzaq balansının tərtib olunması qaydası yeni tələblərə uyğunlaşdırılıb və tədbirlər planı üzrə ərzaq balansının tərtib olunması mexanizminin təkmilləşdirilməsi nəzərdə tutulub.

Həmçinin beynəlxalq təcrübə əsasında ərzaq balansının hesablanması metodologiyasının, istehsal, idxal və ixrac olunan buğdanın təyinatı və siniflər üzrə bölgüsü barədə dəqiq məlumatları əldə etmək məqsədilə mövcud təsnifat sistemlərinin təkmilləşdirilməsi, "Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi" vasitəsilə buğdanın istehsalı və anbar qalıqları barədə məlumatların dəqiqləşdirilməsi ilə bağlı müvafiq tədbirlər həyata keçiriləcək.

Bununla da ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində istifadə olunan məlumatların keyfiyyətinin daha da artırılması hesabına ərzaq məhsullarının istehsalı və təchizatı ilə bağlı effektiv qərarların qəbul edilməsinə imkan yaradacaq.

Qeyd edək ki, "Ərzaq balansının tərtib olunması Qaydası"nın təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin 2009-cu il 20 noyabr tarixli 181 nömrəli qərarı isə ləğv edilib.

## Vasif Talıbovdan yeni təyinat

***"Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə sədr təyin edilib.***

Unikal.org xəbər verir ki, bununla bağlı Naxçıvan Ali Məclisinin Sədri Vasif Talıbov fərman imzalayıb.

Fərmana əsasən, Sahil Abdulla oğlu Tahirli "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri təyin olunub.

Qeyd edək ki, V.Talıbov martın 17-də Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əsasında "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında Fərman imzalayıb. Sahil Tahirli bugünkü təyinatadək Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri vəzifəsində çalışıb.

O, 2006-cı ildə "Şərq qapısı" qəzeti redaksiyasında İctimai-Siyasi Məsələlər Şöbəsinin müdiri vəzifəsində işləyib. 2006-2007-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və İctimaiyyətlə Əlaqələr Şöbəsində məsləhətçi, 2007-ci ildən 2011-ci ilədək Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurasının sədri vəzifəsində çalışıb.

2011-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və İctimaiyyətlə Əlaqələr Şöbəsinin müdiri təyin edilib. 27 mart 2013-cü ildən Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri vəzifəsində çalışıb.

# Elman Rüstəmovun bankı ilə bağlı böyük müəmma...

## Müştərilər "Bank Respublika"dan 1 ildə 400 milyon manatdan çox əmanətini geri çəkib?

***Azərbaycanın yerli mətbuatı ölkənin aparıcı banklarından biri olan "Bank Respublika"nın göstəricilərinin ürəkaçan olmadığı barədə yazır. Yazılanlara görə, 2019-cu ildən banka sədrlik edən Tariyel İsmayılovun rəhbərliyi dövründə bu qurumun qarşıya qoyulan hədəfləri alt-üst olub. Belə ki, səhmdarlarının arasında Almaniyanın 2 nəhəng şirkəti olan bankın strategiyası dəyişdirilib və yeni hədəflərə yelkən açılıb. Buna görə də bankın cəmiyyətdə olan nüfuzu zərər görüb, müştəriləri isə öz pullarını geri çəkib.***

"Bank Respublika"nın 3 il üçün əsas strateji hədəfləri kiçik və orta biznes, həmçinin mikro kreditləşmə sahələrində lider bank olaraq, riteyl bankçılıq sahəsində ilk 5 bank sırasında öz mövqeyini qoruyub saxlamaq idi. Tariyel İsmayılovun təyinatından sonra isə bankın biznes kreditləri 23 milyon 689 min manat və ya 6.6% azalıb. Hədəfini istehlak kreditləri üzərində quran sədrin arzuları baş tutmayıb.

Yerli media yazır ki, 1 il ərzində bankın istehlak kreditləri 17 milyon 504 min manat və ya 22.6% azalıb. Xüsusilə T.İsmayılovun təyinatından dərhal sonra müştərilər depozitlərini geri çəkməyə başladı. 2020-ci ilin yekununda bankın depozit portfeli 140 milyon 199 min manat və ya 37.3% azalma ilə təqdim olunub. Bank korporativ müştərilərini də itirməyə başlayıb. Belə ki, bankda yerləşdirilən depozitlərdə hüquqi şəxslərin əmanətləri 2 dəfədən çox azalıb. Müştərilər "Bank Respublika"dan 1 il ərzində 416 milyon 583 min manatlıq əmanətini geri çəkib.

Bundan başqa, bankın xalis mənfəəti 14 milyon 402 min manat və ya 3 dəfədən çox azalaraq 6 milyon 21 min manata enib. İstisna deyil ki, bank bundan sonrakı illərdə xalis mənfəətini zərərlə əvəz edə bilər.

2005-ci ildən etibarən bankın səhmdar kapitalının "20,7%" paketinə sahib olan Almaniya təşkilatları aviatorun sədrliyi nəticəsində ciddi pul itkisi ilə üzləşib. Belə ki, hüquqi şəxslərin depozitlərini geri çəkməsi nəticəsində sözügedən səhmdarlar 86 milyon 233 milyon manat itirib.

"Unikal"ın araşdırmasına görə isə, ən maraqlısı odur ki, bankın özündən bu ilin əvvəllərində mətbuata verilən açıqlamada fərqli nüanslar yer alırdı. Bildirilirdi ki, xarici çağırışlara baxmayaraq, bank yaxşı maliyyə nəticələri nümayiş etdirərək Azərbaycanın bank xidmətləri bazarında lider mövqeyini möhkəmləndirib. 1 yanvar 2021-ci il tarixinə bankın aktivləri 1,03 milyard manat təşkil edib, bu isə banka ölkənin aparıcı beş bankı sırasında yerini qoruyub saxlamağa imkan verib. O da qeyd edilirdi ki, bank davamlı inkişaf üçün kifayət qədər yüksək kapital ehtiyatına malikdir. Belə ki, bankın məcmu kapitalı 7% artaraq 83,9 milyon manat olmuş və minimum məcmu kapital normasını (50 mln. manat) 68% üstələyib. COVID-19 pandemiyası ilə əlaqədar tətbiq olunan karantin tədbirlərinə baxmayaraq, bankın 2020-ci ildə müsbət dinamikanı davam etdirdiyi vurğulanır, ötən ilin sonunda xalis mənfəətin 6,02 milyon manat təşkil etdiyi, 2019-cu ilə nisbətən xalis faiz gəlirinin 10% -dən çox artaraq 45,5 milyon manata çatdığı vurğulanırdı.

Belədə sual yaranır: bankdan verilən açıqlama ilə müəyyən media orqanlarındakı məlumatlar arasında ziddiyyətin səbəbi nədir? Kimə inanmalı - KİV-in yazdıqlarına, yoxsa bankın açıqladığı rəqəmlərə? Bəlkə hər ikisinə, yaxud heç birinə?!... Hər halda bu məqamı vurğulamağa dəyər: bank depozit portfeli barədə hər hansı açıqlama verməyib, üstəlik, müştərilərin öz əmanətlərini geri çəkdiyi barədə iddialara da münasibət bildirməyib. Ən azından bu yazı hazırlananadək mövzu haqda heç bir açıqlama yox idi.

Onu da xatırladaq ki, dövrü mətbuatda "Bank Respublika" ASC-nin



Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin sədri Elman Rüstəmova bağlılığı ilə bağlı mütəmadi məlumatlar yayılıb.

2017-ci ildə isə bankın rəsmi sahibi olan Natiq Quliyev (hazırda Müşahidə Şurasının üzvüdür) KİV-ə bildirib ki, Elman Rüstəmovla uzun illərdir peşakar münasibətləri mövcuddur: "Məni sevindirir ki, Bank Respublika o qədər cəlbedicidir ki, onun adını belə tanınmış şəxslərlə əlaqələndirirlər. Elman Rüstəmov mənim çox hörmət etdiyim şəxs və peşəkar dövlət xadimlərindən biridir. Elman müəllimlə, hər bir bank səhmdarı kimi, uzun illər ərzində çox səmimi peşəkar münasibətlərimiz yaranıb. Lakin, Bank Respublikanın sahibi kimi, bir daha qeyd etmək istərdim ki, bank yalnız rəsmi hesabatlarda qeyd olunan səhmdarlara məxsusdur. Bu hesabatlardan göründüyü kimi, mənim əsas tərəfdaşlarım Almaniyanın iki tanınmış maliyyə institutlarıdır. Bunlardan biri, KfW (Almaniyanın Dövlət Bankı) bank qrupunun üzvü DEG İnvestisiya Şirkəti, digəri isə Sparkassen-Finanzgruppe maliyyə qrupunun üzvü Sparkassen International Development Trust".

Bununla belə, yerli KİV adıçəkilən bankın ölkənin baş bankirinə qeyri-rəsmi bağlılığında israr edir. Bundan başqa, hətta 2015-ci ildəki iki devalvasiyadan az sonra belə ölkədəki əksər bankların vəziyyətinin qeyri-qənaətbəxş olduğu bir vaxtda, "Bank Respublika"nın, demək olar, bütün göstəricilər üzrə gözqamaşdırıcı nəticələr əldə etməsinin sirri də məhz bununla əsaslandırılırdı.

Onu da deyək ki, Rüstəmov adıçəkilən bankın qeyri-rəsmi şəkildə ona bağlılığına dair iddialarla bağlı indiyədək hər hansı münasibət bildirməyib.

***Orxan Həsənli***

# Türkdilli dövlətlərin birliyi yeni mərhələyə qədəm qoyur

## Zirvə toplantısı baş tutduğu dönəmin siyasi konyekturası baxımından olduqca önəmlidir

***“Türk Şurasının bu zirvəsi qeyri-rəsmi zirvə idi və noyabr ayında keçiriləcək İstanbul zirvəsinə hazırlıq xarakteri daşıyırdı. Görüşün Qazaxıstanın Türküstan şəhərində canlı formatda keçirilməsi nəzərdə tutulmuşdu, lakin sonradan pandemiya və digər müxtəlif səbəblərdən toplantı videokonfrans formatında onlayn şəkildə gerçəkləşdirildi”.***

Bu fikirləri “Unikal” qəzetinə açıqlamasında Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin (QAFSAM) sədr müavini, siyasi şərhçi Nazim Cəfərsoy səsləndirib. O bildirib ki, bu zirvə toplantısı baş tutduğu dönəmin siyasi konyekturası baxımından olduqca önəmli idi: “Olduqca əhəmiyyətli məqamlar var ki, onlara toxunmaq zəruridir. Digər tərəfdən toplantıda alınan qərarların mühümlük dərəcəsi kifayət qədər yüksək idi. Üçüncü vacib məqam isə ondan ibarətdir ki, Türk Şurasının bu zirvə toplantısı həm təşkilatın, həm də üzv dövlətlərin gələcəyi baxımından böyük siyasi perspektiv vəd edən hadisələrlə yadda qaldı”.

Siyasi şərhçi zirvə toplantısının keçirildiyi dönəmin siyasi şəraitinə də toxunub: “Toplantının gerçəkləşdirildiyi şərait siyasi baxımdan çox uyğun dövrə təsadüf etdi. Görüş türk coğrafiyası və Türk Dünyası ölkələri arasındakı siyasi münasibətlər geopolitik proseslərin və daxili vəziyyətin çox münbit olduğu dönəmdə keçirildi. Əvvəla toplantının Azərbaycanın Qarabağda zəfər qazanması ilə yaxın ərəfədə keçirilməsi diqqətəlayiqdir. Bunun Türk Dünyası üçün önəmi ondan ibarətdir ki, bu düşərgənin ən aktiv üzvlərindən biri olan Azərbaycanın ən böyük problemi artıq böyük ölçüdə həll edilib. İkincisi, bu həll baş verərkən digər Türk Dünyası ölkəsi olan Türkiyənin böyük dəstəyini alması vurğulanmalıdır. Problemin həllində Türkiyənin aparıcı bir rol oynaması və hərbi sənaye məhsulları, siyasi ritorika, mənəvi dəstək mahiyyətində olan açıqlamalar bu baxımdan əhəmiyyətlidir. Bildiyimiz kimi, Türk Şurası Azərbaycanda - Naxçıvanda yaradılıb. Yəni toplantı təşkilatın ən fəal üzvünün çox böyük bir yükü üstündən atdığı dönəmdə gerçəkləşdirilib. Üstəlik artıq qeyd etdik ki, Türkiyə bu məsələdə hərbi-siyasi baxımdan çox böyük rol oynayıb və Rusiyanın Cənubi Qafqaz regionunda balanslaşdırılması baxımından bu rol olduqca mühümdür. Qarabağ məsələsinin bu formada həlli digər Türk Dünyası ölkələri üçün də maraqlara uyğundur. Türkiyə-Azərbaycan əməkdaşlığı modeli digər türk dövlətləri üçün də təşviqedici xarakter daşıyır. Mərkəzi Asiya coğrafiyasında da Rusiyanın balanslaşdırılması önəmli məqamdır. Qafqaz Rusiyanın 200 ildir ki, söz sahibi olduğu, öz rolunu heç bir ortaqla paylaşmaq istəmədiyi bir regiondur. Bu coğrafiyada Türkiyənin Rusiyanı balanslaşdırmasının mümkünlüyü Mərkəzi Asiya üçün də analoji perspektivlərə işıq tutur. Bilirik ki, rusların Mərkəzi Asiya, Orta Asiya adlandırdığı bu regionun tarixi adı Türküstan olub. Yeni Qarabağ məsələsi ilə Cənubi Qafqazda Türkiyənin Rusiyanı balanslaşdırması Türküstan üçün də bu modelin necə faydalı ola biləcəyini əyani şəkildə ortaya qoydu. Digər məsələ isə Türkmənistanla Azərbaycan arasında qaz yatağı məsələsinin bu ərəfədə həll olunmasıdır ki, bu da toplantının keçirildiyi dönəmə əlavə anlam qatmış olur”.



Son dövrlər Özbəkistanın Türk Dünyası ölkələri ilə yaxınlaşması barədə suala gəlincə, N.Cəfərsoy belə cavab verib: “Özbəkistanın son 5 il ərzində getdikcə Türk Dünyası ilə daha da yaxınlaşacaq addımlar atması diqqəti cəlb edir. Özbəkistanın Türkiyə və Azərbaycanla əlaqələri və əməkdaşlığı dərinləşdirməsi yeni prezident Şevket Mirziyayevin dövründə daha da geniş vüsət aldı. Həmçinin Özbəkistanın Türk Şurasına üzv olması məsələsi də bu baxımdan önəmlidir. Digər vacib məqam isə ondan ibarətdir ki, Özbəkistan türk ölkələrindən biri olan Qırğızıstanla müstəqillikdən bəri ortaya çıxmış sərhəd mübahisəsi problemini uzlaşma yolu ilə dinc qaydada çözmək üçün böyük bir addım atdı. Biz son zamanlar Qazaxıstanın da Nursultan Nazarbayevin xüsusi fəallığı ilə Türk Dünyasına yönəlik siyasətində yeni impulslarını müşahidə edirik. Qazaxıstan və Türkiyə münasibətlərinin gücləndirilməsinə şahidlik edirik. Düşünürəm ki, Qazaxıstan gələcəkdə Türk Dünyasında daha böyük siyasi aktor kimi çıxış etmək potensialına malikdir və bu potensialın reallaşdırılması kifayət qədər əhəmiyyətlidir”.

Nazim Cəfərsoy həmçinin Avropa ölkəsi olan Macarıstanın Türk Şurasında aktiv fəaliyyətini də dəyərləndirib: “Təbii ki, Macarıstanın da Türk Dünyası ilə əlaqələrini böyük miqyasda genişləndirdiyini, geopolitik baxımdan yeni dinamikanın ortaya çıxdığını qeyd etməmək olmaz. Türk Dünyasının Avropa və bütövlükdə Qərblə əlaqələrinin inkişafı və yaxınlaşması baxımından Macarıstan Türkiyə ilə yanaşı kilid ölkələrdən biridir. Onu da unutmaq olmaz ki, Türk Şurasının müşahidəçi statuslu üzvü olan Macarıstan həm də Avropa Birliyinin üzvüdür. Türk Dünyası coğrafiyasında Rusiya, Çin kimi böyük geopolitik iddiaları olan mərkəzlərin rəqabət imkanlarını daraltmaq baxımından Qərblə əlaqələr xüsusilə vacibdir. Macarıstanın prosesdə iştirakı həmçinin Türk Dünyasının mədəni və siyasi coğrafiyasının genişlənməsi deməkdir. Önümüzdəki dönəmdə Macarıstanın müşahidəçi statusdan daha yüksək statusla təmsilçiliyi real görünür. Gələcəkdə Macarıstanın vasitəçiliyi ilə Türk Şurası və Avropa Birliyi arasında ortaq dialoq platforması yaradıla bilər. Toplantı ilə bağlı başqa önəmli məqam isə budur ki, Türkmənistan Türk Şurasının üzvü olmasa da, prezident Qurbanqulu Berdiməhammedov görüşə qatıldı. Türkmənistan dünyada İsveçrə ilə birgə beynəlxalq səviyyədə neytrallığını elan etmiş ölkədir. Buna görə Türkmənistan regional inteqrasiya layihələrində geniş təmsil olunmurdu. Amma son dövrlər aktivlik müşahidə edilir və Türkmənistan Türk Dünyası ölkələri ilə münasibətlərinə xüsusi diqqət ayırmağa başlayıb. Türkiyə ilə əlaqələri artırıb. Digər tərəfdən, Azərbaycanla 30 ildir ki, həll olunmayan yataq məsələsini həll etdi. Burada Azərbaycanın uzlaşmaya zəmin yaradan mövqeyi və Türkiyənin vasitəçilik missiyası önəm daşıyır. Türkmənistan prezidentinin toplantıya qatılması ola bilsin ki, İstanbul zirvəsində bu ölkənin də təşkilata birbaşa və ya müşahidəçi statusla üzv olacağı ilə bağlıdır. Hər halda bu ehtimal yüksəkdir”.

Türk Şurasına üzv olan ölkələrin və bütövlükdə Türk Dünyasının yaxınlaşması və dərin inteqrasiyası digər güclərə necə təsir edəcəyi sualına cavab olaraq ekspert bildirib ki, müəyyən narahatlıqlar var: “Məsələn, Rusiyanın postsovet coğrafiyasına yönəlik imperial iddiaları şiddətlənib. Vladimir Putinin son açıqlamaları da bu baxımdan maraq doğurur. Bu açıqlamalar Orta Asiyada xüsusi həssaslıqla qarşılanır. Amma biz Türkiyənin siyasətində yeniliklər görürük ki, bu amil Rusiyanı balanslaşdırır. Türkiyənin Orta Şərqə yönələn siyasəti Suriya, Misir və Səudiyyə Ərəbistanında bəzi əngəllərlə qarşılaşdı. İndi Türküstan coğrafiyasında Türkiyənin aktivləşməsini müşahidə edirik”.

Siyasi şərhçi toplantıda verilmiş qərarları da şərh edib: “Türk Şurasının zirvə toplantısında qəbul edilən qərarlar və siyasi açıqlamalar da önəmlidir və diqqətlə təhlil olunmalıdır. Məsələn, Qazaxıstanın elbaşı və Türk Şurasının fəxri sədri olan Nursultan Nazarbayevin 2019-cu ildə Bakıda Türk Şurasının türk dövlətləri təşkilatına çevrilməsi və ittifaq xarakterli yeni modellə bağlı açıqlamasını yada salmaq lazımdır. Daha güclü təşkilatlanma, daha dərin inteqrasiya paradiqması ortaya çıxır. Son toplantının yekununda yayılan birgə sənəddə bu məsələ öz əksini tapdı. Bununla bağlı görülməli olan tədbirlərin və atılmalı olan addımların növbəti zirvə toplantısına qədər hazırlanması hədəf kimi qoyuldu. Hazırlıqlar və strukturun uyğunlaşdırılması məsələsi də təsbit edilib. Digər məqam isə 2025 və 2040-cı il üzrə təşkilatlanma ilə bağlı vizyonun ortaya qoyulmasıdır. Toplantıda səsləndirilən başqa səmərəli təkliflərə də nəzər yetirək. Məsələn, Özbəkistan təklif etdi ki, Türk Dünyası İnkişaf Bankı yaradılsın. Həmçinin Qazaxıstan prezidenti Qasım-Jomart Tokayev inteqrasiyanın humanitar və mədəni aspektləri ilə yanaşı, digər aspektlərə də diqqət ayrılmasını və iqtisadi, siyasi inteqrasiyanın dərinləşdirilməsinin önəmindən danışdı. Azərbaycan prezidenti İlham Əliyevin Zəngəzurla bağlı mühüm açıqlamaları oldu. Zəngəzurun Türk Dünyası üçün strateji əhəmiyyəti vurğulandı. Qarabağdakı yenidənqurma işində türk ölkələrinin fəal iştirak etməli olduğuna diqqət çəkildi”.

Təhlilçi Türk Şurasının perspektivi baxımından təşkilatın genişlənməsi imkanlarına da toxunub: “Gələcəkdə böyük türkdilli əhalinin yaşadığı Əfqanıstanın, hətta Pakistanın Türk Şurasına qoşulmasına və təşkilatın regional baxımdan geopolitik önəmini artırmasına şahidlik edə bilərik. Bu ölkələrin Türkiyə və Azərbaycanla yaxşı münasibətləri var və Mərkəzi Asiya regionuna da qonşu bölgədə yerləşirlər. Əfqanıstanda əhəmiyyətli sayda özbək və türkmən əhali var. Azı müşahidəçi statusla üzvlük məsələsi perspektivdə görünür. Düşünürəm ki, təşkilatın beynəlxalq miqyasda rolunu gücləndirmək üçün həmlələr edilməlidir. Məsələn, Ərdoğanın toplantıdakı Şimali Kipr çağırışı bu baxımdan önəmlidir. Düşünürəm ki, gələcəkdə Şimali Kipr Türk Respublikası da, heç olmasa, müşahidəçi statusla təşkilata qoşula bilər”.

***Coşqun Əli***

# İlham Əliyev və Putin Qarabağdakı vəziyyəti müzakirə edib



***Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.***

”Unikal” xəbər verir ki, bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb.

Qeyd edilib ki, telefon danışığı zamanı Dağlıq Qarabağda vəziyyətin sabit olduğu, atəşkəs rejiminə ciddi şəkildə əməl edildiyi vurğulanıb.

”Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev arasında telefon danışığı olub. Dağlıq Qarabağ ətrafındakı vəziyyət müzakirə edilib. Vəziyyətin ümumiyyətlə sabit olduğu və atəşkəs rejiminə ciddi əməl edildiyi məmnunluqla qeyd olunub”, - deyə məlumatda bildirilib.

# Nazir məktəblərin bağlanmasından danışdı

***”Pandemiyanın hazırkı mərhələsində ümumi təhsil müəssisələrinin fəaliyyətinin təşkilinə dair 30 mart tarixində elan etdiyimiz sorğu çərçivəsində 50.000-dən çox rəy qəbul edilib. Rəylərin əksəriyyətinə görə, məktəblərin bu və ya digər formada distant tədrisə keçirilməsi qeyd olunur”.***

”Unikal” xəbər verir ki, bu barədə təhsil naziri E. Əmrullayev öz feysbuk hesabında bildirib. Onun sözlərinə görə, ictimaiyyətin fikrinin qərar qəbulunda nəzərə alınması çox önəmlidir:

”Bu gün yoluxmanın üstünlük təşkil etdiyi ərazilərdə (Bakı, Sumqayıt, Gəncə, Şəki şəhərləri və Abşeron rayonu) tədrisin distant formaya keçirilməsi ilə bağlı qərar qəbul edildi. Təhlillər göstərir ki, son həftə ərzində olan yoluxmaların 80 %-dən çoxu bu bölgələrin payına düşür. Yoluxma hallarının daha az baş verdiyi yerlərdə tədris əyani formada həyata keçiriləcək, lakin yoluxma halları artdığı təqdirdə həmin ərazilərdə də tədrisin distant formaya keçirilməsi nəzərdə tutulur.

Hörmətli təhsil ictimaiyyəti, məlum olduğu kimi, pedaqoji və texniki heyətin peyvənd olunması prosesi davam edir. Bir daha vurğulamalıyam ki, şagirdlərin davamlı öyrənməsi və təhsil müəssisələrinin mütəmadi fəaliyyətinin təmin edilməsində vaksinasiya mühüm faktordur. Hər birinizin bu məsələdə fəal iştirakını vacib hesab edirəm. Müəllimlərin və məktəblərdə işləyən digər şəxslərin qısa zaman ərzində peyvənd olunması ənənəvi təhsilə keçidi sürətləndirən mütləq məqamdır”.

# Baş nazirdən "elektrik enerjisi" ilə bağlı qərar

***Baş nazir Əli Əsədov ”Elektrik enerjisindən istifadə Qaydaları”nda dəyişiklik edilməsi barədə qərar imzalayıb.***

”Unikal” xəbər verir ki, qərara əsasən, alternativ və bərpa olunan enerji mənbələri üzrə elektrik stansiyalarını istismar edən müstəqil enerji istehsalçısı ilə dövlət elektroenergetika müəssisəsi, yaxud enerji təchizatı müəssisəsi arasında elektrik enerjisinin alqı-satqısına dair müqavilələrdə Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə razılaşdırılmaqla, bu Qaydaların müddəalarından fərqli müddəalar nəzərdə tutula və həmin alqı-satqı müqavilələri bu Qaydalara əlavə edilmiş birtipli müqavilələrdən fərqli formada bağlanıla bilər.

Qərara əsasən, həmçinin, elektrik qurğularının şəbəkəyə qoşulması üçün texniki şərtlərə də dəyişiklik edilib.

Müstəqil enerji istehsalçısının alternativ və bərpa olunan enerji mənbələri üzrə elektrik qurğularının şəbəkəyə qoşulmasına dair texniki şərtlər müstəqil enerji istehsalçısı ilə dövlət elektroenergetika müəssisəsi və ya enerji təchizatı müəssisəsi arasında bağlanılmış və Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə razılaşdırılmış şəbəkəyə qoşulma müqaviləsi ilə müəyyən olunur və bu zaman şəbəkəyə qoşulma həmin müqavilənin tələblərinə uyğun həyata keçirilir.

Baş redaktor:
Zaur Əhməd

“Turanbank” ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# İlham Əliyev Selçuk Bayraktarı qəbul etdi

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Türkiyənin ”Baykar” şirkətinin texniki direktoru Selçuk Bayraktarı və ”ASELSAN” şirkətinin idarə heyətinin rəhbəri və baş direktoru Haluk Görgünü qəbul edib.***



”Unikal” xəbər verir ki, Selçuk Bayraktar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, Prezident İlham Əliyevi Vətən müharibəsindəki Qələbə münasibətilə təbrik etdi, şəhidlərimizin xatirəsini andı. Rəcəb Tayyib Ərdoğanın salamlarına görə təşəkkürünü bildirən Prezident İlham Əliyev onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Vətən müharibəsi zamanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkiyə xalqının Azərbaycana dəstəyini xüsusi vurğuladı. Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının martın 31-də keçirilən Zirvə görüşündə Türkiyə Prezidentinin Azərbaycanı bu Qələbə münasibətilə bir daha təbrik etməsini yüksək qiymətləndirdi.

Türkiyənin müdafiə sənayesinin əldə etdiyi nailiyyətlərə toxunan Prezident İlham Əliyev Selçuk Bayraktarın bu uğurların önündə getdiyini vurğuladı, ”Baykar” şirkətinin istehsal etdiyi məhsulların torpaqlarımızın azad olunması zamanı düşmən texnikasının məhv edilməsindəki rolunu qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycanla Türkiyə arasında qardaşlıq əlaqələrinin gücləndirilməsinə, əməkdaşlığın inkişafına, Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin təmin olunması istiqamətindəki haqq işinə verdiyi töhfəyə görə Selçuk Bayraktarın ”Qarabağ ordeni” ilə təltif edildiyini bildirdi və ordeni Selçuk Bayraktara təqdim etdi.

Bu yüksək mükafata görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən Selçuk Bayraktar dedi: ”Həqiqətən də bu, mənim üçün böyük bir qürur və şərəfdir”.

# Aprelin 5-dən Bakı və rayonlarda məktəblər bağlanır

***Mövcud pandemiya şəraiti ilə əlaqədar olaraq, növbəti həftədən etibarən tədrisin təşkili ilə bağlı yeni normaların tətbiqi planlaşdırılır. Bu barədə ”Qafqazinfo”ya Təhsil Nazirliyindən məlumat verilib.***

Bildirilib ki, aprelin 5-dən Bakı, Sumqayıt, Gəncə, Şəki şəhərləri və Abşeron rayonunun ümumi təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin distant (məsafədən) formada təşkili nəzərdə tutulur.

Digər şəhər və rayonlarda isə tədris sanitar-gigiyenik tələblərə əməl edilməklə qismən əyani formada davam etdiriləcək.

Məlumat üçün bildiririk ki, distant tədris zamanı dərslər ”Virtual məktəb”, eləcə də digər onlayn platformalar üzərindən keçirilə bilər. Həmçinin şagirdlərə ”Dərs vaxtı” teledərslərini izləmək tövsiyə olunur.

Qeyd edək ki, ümumi təhsil müəssisələrinin yaşı 50-dən yuxarı olan müəllim və texniki heyətinin martın ilk həftəsindən vaksinasiya prosesinə başlanılıb. Bu günədək proses çərçivəsində 55 faizdən çox müəllim və texniki heyət ”COVID-19” əleyhinə peyvənd olunub. Təhsil prosesinin səmərəli təşkili üçün müəllim, o cümlədən texniki heyətin vaksinasiya prosesində iştirakı zəruridir.




Təhsil Nazirliyi ictimaiyyətə sanitar-gigiyenik qaydalara əməl etməyi, maska taxmaqla və sosial məsafəni gözləməklə ”COVID-19” virusundan qorunmağı bir daha tövsiyə edir.

# Nazir nəqliyyat qurumlarının rəhbərlərini topladı

***Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyev ölkəmizin nəqliyyat qurumlarının rəhbərləri ilə onlayn formatda görüş keçirib.***

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən Modern.az-a bildirilib ki, görüşdə nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini Əli Abdullayev, ”Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Cavid Qurbanov, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov, ”Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-nin Baş direktoru Taleh Ziyadov, ”Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin sədri Rauf Vəliyev, ”Azərbaycan Hava Yolları” QSC-nin vitse-prezidenti Eldar Hacıyev, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (NRYTN) yanında Dövlət Dəniz Agentliyinin direktoru Qüdrət Qurbanov, NRYTN yanında Dövlət Mülki Aviasiya Agentliyinin direktoru Arif Məmmədov iştirak ediblər.



Görüş zamanı ölkənin Vahid Nəqliyyat Strategiyasının hazırlanması və bundan irəli gələn məsələlərin müzakirəsi aparılıb.

Eyni zamanda, işğaldan azad olunan ərazilərimizdə nəqliyyat və rabitə infrastrukturunun bərpası layihələrinin koordinasiyalı şəkildə icrası məsələləri müzakirə predmeti olub.

# Nazirlikdən bağçalarla bağlı açıqlama

***Xəbər verdiyimiz kimi, Təhsil Nazirliyi aprelin 5-dən etibarən Bakı, Sumqayıt, Gəncə, Şəki şəhərləri və Abşeron rayonunun ümumi təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin distant (məsafədən) formada təşkili ilə bağlı qərarını açıqlayıb.***

Nazirlikdən ”Unikal”a verilən məlumata görə, yeni qərar məktəbəqədər tədris müəssisələrini (uşaq bağçalarını) əhatə etmir. Qeyd edək ki, sadalanan ərazilərdən əlavə digər şəhər və rayonlarda tədris sanitar-gigiyenik tələblərə əməl edilməklə qismən əyani formada davam etdiriləcək.

# Baş prokuror Fransa səfiri ilə görüşüb

***Aprelin 1-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Fransa Respublikasının ölkəmizdəki Fövqəladə və səlahiyyətli səfiri Zakari Qros ilə görüşüb.***

Baş Prokurorluğun Mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, qonaqları səmimi salamlayan Baş prokuror Azərbaycanla Fransa arasında ənənəvi dostluq və tərəfdaşlıq əlaqələrinə, bütün sahələrdə işgüzar münasibətlərin mövcudluğuna toxunaraq, dövlətlərimizin hüquq mühafizə orqanları arasında əməkdaşlığı haqqında danışıb.

Baş prokuror otuz ilə yaxın dövrdə Azərbaycanın Ermənistan tərəfindən işğal altında saxlanılan beynəlxalq səviyyədə tanınmış ərazilərinin Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında azad edildiyini, ölkəmizin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində, o cümlədən BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq ərazi bütövlüyünü bərpa etdiyini vurğulayıb.

Kamran Əliyev Ermənistanın silahlı qüvvələri tərəfindən ölkəmizin mülki əhalisinə qarşı törədilmiş cinayətlərlə bağlı Baş Prokurorluğun təşkil etdiyi brifinq və mətbuat konfranslarında Fransa Səfirliyinin iştirakına görə təşəkkürünü bildirib.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Zakari Qros



ikitərəfli münasibətlərə toxunaraq Fransanın Azərbaycanla əlaqələrə böyük önəm verdiyini və iki ölkə arasında münasibətlərin yüksək səviyyədə və müvəffəqiyyətlə inkişaf etdiyini vurğulayıb.

Zakari Qros regionda bundan sonrakı dövrdə sülhün və əmin-amanlığın bərqərar olacağına ümidvar olduğunu bildirib. Səfir mülki əhaliyə və hərbçilərə qarşı törədilmiş qəddarlıqları qətiyyətlə qınadığını qeyd edərək, tərəfləri bu məsələləri araşdırıb təqsirkar şəxslərin cəzalandırılmasına çağırıb.

Həmçinin vurğulanıb ki, Fransa hökuməti beynəlxalq humanitar təşkilatlara dəstək verməklə işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasında, maddi-mədəni irsin bərpasında iştirak etmək üçün hazırdır.

Görüş zamanı Azərbaycan Respublikası Prezidentinin tövsiyə və tapşırıqlarına uyğun olaraq prokurorluqda aparılan genişmiqyaslı islahatlar, prokurorluğun fəaliyyət istiqamətlərinə uyğun yaradılmış yeni idarələr, beynəlxalq təhlükəsizlik və terrorizmə qarşı mübarizədə dövlətimizin göstərdiyi səylər, həmçinin korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilən institusional və cinayət təqibi tədbirləri qeyd edilərək, insan alveri və narkotik vasitələrin qanunsuz dövriyyəsi, mütəşəkkil cinayətkarlığın digər ağır formaları ilə mübarizə sahəsində beynəlxalq qurumlarla, o cümlədən digər ölkələrin müvafiq qurumları ilə səmərəli əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Görüşdə hər iki ölkənin hüquq mühafizə, o cümlədən prokurorluq orqanları arasında konkret cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi, eləcə də cinayət törətmiş şəxslərin ekstradisiyası və sair məsələlər ətrafında müzakirələr aparılıb.

Daha sonra prokurorluq əməkdaşları arasında təcrübə mübadiləsinin aparılmasını təmin etmək məqsədilə Tvinninq və Avropa İttifaqının digər texniki yardım proqramları çərçivəsində qarşılıqlı səfər və görüşlərin keçirilməsinin vacibliyi də qeyd edilməklə geniş fikir mübadiləsi aparılıb.

# Sabiq məmurların gözqamaşdıran pensiya məbləğləri - SİYAHI



***Azərbaycanda sabiq məmurların nə qədər pensiya alması hər kəsin marağında olan mövzudur. Dövlət qulluqçularına, o cümlədən sabiq nazirlərə pensiya təyinatı "Əmək pensiyaları haqqında" Qanunun 20-ci maddəsi əsasında, yəni sığorta göstəriciləri nəzərə alınmaqla, qulluq stajına görə əmək pensiyasına əlavələr hesablanmaqla həyata keçirilir. Qulluq stajına münasibətdə onlara təyin olunmuş pensiyanın məbləğləri fərqli ola bilər.***

Unikal.org-a sabiq nazirlərin, məmurların və millət vəkillərinin bir neçəsinin təqaüd məbləğini təqdim edir:

Sabiq baş nazir Novruz Məmmədov 1500 manat pensiya alır.

Baş nazirin sabiq müavini, Bakı Şəhər İcra Hakimiyyətinin sabiq başçısı Hacıbala Abutalıbov 4000 manat təqaüd alır.

Baş nazirin sabiq müavini Abid Şərifovun pensiyası 3500 manatdır.

Baş nazirin sabiq müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sabiq sədri Əli Həsənova 4000 manat pensiya təyin edilib.

Baş nazirin sabiq müavini Elçin Əfəndiyev 3500 manat pensiya alır.

Baş nazirin sabiq müavini, sabiq Kənd Təsərrüfatı naziri İsmət Abbasova 3500 manat təqaüd təyin edilib.

Sabiq Təhsil naziri, Riyaziyyat və Mexanika İnstitutunun direktoru Misir Mərdanovun təqaüdünün məbləği 2300 manatdır.

Bakı Dövlət Universitetinin eks-rektoru Abel Məhərrəmov 4000 manat pensiya alır. Bakı Metropoliteninin sabiq rəisi Tağı Əhmədova 3640 manat təqaüd təyin olunub. Sabiq millət vəkili Ağacan Abıyev 2500 manat pensiya alır.

*Orxan Həsənli*

# Zakir Həsənov Selçuk Bayraktarı qəbul edib

***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, Müdafiə naziri iki ölkə arasında hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu, bu əlaqələrin inkişaf etdiyini və möhkəmləndiyini vurğulayıb. Dövlətlərimiz arasında əlaqələrin inkişafında ölkə rəhbərlərinin dostluq münasibətlərinin mühüm rol oynadığını deyən general-polkovnik Z.Həsənov bu cür görüşlərin qarşılıqlı əməkdaşlığımızın genişləndirilməsi baxımından vacibliyini xüsusi vurğulayıb.

Bildirilib ki, Azərbaycan Ordusunun silahlanmasında olan "Baykar" şirkətinin istehsal etdiyi pilotsuz uçuş aparatları (PUA) hərbi potensialımızı əhəmiyyətli dərəcədə gücləndirib. Həmin PUA-ların Vətən müharibəsində effektiv tətbiqi nəticəsində düşmənə ciddi zərbə vurulub, onun xeyli sayda canlı qüvvəsi və döyüş texnikası məhv edilib.

Görüşdə tərəflər Azərbaycan ilə



Türkiyə arasında hərbi-texniki əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivlərini də müzakirə ediblər.

# Kadırov Nobel Sülh Mükafatına namizəd göstərildi

***Çeçenistan lideri Ramzan Kadırov Nobel Sülh Mükafatına namizəd göstərilib.***

Bu barədə respublikanın informasiya və mətbuat naziri Əhməd Dudayev bildirib. Kadırov son 15 ildə tarixən çətin bir bölgədə etibarlı sülhün qurulmasına və qorunmasına böyük töhfə verdiyi üçün namizəd irəli sürülüb. "Bölgə rəhbəri beynəlxalq terrorizm üzərində qələbə, iqtisadiyyatın və sosial sahənin sürətlə bərpa olunması üçün cəmiyyətdə belə bir qiymətləndirmə alıb", - deyə o bildirib. Müraciətin kimin tərəfindən edildiyi məlum deyil. Dudayevin sözlərinə görə, bu məxfi məlumatdır. Beynəlxalq Nobel Məlumat Mərkəzinin prezidenti Vyaçeslav Tyutyunnik deyib ki, nizamnaməyə əsasən bu, açıqlana bilməz.

# Prezident Rusiya Hökuməti sədrinin müavinini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçuku qəbul edib.***

"Unikal" xəbər verir ki, Rusiya Hökuməti sədrinin müavinini salamlayan Prezident İlham Əliyev deyib:

-Sizi yenidən görməyimə şadam. Xoş gəlmisiniz. Üçtərəfli işçi qrupu çərçivəsində işlər uğurla gedir. Çox intensiv məsləhətləşmələr aparılır. Bu məsələ barədə mənə vaxtaşırı məruzə edirlər. Şadam ki, qəbul edilmiş qərarın düzgün olması təsdiqlənir, ən başlıcası, artıq konkret nəticə var.

Bildiyimə görə, artıq həm əyani, həm də videokonfrans formatında beş iclas keçirilib. Beləliklə, müzakirə üçün mövzu var və bu mövzu həm iqtisadi preferensiyalar, həm regional əməkdaşlıq, həm də bizim regionda təhlükəsizliyin və sülhün möhkəmlənməsi baxımından vacibdir. Xüsusən ona görə ki, münaqişədən sonrakı dövrdə vəziyyət bütövlükdə müsbət istiqamətdə inkişaf edir, eskalasiya riskləri minimaldır. Təbii ki, əməkdaşlıq elementləri nə qədər çox olsa, təhlükəsizlik və sabitlik də bir o qədər möhkəm olacaq. Ona görə də biz bu gün həmin məsələləri müzakirə edəcək, sonrakı addımlarımızı və fəaliyyətimizi planlaşdıracağıq. Bir daha xoş gəlmisiniz.

Rusiya Hökuməti sədrinin müavini Aleksey Overçuk deyib:

-Sağ olun, hörmətli İlham Heydər oğlu. Sizinlə görüşmək, regionda iqtisadi və nəqliyyat əlaqələrinin bərpası üzrə Baş nazirlərin müavinlərinin üçtərəfli işçi qrupu çərçivəsində aparılan işləri müzakirə etmək imkanına görə təşəkkürümü bildirmək istəyirəm. Siz qeyd etdiyiniz kimi, biz həm əyani, həm də videokonfrans rabitəsi rejimində beş dəfə görüşmüşük. Həqiqətən işimizdə müəyyən tərəqqi var və sıx əlaqəli şəkildə işləyirik. Biz həm Azərbaycan tərəfi, həm də Ermənistan tərəfi ilə daim əlaqədəyik. Həqiqətən burada çox yaxşı əlaqə yaradılıb.

# Mikayıl Cabbarov Dünya Bankının regional direktoru ilə görüşdü

***Dünya Bankının Cənubi Qafqaz üzrə Regional direktoru Sebastian Molineus və İqtisadiyyat naziri Mikayıl Cabbarov arasında görüş keçirilib.***

"Unikal"ın məlumatına görüşdə, pandemiyadan sonra iqtisadibərpa, potensial investisiya sahələri üzrə əməkdaşlıq layihələrin icra vəziyyəti və gələcək perspektivlərin müzakirəsi aparılıb.

# Araik Arutunyan Xocavəndə gəldi

***Qarabağdakı terrorçuların lideri Araik Arutunyan Xocavənd rayonuna gəlib.***

"Unikal" yerli KİV-ə istinadən xəbər verir ki, o, bölgədə insanların yaşaması üçün tikinti-təmir işlərinin genişləndiriləcəyindən danışıb.

Arutunyan Qırmızı Bazar qəsəbəsinin sülhməramlıların nəzarətinə keçəcəyi ilə bağlı xəbərləri də təkzib edib.



## Prezident Selçuk Bayraktarı ordenlə təltif etdi

***”Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən ”Qarabağ” ordeninə layiq görüldüyüm üçün böyük şərəf və qürur duyuram”.***

Unikal.org xəbər verir ki, bunu Bakıda səfərdə olan Türkiyənin “Baykar” şirkətinin texniki direktoru Selçuk Bayraktar Prezident İlham Əliyevlə olan fotosunu tvitterdə paylaşaraq yazıb.

Qeyd edək ki, bu gün Prezident İlham Əliyev ”Qarabağ” ordenini S.Bayraktara təqdim edib.

## Vilayət Eyvazov onu Şəmkirə DYP rəisi təyin etdi

***Daxili İşlər orqanlarında növbəti kadr dəyişikliyi olub.***

Unikal.org-un əldə etdiyi məlumata görə, Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun əmri ilə, polis mayoru Ramin Fətullayev Şəmkir rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin (DYPB) rəisi təyin olunub. O, bu təyinata qədər Gəncə şəhər Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin (DYPB) rəis müavini vəzifəsində çalışıb.

***Orxan Həsənli***

## Azərbaycanda vəzifəli şəxs işdən çıxarıldı

***Goranboy rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev müavinini işdən çıxarıb.***

Unikal.org-un əldə etdiyi məlumata görə, M.Quliyevin əmri ilə, Goranboy RİH başçısının birinci müavini Ceyhun Həsənov tutduğu vəzifədən azad olunub.

C.Həsənov işdən çıxdığı xəbərini təsdiqləyib. O, bildirib ki, öz ərizəsi ilə vəzifəsindən ayrılıb.

## Bu il Azərbaycandan Həcc ziyarəti olmayacaq

***”Böyük ehtimalla bu il də Azərbaycandan Həcc ziyarəti olmayacaq”.***

Bu barədə Unikal.org-a Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) bildirilib.

QMİ-dən qeyd olunub ki, bu gün üçün Həcc ziyarəti ilə bağlı hər hansı yenilik yoxdur:

“Vaxt azlığı da nəzərə alınsa, ehtimal var ki, bu il də ölkəmizdən ziyarət baş tutmayacaq. Amma hər an hər şey dəyişə də bilər”.

Qeyd edək ki, ötən il üçün də koronavirus pandemiyası səbəbindən Azərbaycandan Həcc ziyarətinə baş tutmayıb.

Xatırladaq ki, ölkədə Qurban bayramı 20-21 iyulda qeyd olunacaq.

# “Rusiyanın Qarabağdakı “planlarını” yalnız Türkiyə poza bilər”

### Elxan Şahinoğlu: “Kreml Qarabağda qarşısında Türkiyəni görməlidir, əks halda Azərbaycan torpaqlarında hərbi baza qurmağa çalışacaq, buna yol vermək olmaz”

***Martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında qeyri-formal Zirvə görüşü keçirilib. Görüşdə türkdilli ölkələrin müxtəlif istiqamətlərdə əməkdaşlığı ilə bağlı mühüm məsələlərə toxunulub, önəmli mesajlar verilib. Xüsusən də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxığı zamanı Azərbaycan-Türkiyə qardaşlığı və Qarabağla bağlı mühüm məqamlara toxunub. “Unikal” qəzetinə müsahibə verən politoloq Elxan Şahinoğlu ilə söhbətə də elə bu mövzudan başladıq.***

***-Elxan bəy, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası zamanı Ərdoğanın Aərbaycan və Qarabağla bağlı mövqeyini necə qiymətləndirdiniz?***

-Əslində, Türkiyənin də, Türkiyə Cumhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın da mövqeyi bəllidir. Ərdoğanın Türk Şurası Liderlər Zirvəsində çıxışı zamanı Azərbaycanı Dağlıq Qarabağın işğaldan azad edilməsi münasibətilə təbrik etdi və həmkarlarına məsləhət gördü ki, hamılıqla birlikdə Azərbaycanın yanında olaq, həm də Ramazan bayramından sonra Şuşaya gələcəyini, Şuşada yeni bir bayram yaşayacağını bəyan etdi. Bəli. Ərdoğanın Şuşaya gəlişinə ehtiyacımız var. Rusiyanın və Kreml sahibinin Qarabağdakı “planlarını” Türkiyə və Ərdoğan poza bilər. Kreml Qarabağda qarşısında Türkiyəni görməlidir, əks halda Azərbaycan torpaqlarında hərbi baza qurmağa çalışacaq. Buna yol verməк olmaz. İnanıram ki, Türkiyə Cumhurbaşqanının Şuşada verəcəyi mesajlar arasında bu da olacaq.

Onu da qeyd etmək yerinə düşər ki, Rusiya hərbçiləri Qarabağı tərk etməyənə qədər məsələni tam həll etmək çətin olacaq. Bu səbəbdən də Türkiyə ilə siyasi və hərbi ittifaqı gücləndirməliyik. Çünki təkbaşına Rusiya hərbçilərinin Qarabağı tərk etməsinə nail ola bilmərik.

***-Ərdoğan Qarabağla yanaşı, Kiprlə bağlı da mesaj verdi...***

-Bəli. Türkiyə Cumhurbaşqanı Rəcəb Tayyib Ərdoğan Türk Şurası Liderlər Zirvəsindəki çıxışı zamanı Qarabağla yanaşı, Kıbrısla bağlı da istəyini dilə gətirdi. Bildirdi ki, Türk dünyasının ayrılmaz parçası olan Kipr türkləri ilə həmrəy olmaq qardaşlıq borcudur: “İllərdir məruz qaldıqları haqsızlıqlar və embarqoların ləğv edilməsi üçün Kipr türklərinə lazımi yardımı əsirgəməyəcəyinizə inanıram”.

Türkiyə Cumhurbaşqanı anlayır ki, türkdilli dövlətlərin Kuzey Kıbrıs Türk Cumhuriyyətini rəsmən tanımaları problematikdir. Ancaq türkdilli dövlətlərə Kıbrıs türkləri ilə əlaqə qurmağa heç nə mane olmur. Bu formulu Ərdoğan sonrakı cümləsində belə təsvir etdi: “Kipr türk xalqının Türk Şurasının mədəniyyət, təhsil, elm və idman kimi fəaliyyətlərinə qatılması təcridin təsirlərini azaltmağa yardımçı olacaq. Güc birliyi ilə Kipr türklərini də layiq olduqları səviyyəyə çatdıracağımıza inanıram”. Yəni Türkiyə Cumhurbaşqanı demək istədi ki, türkdilli dövlətlər Kıbrıs türklərini təcriddən çıxarmaq üçün elm, təhsil və idman sahələrində əməkdaşlıq etsinlər. Mərkəzi Asiya ölkələri özləri bilər, ancaq rəsmi Bakı Türkiyə Cumhurbaşqanının Kıbrıs çağırışını cavabsız qoymamalıdır.

***-Elxan bəy, narahatlıq yaradan məqamlardan biri də hazırkı situasiyada Rusiya müdafiə nazirinin müavininin Qarabağa səfər etməsidir. Bu barədə Siz nə düşünürsünüz?***

-Rusiya müdafiə nazirinin müavini, ordu generalı Dmitri Bulqakov Qarabağda olub, Xankəndiyə sülhməramlılar üçün inşa edilmiş blok-modul şəhərciyinin açılışında iştirak edib. Rus general açılışda bunu deyib: “25 belə qəsəbənin avadanlıqlarını tamamlayırıq, istismara vermə və tənzimləmə işləri davam edir. 5 aprel tarixindən gec olmayaraq hər şey istifadəyə veriləcək, yəni bütün sülhməramlılarımız təchiz ediləcək”. O da vurğulanıb ki, Rusiya müdafiə naziri Sergey Şoyqunun qərarı ilə Dağlıq Qarabağda səyyar xəstəxana tikilir.

***-Əslində, bu səfər hansı şərtlərlə baş tutmalı idi?***

-Rusiya müdafiə nazirinin müavini Xankəndiyə gəlməmişdən öncə Bakıya gəlməli, azərbaycanlı həmkarıyla görüşməli və Dağlıq Qarabağa səfərinin məqsədini bəyan etməli idi. O da izah olunmalı idi ki, 10 noyabr bəyanatında rusiyalı hərbçilərin Dağlıq Qarabağda sayı 1960 nəfər göstərildiyi halda, Dağlıq Qarabağda hərbi şəhərciklərin sayı niyə artır? Normalda rusiyalı general Xankəndidə açılışlar edərkən yanında Azərbaycanın müdafiə nazirinin müavini də dayanmalı idi.

***-Elxan bəy, Ermənistanda vəziyyət hələ də gərgindir. Hətta beynəlxalq aləm də bu ölkədə baş verənlərdən necə deyərlər bir şey anlamır...***

-Bildiyiniz kimi, “GALLUP International Association” beynəlxalq mərkəzinin İrəvan ofisi hər ay Ermənistanda sorğular keçirir. Bu təşkilatın Ermənistanda keçirdiyi son sorğunun nəticəsi də diqqəti çəkir. Soğrunun birinci hissəsi parlament seçkisinə, ikinci hissəsi isə Ermənistana tərəfdaş olan dövlətlər və təşkilatlarla bağlıdır.

Mərkəzin keçirdiyi sorğunun nəticəsinə görə Ermənistanda parlament seçkisi bu həftə keçirilərsə baş nazir Nikol Paşinyanın “Mənim addımım” partiyası seçicilərin 31 faiz səsini qazanacaq. Ötən ay da eyni nəticə qeydə alınmışdı. Paşinyanın partiyasının müharibədə ağır məğlubiyyətdən sonra reytinqi azalsa da, o rəqiblərini yenə də dəfələrlə üstələyir. O biri qrupların sıralamasına nəzər yetirək:



Eks-prezidenti Robert Köçəryan - 5.9%, “Çiçəklənən Ermənistan” - 4.4 %, “Respublika Partiyası” - 2.4%, “Daşnaksütun Partiyası” - 2.1%, Vazgen Manukyanın lideri olduğu “Vətən Xilas Hərəkatı” - 1%, digərləri isə sıfırın altındadırlar.

***-Bu nəticə nəyi göstərir?***

-Bu nəticə o deməkdir ki, Nikol Paşinyanın partiyası iyundan sonra Ermənistan parlamentində yenidən çoxluğa malik olacaq. Sadəcə əsas sual budur: Paşinyanın əldə edəcəyi səslər ona təkbaşına hökuməti formalaşdırmağa imkan verəcəkmi? Bütün hallarda Nikol Paşinyan yeni hökumətin də əsas ortağı olacaq. Sorğu bir başqa rəqəmi də ortaya qoyub: Ermənistan vətəndaşlarının cəmi 41.2 faizi 20 iyun parlament seçkisində iştirak edəcəklərini bildiriblər. Paşinyan iyuna qədər daha çox tərəfdarını seçkiyə həvəsləndirməlidir.

“GALLUP International Association” beynəlxalq mərkəzinin İrəvan ofisi “Ermənistan hansı ölkə və qurumlarla müttəfiqliyi gücləndirməlidir” sualına da cavab axtarıb. Rusiya mütləq liderdir. Ermənilərin 62.9 faizi Ermənistanın Rusiya ilə müttəfiqliyini gücləndirməyi lazım biliblər. Sonrakı yerlər belədir: “ABŞ - 16.4%, Fransa - 6.4%, Avropa İttifaqı - 5.2%, İran - 2.4 %, Gürcüstan - 0.7%, NATO - 0.7%, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı - 0.2%”.

Bu nəticə ondan xəbər verir ki, ermənilərin mütləq əksəriyyəti Rusiyanın vassallığını qəbul edir. Ermənistanla əlaqələrə önəm verən Tehranda görsünlər ki, sorğunun nəticələrinə görə ermənilər Amerika ilə əlaqələri İranla əlaqələrdən daha üstün tuturlar. Gürcüstanla bağlı rəqəm də Tiflis üçün düşündürücü olmalıdır.

***Z.Məmmədli***

# Hacıbala Abutalıbovun oğulları ilə bağlı absurd məntiqi

## Bakının sabiq meri cəmiyyəti sadəlövh hesab edir, yoxsa özünü Eynşteyn sayır?

***Yola saldığımız həftə Bakı Şəhər İcra Hakimiyyətinin sabiq başçısı və Baş nazirin keçmiş müavini Hacıbala Abutalıbov uzun fasilədən sonra mətbuata geniş müsahibə verib. Hacıbala müəllim müsahibəsində xeyli məqamlara toxunub, lakin həmin məqamlarla bağlı hər hansı şərh verməyə lüzum görmürük. Çünki bu dediklərini o, müxtəlif zamanlarda müxtəlif formada təkrarlayıb və ictimai rəydə həmin sözləri öz qiymətini alıb.***

Haqqında danışdığımız müsahibədə cənab Abutalıbovun xüsusi diqqət çəkən açıqlaması övladlarının iri biznesə malik olması barədə dedikləridir. Əslində eks-merin bu dediklərində də qeyri-adi heç nə yoxdur. İndiki və keçmiş məmurlarımızın ənənəvi suallar qarşısında cavabları təxminən eynidir: "Məmur övladlarıdır deyə bizneslə məşğul ola bilməzlər?"

Hacıbala müəllim də həmin "ənənədən" kənara çıxmayıb və deyib: "Mənim oğlanlarım uşaq deyil, 40-42 yaşları var. Ataları mənəm deyə, özlərinə iş qurmamalıdırlar, öz ailələrini dolandırmamalıdırlar? Hamı hansısa işi ilə, əməyilə ailəsinə çörək qazanır, mənim övladlarım da o insanlardan biridir".

Bəs cənab Abutalıbov harada səhv edir?

Əvvəla, indiyədək ölkə mediası daxil olmaqla ictimai rəydə heç kim, heç vaxt "filankəs məmur övladıdır, ona görə bizneslə məşğul ola bilməz" deyə bir fikir səsləndirməyib. Səsləndirilən fikir olduqca sadə, xeyli bəsitdir: həmin məmur övladı sıradan vətəndaşın övladı olsaydı, yenə belə "uğurlu biznesmen"ə çevrilərdimi, normal ölkələrdə qurulmasına onillərin tələb edildiyi holdinqləri cəmi bir neçə ilin içində yarada bilərdimi? Üstəlik, həmin holdinqlər yarandıqdan sonra nəhəng biznes imperiyalarına çevrilə, nəinki ölkə daxilində, onun hüdudlarından kənarda belə görünməmiş sürətlə qol-budaq ata bilərdimi?

İkincisi, cənab Abutalıbovun övladları əlbəttə, bizneslə məşğul ola bilər. Lakin cəmiyyəti düşündürən məsələ tamamilə başqadır: hörmətli Hacıbala müəllim, oğullarınızın qısa vaxtda sahib olduqları nəhəng biznes şəbəkəsinin qaynağı nədir? Hər halda onlar nə Stiv Cobdsdurlar, nə Bill Qeyts, nə Elon Mask, nə də Cek Madırlar. Elə isə hansı imkanlar, mənbələr hesabına Azərbaycanda və onun hüdudlarından kənarda, həm də qısa zamanda bu qədər nəhəng sərvətə sahib olublar?

Keçmiş mer yanlış anlamasın. Bu sual yalnız ona yox, vəzifəli şəxslərin əksəriyyətinə ünvanlanıb. Guya kimsə bilmirmi ki, məsələn, eks "nəqliyyat şefi" Ziya Məmmədovun oğlu Anar Məmmədovun bir zamanlar "uğurlu biznesmen" kimi parlamasının səbəbi nə üstün zəka sahibi, nə də "milli Zükerberq"-filan olması idi. Onun rəhbərlik etdiyi holdinqin kökündə atasının korrupsiya hesabına qazandığı yüz milyonlarla manat dayanırdı. Necə ki Ziya müəllimin "vurulması" ilə birlikdə həmin biznes şəbəkəsi də çökdü.

Əminik ki, Hacıbala müəllimin oğullarının qurduqları biznesin də mənbəyi elə atalarının tutduğu vəzifədir. Daha doğrusu, həmin vəzifə sayəsində əldə olunan imtiyazlar və sıradan vətəndaşın hətta yuxusunda görə bilməyəcəyi qədər böyük məbləğdə, fantastik pullardır. Bu pulların necə əldə edildiyini bilmək üçün isə baş sındırmağa ehtiyac qalmır. Elə təkcə mer olduğu zaman cənab Abutalıbovun keçirdiyi qeyri-şəffaf satınalmalara,



paytaxtı bürüyən zövqsüz, qeyri-estetik, xaotik "tikinti bumuna" və s. göz atmaq kifayətdir.

Haqqında danışdığımız müsahibəsində sabiq mer "səmimiyyət" sözünü tez-tez işlədir. Əlbəttə, bu onun səmimiliyinə dəlalət eləmir. Belə olsaydı, bir insanı qiymətləndirmək üçün ölçü vahidi olaraq elə sözləri götürmək kifayət edərdi. Kim daha çox "dürüstlük" sözü işlədir, deməli, ən dürüst adam odur, kim ən çox "yaxşılıq" sözü işlədir, deməli, ən yaxşı adam odur və s. Lakin nə etməli ki, insanlar sözlərlə yox, əməllərlə qiymətləndirilir və Hacıbala müəllimin də mer vəzifəsində çalışarkən nələrə qol qoyduğu hər kəsə bəllidir. İnternet resursları onun, yaxınlarının sahib olduğu varidata dair siyahılarla zəngindir. Cənab Abutalıbov səmimi cavab versin: bütün bu var-dövlət, doğrudanmı, maaşla əldə edilib? Həqiqətənmi, onun övladları keçmiş merin və sabiq Baş nazirin oğulları olmasaydı, yenə də bu nəhəng biznesə sahib olacaqdılar?

Ümid edək ki, Hacıbala müəllim növbəti müsahibələrində daha açıq danışacaq və nə cəmiyyəti bu qədər sadəlövh yerinə qoyacaq, nə də özünü Eynşteyn kimi ağıllı göstərəcək.

Sabiq mer, ola bilsin, vaxtilə gerçəkdən də yaxşı fizik olub, lakin hər halda "fizikanın atası" sayılan Albert müəllim deyil. Bunu da eləbelə xatırlatdıq...

***Sənan Mirzə***

# Hansı halda tək şəxsiyyət vəsiqəsi ilə Türkiyəyə səfər edə bilərik?

***Azərbaycan vətəndaşları üçüncü ölkədən Türkiyəyə biometrik şəxsiyyət vəsiqəsi ilə səyahət edə bilməyəcəklər.***

Unikal.org-un məlumatına görə, bu barədə Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bildirib. Onun sözlərinə görə, üçüncü ölkədən Türkiyəyə səfər edən şəxslər mütləq şəkildə ümumvətəndaş pasportundan (xarici pasport) istifadə etməlidir:

"Vətəndaşlar biometrik şəxsiyyət vəsiqəsi ilə yalnız Azərbaycandan Türkiyəyə səfər edə biləcəklər. Azərbaycan vətəndaşı Türkiyədən üçüncü ölkəyə yaxud üçüncü ölkədən Türkiyə ərazisinə keçid etmək istədikdə, mütləq şəkildə ümumvətəndaş pasportundan istifadə etməlidir".

Qeyd edək ki, bu gündən etibarən Azərbaycan və Türkiyə vətəndaşları biometrik şəxsiyyət vəsiqələri ilə hər iki ölkə ərazisinə səfər edə və orada 90 gün qala bilərlər. Bu halda hər iki ölkə vətəndaşlarına məxsus sərhədkeçmə sənədləri - şəxsiyyət vəsiqəsi və ya ümumvətəndaş pasportu (xarici pasport) ölkə ərazisinə giriş tarixindən etibarən ən azı 30 gün etibarlılıq müddətinə malik olmalıdır.

# Deputatlar Bolqarıstanda parlament seçkilərini müşahidə edəcəklər

***Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev və Azərbaycan-Bolqarıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Rauf Əliyev Bolqarıstanda keçiriləcək parlament seçkilərini müşahidə etmək üçün aprelin 2-də bu ölkənin paytaxtı Sofiya şəhərinə səfər edəcəklər.***

Bu barədə Unikal.org-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Bildirilib ki, M.Quliyev Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin, R.Əliyev isə Milli Məclisin xətti ilə seçkiləri izləyəcəklər.

Aprelin 4-də keçiriləcək seçkilər zamanı deputatlarımız bir sıra məntəqələrdə olacaq, orada yaradılmış şəraitə, seçicilərin fəallığına diqqət yetirəcək, prosesin gedişini müşahidə edəcəklər.

Səfər aprelin 6-da başa çatacaq.

# "Vaksinasiyanın effektivliyi üçün..." - Rəşad Mahmudov

***Bu gün həm Azərbaycanda, həm də dünyada koronavirusa yoluxmanın yeni bir dalğa ehtimalı ilə artması qətiyyətlə peyvəndə qarşı əks-təbliğat kimi istifadə oluna bilməz.***

"Unikal" xəbər verir ki, bunu Trend-ə Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov deyib.

R.Mahmudov bildirib ki, COVİD-19-dan əvvəl də məlumdur ki, istənilən peyvəndin epidemioloji vəziyyətdə effektiv olması üçün risk qrupunda olan əhalinin ən azı 60-70 faizinin peyvənd olunmasına ehtiyac var:

"Bu gün ölkəmizdə hələ əhalinin təxminən 5 faizi peyvənd olunub. Bu göstərici ilə peyvəndin istənilən bir dalğanın qarşısını ala biləcəyi ehtimalını ortaya qoymaq elmi reallıqlara əksdir və hazırki şəraitdə vaksinlərin effektivsizliyi haqqında fikir ortaya qoymaq da bimənalı olaraq qeyri-peşəkar yanaşmadır".

# Abşeronda 8 yeni məktəb tikiləcək

***Abşeron rayonunda şagird sıxlığının aradan qaldırılması üçün 8 yeni orta məktəb binasının, 14 əlavə tədris korpusunun tikintisi planlaşdırılır.***

"Unikal"ın məlumatına görə, bunu Abşeron rayon Təhsil Şöbəsinin müdiri Nazilə Məmmədova deyib. Onun sözlərinə görə, Təhsil Nazirliyi tərəfindən Abşeronda bir neçə əraziyə baxış keçirilib: "Sarayda 1 və 3 saylı, Qobuda 3 saylı, Ceyranbatanda 2 saylı orta məktəbdə əlavə tədris korpusu tikiləcək.

Ehtiyac nəzərə alınaraq, həmin ərazilərdə növbəti illərdə yeni məktəb binaları da tikiləcək. Artıq Xırdalan şəhərində 1, Masazır qəsəbəsində 2 məktəb binasının inşasına başlanılıb. Saray qəsəbəsində 1 yeni məktəb binası tikilir, 2 saylı tam orta məktəbin binası isə yenilənir".



## Milli Məclisin iclası keçiriləcək

***Aprelin 2-də Milli Məclisin növbəti plenar iclası keçiriləcək.***

"Unikal" xəbər verir ki, iclasın gündəliyinə 13 məsələ daxil edilib. Bunlar aşağıdakılardır:

1. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) illik məruzəsi haqqında.
2. "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında fövqəladə halların nəticələrinin qarşısının alınması, məhdudlaşdırılması və azaldılması sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.
3. Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).
4. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).
5. "Elektroenergetika haqqında", "Qaz təchizatı haqqında", "Su təchizatı və tullantı suları haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).
6. "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.
7. "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.
8. "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).
9. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).
10. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).
11. "Veteranlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).
12. "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).
13. Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

# Əbülfəs Qarayevin "tender korrupsiyası"nın gizlinləri gün işığına çıxır

## Sabiq nazir vəzifədə olarkən milyonlarla manat dövlət vəsaitini kimlərə və necə "peşkəş" çəkib?

***Əbülfəs Qarayevin Mədəniyyət naziri olduğu dövrdə keçirilən tenderlərdə ciddi korrupisya hallarına yol verilib. Bu səbəbdən də onun rəhbərliyi zamanında baş tutan dövlət satınalmaları ilə bağlı araşdırmalar aparılması kifayət qədər realdır. Bu barədə "Unikal" qəzetinə məlumatlı mənbədən bildirilib.***

Mənbənin sözlərinə görə, internet resurslarında kiçik bir araşdırma aparmaqla vaxtilə Mədəniyyət Nazirliyində "tender" adı altında müəmmalı əməliyyatların gerçəkləşdiyi qənaətinə rast gəlmək mümkündür: "Bu proses nazirlikdən yerli, regfional idarələrəcən uzanıb. Nəticədə milyonlarla manat dövlət vəsaitinin şəffaf, təyinatı üzrə xərclənməsi ciddi şəkildə şübhə altına düşüb. Məsələn, adıçəkilən nazirliyin Əbülfəs Qarayevin zamanında Şəki Regional Mədəniyyət İdarəsinin sifarişçisi olduğu tenderlərə göz ataq. 2018-ci ildə həmin idarənin ümumi məbləği 269.138 manat olan tenderinin qalibi "Qarabulaq" MMC elan edilib. Həmin şirkətin hüquqi ünvanı Qax rayonunun Əmircan kəndində idi. Lakin o vaxt bu kəndin bələdiyyə sədri belə bir təşkilatı tanımadıqlarını bildirmişdi. Təkcə bu faktın özü Qarayevin naziri olduğu Mədəniyyət Nazirliyinin keçirdiyi tenderlərin ədalətliliyi və obyektivliyi barədə yekun qənaətə gəlməyə əsas verir".

Mənbə daha bir maraqlı məqama da diqqət çəkib: "2018-ci ildə yuxarıda adı çəkilən şirkətin qalib olduğu 101.811,51 manatlıq tenderlə bağlı da ilginc nüans ortaya çıxmışdı. Həmin tenderin istiqaməti yanacaq məqsədilə odun alınması idi. Lakin Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) mətbuat xidmətinin rəhbəri İradə İbrahimovanın mətbuata açıqlamasından məlum olmuşdu ki, meşədə kökstə qurumuş, inkişafdan qalmış, xəstə və meşə ərazilərində yıxılmış ağaclar hesabına oduncaq ilk növbədə



Müdafiə Nazirliyinin hərbi hissələrinə, Dövlət Sərhəd Xidmətinin sərhəd qoşunlarına, Daxili İşlər Nazirliyinin daxili qoşun hissələrinə, təhsil və səhiyyə müəssisələrinə, imtiyazlı şəxslərə və qazlaşdırılmayan kəndlərdəki əhaliyə mövcud qanunvericilik əsasında dəyəri ödənilməklə ETSN-nin Regional Meşə Təsərrüfatı Müəssisələri tərəfindən verilir. O, əlavə etmişdi ki, Regional Meşə Təsərrüfatı Mərkəzləri tərəfindən "Qarabulaq" MMC-yə odun satışı olmayıb. Elə isə 100 min manatdan çox vəsait hara xərclənib? Əbülfəs Qarayevin rəhbərliyi vaxtında ortaya çıxan həmin sual digər suallar kimi cavabsız qalmışdı".

Keçmiş nazirin fəaliyyət dövrü dərindən araşdırılacağı təqdirdə buna bənzər yüzlərlə faktın ortaya çıxacağına şübhə eləməyən qaynağımız bildirib ki, Qarayev faktiki olaraq milyonlarla manat dövlət vəsaitini kimlərəsə "peşkəş" çəkib, ən yaxşı halda peşkəş çəkənlərə göz yumub: "Əslində sonuncu versiya o qədər də ağlabatan deyil. Çünki Mədəniyyət Nazirliyi strukturlarının keçirdiyi tenderlərin şəfaflıqdan uzaq olduğu, birilərinin maraqlarına, mənafelərinə qulluq etdiyi barədə ölkə mətbuatı mütəmadi yazırdı. Əbülfəs müəllim ən azından bu yazıların araşdırılmasına göstəriş verə bilərdi. Lakin ortada belə bir göstəriş yoxdursa, deməli, sabiq nazirin tender adı altında baş verən oyunlardan, korrupsiya əməliyyatlarından xəbəri olub, sadəcə, həmin əməllərdən özü də fayda götürdüyü üçün belə işləri görməzdən gəlib, hətta onlara "yaşıl işıq" yandırıb".

"Unikal" qəzeti olaraq indiyədək dövlət satınalmalarındakı qaranlıq məqamlarla bağlı dəfələrlə, ətraflı bəhs etmiş və ölkədə korrupsiyanın kökünün kəsilməsinə həm də dövlət satınalmalarından başlamağın zəruriliyinə toxunmuşuq. Bildirmişik ki, Azərbaycanda faktiki olaraq "tender korrupsiyası" formalaşıb. Bu isə məmurların büdcə vəsaitlərinə xalqın və dövlətin malı kimi yox "dədə malı" kimi baxmasının nişanəsidir. Onlar üçün büdcə pullarının bircə təyinatı var: talançılıq! Nəyin bahasına olur- olsun, həmin pulları havaya sovurmaq, öz ciblərinə yönəltmək, nəticədə isə bunun fərqli hiylələrini fikirləşib tapırlar. Həmin hiylələrin bir çoxu elə müəmmalı, şübhəli tenderlər vasitəsilə həyata keçirilir. Necə ki Əbülfəs Qarayevin nazir olduğu dövrdə rəhbərlik etdiyi nazirlikdə həyata keçirilib! Bu faktların nə vaxt baş verməsindən asılı olmayaraq araşdırma predmetinə çevrilməli, büdcə pullarını havaya sovuranlar cəzalandırılmalıdır ki, nə bu gün, nə də sabah kimlərsə eyni əməllərə qol qoymağa cürət etməsinlər.

Hər halda Səlim Müslümovun nazir vəzifəsini tərk etdikdən xeyli sonra hüquqi məsuliyyətə cəlb olunması onu göstərdi ki, rüşvət, korrupsiya kimi əməllərdə "oldu-bitdi" dövrü qapanıb. Dövlət vəsaitlərini talan edənlər kreslolarını itirsələr belə, ortada konkret dəlillər varkən istənilən vaxt qanunlar qarşısında cavab vermək məcburiyyətində qala bilərlər...

***Orxan Həsənli***

# İki gözünü itirən qazimiz: "Mənə kömək göstərilsin, ailəmin üzünə baxa bilim"

***Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə 3 minə yaxın hərbçimiz şəhidlik zirvəsinə yüksəlib, 1200-dən çox əsgər və zabitimiz isə qazi olub.***

Onlardan biri də Kamil Səfərlidir. Qazimiz 1999-cu ildə Tərtər rayonu Cəmilli kəndində anadan olub. 2018-ci ildə Naxçıvan Muxtar Respublikasında hərbi xidmətə başlayıb. Hərbi xidmətini başa vuran ərəfədə Vətən müharibəsi başlayıb və o, döyüşlərə qatılıb:

"27 sentyabrda xüsusi texnikalarla döyüşə başladıq. Oktyabrın 4-ü Talış kəndi uğrunda döyüşlər başladı. 2-3 gün müddətində Talış kəndini düşməndən azad etdik.

Döyüşdə dostlarım gözümün qarşısında şəhid oldu. Ən güclü döyüş isə Suqovuşan istiqamətində oldu. Hava yağıntılı olduğuna görə yer palçıq idi və hərəkətimiz çətinləşmişdi. Əsgər yoldaşım və mən silahlar götürmək üçün geri qayıdırdıq, hava çox qaranlıq idi, qəfildən yanımızda mina partladı, mən göz-



lərimi, dostum isə ayağını itirdi.

Partlayış zamanı diz üstə çökdüm üzüm sanki yanırdı, ayaqlarımı da hiss etmirdim, düşündüm ki, artıq ayaqlarımı itirdim. Yaralandıqdan sonra məni Naftalana gətirdilər, həkimlər hər şeyin yaxşı olacağını dedilər.

Oktyabrın 20-si mən artıq Bakıda xəstəxanada idim, danışa da bilmirdim. Ağzım bütöv yanmışdı, şlanklar vasitəsi ilə boğazıma su ötürürdülər, günlərlə yemək yeyə bilmədim.

Mənim hər iki gözüm görmür. Sol gözüm zil qaranlıqdır. Həkimlərin də dediyinə görə ümid yoxdur. Bunu özüm də bilirəm. Lakin sağ gözüm ilə günəş işığını, yanımda olan insanların kölgəsini duya bilirəm, havanı hiss edirəm. Qohumlarımın araşdırmasına əsasən öyrənmişik ki, mənim sağ gözümə "çip göz" taxılarsa, görmə şansım olacaq. "Çip göz" ABŞ-da, Yeni Zellandiyada və Almaniyada taxılır. İsrail həkimləri isə ümidin olmadığını bildirib. Mən yalnız öz dövlətimə inanıram və güvənirəm.

Azərbaycan həkimləri də ümidin olduğunu dedilər. Əgər həqiqətən sağ gözümün görməsinə ümid varsa, mənə kömək göstərilsin. Anamın göz yaşlarına dözə bilmirəm. Gözüm 10 faiz də olsa, görsün, ailəmin üzünə baxa bilim. Gözümə işıq verilsə, özümü dünyanın ən xoşbəxt insanı sanaram".

# Cahangir Əsgərovu gözləyən ağır günlər...

## AZAL-da korrupsiya araşdırmalarının aparılması qaçılmaz zərurətə çevrilib

***Nəhayət, gözlənilən baş verdi: ölkə rəhbərliyi Azərbaycanın borc bataqlığında çapalayan daha bir dövlət şirkətinin idarəçiliyində dəyişiklik etdi. Belə ki, yola salmaq üzrə olduğumuz həftə "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (AZAL) yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 16 aprel tarixli 2761 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə sərəncam imzalandı.***



Sərəncama əsasən AZAL-ın fəaliyyətinə ümumi nəzarəti və rəhbərliyi həyata keçirmək məqsədilə sədr də daxil olmaqla 7 (yeddi) üzvdən ibarət Müşahidə Şurası yaradıldı. Onu da yada salaq ki, Müşahidə Şurasına Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyev rəhbərlik edəcək.

Sadiq oxucularımız xatırlayacaqlar - "Unikal" qəzeti son zamanlar bir neçə dəfə adıçəkilən dövlət şirkətinin fəaliyyətindəki nöqsanlarla, çatışmazlıqlarla bağlı konkret faktlara söykənən məqalələr dərc edib; hətta bu məqalələrin sonuncusu "Cahangir Əsgərov AZAL-ı uçuruma sürükləyir" adlanırdı. Həmin yazıda açıq şəkildə qeyd etmişdik ki, AZAL doğru prinsiplərlə, standartlarla, normativlərlə idarə olunmur. Bu dövlət şirkətinin idarəçiliyində yeni nəfəsə, modern yanaşmaya ehtiyacı var. Belə bir ehtiyac çoxdan yaranıb və daha çox vaxt itirmək adıçəkilən QSC-nin zərərini, borc yükünü artırır. Əgər son vaxtlar adıçəkilən QSC-də hətta işçilərə maaş ödənilməsi də problemə çevrilməyə başlanıbsa, durumun getdikcə anormallaşdığını söyləməyə gərək yoxdur. Bir sözlə, Cahangir Əsgərovun şəxsi biznesi çiçəkləndiyi halda ziyanı, borcları yüksələn, əməkdaşları maaşsız qalan AZAL-ın problemi konkretdir. Birinci, qurumda qeyri-şəffaflıq hökm sürür, hesabatlılıq zəifdir, nəticədə gəlirlər nəinki xərcləri qarşılamır, üstəlik, borca meydan açır. İkinci, AZAL doğru idarə edilmir. Müasir idarəçilik prinsiplərindən uzaqdır. Yeni dövrün tələblərinə cavab vermir. Ona görə də qurumun fəaliyyətinə hökumətin müdaxiləsi qaçılmaza çevrilib.

Və budur, yola salmaqda olduğumuz həftə gözlənilən müdaxilə gəldi! "Azərbaycan Hava Yolları"nda Müşahidə Şurasının yaradılması ilə C.Əsgərovun uçuruma sürüklədiyi dövlət şirkətinin xilası üçün yeni imkanlar ortaya çıxır. Bundan sonra yəqin ki, sərəncama uyğun şəkildə adıçəkilən QSC-nin uzunmüddətli inkişaf strategiyası təsdiqlənəcək, onun xərclər və gəlirlər smetası təsdiqlənəcək, icrasına nəzarət isə güclü şəkildə həyata keçiriləcək. Bir sözlə, AZAL-ın illərdir çapaladığı bataqlıqdan qurtulması üçün fürsət yetişib. Həmin fürsətin necə dəyərləndiriləcəyini zaman göstərəcək.

Biz isə başqa bir önəmli məqama diqqət çəkmək istərdik. Qarşıdakı mərhələdə sözügedən sərəncamda qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi ilə yanaşı uzun müddətdir cəmiyyətin cavabını gözlədiyi suallara da aydınlıq gətirilməlidir. Məsələn, necə olub ki, AZAL-ın borcları 1 milyard manatı aşıb, hətta bəzi qaynaqlara görə, 1,5 milyard manata yaxınlaşıb? Bu qədər borcun necə yarandığı həqiqətən maraq doğurur: adın dünyanın ən bahalı aviaşirkətlərindən biri kimi hallansın, hər il dövlət büdcəsindən on milyonlarca dotasiya alasan, ölkənin hava nəqliyyatında inhisarçı mövqelərə malik olasan və... zərər edəsən?! Niyə, axı niyə?

Necə olur ki, AZAL ilbəil ziyan edir, işçiləri maaş almaqda belə çətinlik çəkir, lakin bunun əvəzində AZAL rəhbərinin ailəsi biznesini böyüdür, həm ölkə daxilində, həm də ölkə xaricində ciddi kapital tələb edən sərmayələr yönəlir? Bu ailə biznesinin qaynağı nədir, hansı kapital hesabına günbəgün çiçəklənir, genişlənir?

Hesab edirik ki, qarşıdakı mərhələdə yuxarıdakı suallara da aydınlıq gətirilməlidir. Həmin sualların cavabı eyni zamanda monopolist mövqelərə malik olduğu halda hər il daha çox ziyan edən və borclanan "Azərbaycan Hava Yolları"ndakı çox sayda qanunsuzluqların üstünü açacaq, adıçəkilən QSC-də korrupsiyanın miqyasını gözlər önünə sərəcək.

Elə ekspertlər də haqlı olaraq vurğulayırlar ki, AZAL-da korrupsiya araşdırmalarının aparılması qaçılmaz zərurətə çevrilib; bu cür yoxlamalar aparılmayacağı, neqativ hallar və onların səbəbkarları ortaya çıxarılmayacağı halda sözügedən dövlət şirkətinin düşdüyü acınacaqlı durumdan xilas ola biləcəyi ağlabatan görünmür.

Bir sözlə, problemlərin doğru təsbit olunması və ilkin qiymətləndirmənin aparılması, bu qiymətləndirmə nəticəsində "xəstə"ni sağaldacaq düzgün diaqnozun qoyulmasına ciddi ehtiyac var. Əlbəttə, belə bir yoxlama Cahangir müəllimin heç də ürəyindən olmayacaq, ancaq önəmli olan bir oliqarxın mənfəətləri yox, dövlətin maraqlarıdır!

***Toğrul Əliyev***

# Deputat Müşahidə Şurasının işindən danışdı

***"Bütövlükdə iri dövlət müəssisələrində müşahidə şuralarının yaradılması və Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilməsi müsbət məqamdır".***



Bunu Modern.az-a açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov bildirib.

V.Bayramov deyib ki, Müşahidə şuraları həmin dövlət şirkətlərində ümumi nəzarəti həyata keçirəcək:

"Həm də bu şirkətlərdə, o cümlədən, "Azərbaycan Hava Yolları"nda (AZAL) növbəti 6 ay ərzində praktik olaraq bütün istiqamətlər üzrə xarici şirkətlər cəlb edilməklə, diaqnostik qiymətləndirmələr və təhlillər aparılacaq. Eyni zamanda, növbəti iki ay ərzində yeni əsasnamə layihəsi hazırlanacaq. Bu isə ondan xəbər verir ki, AZAL da daxil olmaqla, Müşahidə şuraları yaradılmış səhmdar cəmiyyətlərdə yeni mərhələ başlayır. Bu mərhələ həmin şirkətlərin fəaliyyətlərindəki səmərəliliyi artırmaq, daha şəffaf, daha qənaətcil, fiskal idarəetmə siyasəti həyata keçirmək məqsədi daşıyır.

"Azərbaycan Hava Yolları"nın inkişafı turizmin inkişafı baxımından vacibdir. Uzun müddətdir müzakirə edilən məsələlərdən biri də Azərbaycanda təyyarə biletlərinin qiymətlərinin yüksək, o cümlədən, büdcə reyslərinin sayının az olmasıdır. Ən böyük gözləntilər də odur ki, Müşahidə şuraları yaradıldıqdan sonra, postpandemiya dövründə biz həm "Azərbaycan Hava Yolları"nın təklif etdiyi xidmətlərin, həm də biletlərin qiymətlərinin optimallaşdırılmasını görəcəyik. Bu, turizmin inkişafı baxımından da çox vacibdir".

Deputat qeyd edib ki, turizmin inkişafı keyfiyyətli və aşağı qiymətli uçuşların sayından da birbaşa asılıdır:

"Ölkəyə gələn turistlərin çoxu təyyarə biletləri xərclərini nəzərə almaqla öz səfərlərini planlaşdırırlar.

Bu baxımdan birmənalı şəkildə müşahidə şuralarının formalaşması, AZAL daxil olmaqla, dövlət şirkətlərinin, səhmdar cəmiyyətlərinin fəaliyyətinin səmərəliliyinin artırılmasına imkan verəcək. Ölkədə həyata keçirilən iqtisadi islahatların əsas elementlərindən biri də məhz iri dövlət şirkətlərinin idarəetməsinin yenilənməsi, korporativ idarəetmədən istifadə olunması, bütövlükdə idarəetmədə səmərəliliyin artırılmasıdır".



# Yolun düşsə, bu dünyaya bir də gəl

*Zaur Əhməd*

***Yaşasaydı, bu gün 62 yaşı olacaqdı... Yəqin ki, "yaşasaydı" sözünə görə məni bağışlayarsan. Axı, şəhidlər ölmürlər, sonsuzluğa qədər yaşayırlar. O zaman belə deyim, bizimlə bir yerdə olsaydı, 62 yaşın tamamlayacaqdın ATAM...***

...28 ildir ki, doğum günün sənsiz keçir. Bu 28 ildə saat 12.00 göstərəndə, tarix dəyişəndə, 1 aprel olanda təbrik etməyə, boynun qucaqlamağa, sığınmağa, sevinməyə ata tapmamışıq. Amma ATAmızın yoxluğu bizim üçün, şəxsən mənim üçün böyük bir VARLIQ olub.

Mən səni varlığında bu qədər sevmirdim heç...

Mən səni yoxluğunun böyüklüyü ilə daha çox sevdim BÖYÜK KİŞİ...

Ölüm acıdır, əzablıdır, amma şərəfli ölüm başqadır. Səni evimizdən itdirdik, amma ELimizdə, Vətənimizin baş köşəsində tapdıq. İndi sənin dayandığın o baş köşə hamı üçün əzizdir, hamınındır. Sən artıq tək bizim ATAmız deyilsən, hamının qəhrəmanısan, əzizisən, müqəddəsisən.

Kaş sözündən zəhləm gedir, amma kaş doğum gününün birini ikimiz baş-başa keçirə biləydik. Yəqin ki, sənin də tək, madar oğlunla baş-başa bir adgünü keçirmək arzun olub. Nə bilim, bəlkə daha böyük arzuların olub, qaldı ürəyində...

Bəlkə də indi daha xoşbəxtsən, nə bəlkə yüz faiz. O diyarda hər kəs xoşbəxtdir. Gör, kimlərlə qonşudur...

Xoş halına ATA, xoş halınıza şəhidlər.

Bu gün bu fani dünyaya gəldiyin gündən 62 il keçir. Amma sən hələ də 35 yaşındasan və bambaşqasan...

Ruhun şad olsun, ATA, Ruhun şad olsun BÖYÜK KİŞİ...

# İlham Əliyevin Zirvə görüşündəki çıxışı Türkiyə mediasında

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının martın 31-də keçirilmiş videokonfrans formatında qeyri-formal Zirvə görüşündəki çıxışı Türkiyənin aparıcı kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.***

"Unikal" xəbər verir ki, Anadolu agentliyi, "Haber Global" telekanalı, "Milliyyət", "Sabah" və digər nüfuzlu KİV-lər həm Zirvə görüşü, həm də Prezident İlham Əliyevin tədbirdəki çıxışına geniş yer ayırıblar.

Türk Şurasının perspektivli beynəlxalq təşkilata çevrildiyini diqqətə çatdıran KİV-lər Prezident İlham Əliyevin Zirvə görüşündəki çıxışının ayrı-ayrı hissələrini manşet material kimi təqdim ediblər. Türkiyə mediası, həmçinin tanınmış analitiklərin və publisistlərin mövzu ilə bağlı şərhlərini türkdilli ictimaiyyətə təqdim edib. Vurğulanıb ki, Azərbaycanın ötən il apardığı 44 günlük Vətən savaşı ilə regionda yeni münasibətlər mənzərəsi yaranıb.

Diqqətə çatdırılıb ki, tədbirdə çıxışı zamanı mövcud vəziyyəti dəyərləndirən Prezident İlham Əliyev deyib: "Yeni imkanlar yarandı. Onların arasında hesab edirəm ki, ən vacib imkan nəqliyyat imkanlarıdır. Bu gün biz artıq Zəngəzur dəhlizi üzərində çox fəal çalışırıq. Naxçıvanda keçirilmiş Zirvə görüşündə mən demişdim ki, vaxtilə Zəngəzuru Azərbaycandan alıb Ermənistana birləşdirmək türk dünyasının coğrafi parçalanması idi. Çünki əgər xəritəyə baxsaq görərik ki, sanki bizim bədənimizə xəncər saplanmışdır, türk dünyası parçalanmışdır. Qədim Azərbaycan torpağı olan Zəngəzur indi türk dünyasının birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək, eyni zamanda, digər ölkələr üçün əlavə imkanlar yaradacaq, o cümlədən Ermənistan üçün. Ermənistanın hazırda onun müttəfiqi olan Rusiya ilə dəmir yolu əlaqəsi yoxdur. Bu dəmir yolu əlaqəsi Azərbaycan ərazisindən yarana bilər. Ermənistanın onun qonşusu olan İranla dəmir yolu əlaqəsi yoxdur. Naxçıvan vasitəsilə bu dəmir yolu təmin edilə bilər. Azərbaycan Naxçıvan Muxtar Respublikası vasitəsilə Türkiyə ilə birləşir, Orta Asiya Avropa ilə birləşir. Yəni, yeni nəqliyyat dəhlizi yaranmaqdadır. Artıq Azərbaycan bu işlərə start vermişdir. Əminəm ki, tərəfdaş ölkələr də bu imkanlardan istifadə edəcəklər".

# Flora Kərimova Şuşaya gedəcək

***"Şuşa işğaldan azad olandan bəri mənim sevinc göz yaşlarım dayanmayıb. Mütləq gedəcəyəm, gözləyirəm..."***

Bu sözləri Yenisabah.az-a danışan Xalq artisti Flora Kərimova deyib. O, icazə verilən kimi Şuşaya ilk yollananlardan biri olacağını bildirib:

"Vətəndaşlara işğaldan azad olunan yerlərə getməyə icazə verilən kimi, görəcəksiniz ki, mənim səsim Şuşadan gəlir.Tək qarabağlıların yox, Azərbaycanın bütün bölgələrindən insanlar həmin vaxt orada çalıb-oxumağa başlayacaqlar".

80 yaşlı sənətçi illərin Şuşa həsrətinə son qoyduğu üçün ölkə başçısına təşəkkür edib:

"Bəzi məmurların Şuşa ilə bağlı fikirləri olduğu deyilir, mən qarışmaq istəmirəm, çünki ölkə başçısı bu barədə danışdı. Mənim bu barədə informasiyam ondan çox ola bilməz. Dövlət adamlarına "o" deyə müraciət etmək olmaz, mən möhtərəm bir şəxsə deyirəm, "O" hərfini hər zaman böyüklə vurğulayıram. Bir daha təkrar edirəm ki, ona vətənimlə borcluyam, o məni vətənimə qaytardı. Hər halda, məmurlar haqda onun informasiyaları millət səviyyəsində olan informasiyadır, mənim onun fikirlərinin qarşısında bir söz deməyə ixtiyarım yoxdur".

# Oliqarxlaşma erasının həzin sonu...

***Dövlət şirkətlərinə rəhbərlik edən iri məmurların büdcə pulları hesabına zənginləşməsi dövrü başa çatır(mı?)***



Məlum olduğu kimi, son vaxtlar ölkə başçısının imzaladığı sərəncamlarla bir neçə dövlət şirkəti yanında Müşahidə Şuraları yaradılıb. Müşahidə Şuralarına uzunmüddətli inkişaf strategiyasını təsdiq etmək, xərclər və gəlirlər smetasını təsdiq və onun icrasına nəzarəti həyata keçirmək kimi vacib səlahiyyətlər verilib.

Müşahidə Şuralarının yaradılma səbəbləri nədir? Ekspertlərin fikrincə, dövlət şirkətlərində idarəetmənin yaxşılaşdırılmasına hesablanmış addımların tərkib hissələri olan bu şuraların fəaliyyətə başlaması eyni zamanda Azərbaycanda oliqarxlaşma erasının sonu kimi qiymətləndirilə bilər.

"Təəssüf ki, dövlət şirkətlərinin əksəriyyətinin fəaliyyəti səmərəsizdir və ziyanla işləyir. Bu isə idarəetmənin təkmilləşdirilməsini zəruri edir. Onlar öhdəliklərinə düşən funksiyaları icra etməkdənsə, əlavə yükə çevriliblər. Daima dövlət zəmanəti ilə götürülən kreditlər, dotasiyalar dövlətin yükünü ağırlaşdırır. Halbuki, onların fəaliyyəti dövlət büdcəsini vəsaitlə təmin etməlidir. Bu həm də özəl sektordakı korporativ idarəetmə sisteminin dövlət sektoruna gətirilməsidir" deyən mütəxəssislərin fikrincə indiyə qədər bu şirkətlərin rəhbərlərinin əlində böyük səlahiyyətlər var idi və onlar nəzarətsiz formada fəaliyyət göstərirdilər.

"Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyevin fikrincə, bu, tarazlığın pozulması idi: "Kiminsə qarşısında hesabatlı olmadıqlarından rəhbərlik etdikləri sahələrdə istədikləri kimi sərəncam verirdilər. Əslində Müşahidə Şurasının yaradılması hesabatlılığı artıracaq, müəssisənin strateji vizyon məsələlərini həll edəcək. Daxil olan vəsaitlərin xərclənmə istiqamətləri, gəlirlərin artırılması üçün atılacaq addımlarla bağlı qərarlar Müşahidə Şurasında qəbul olunacaq. Müəssisə və yaxud şirkət rəhbərləri Müşahidə Şurasında ortaya qoyulan proqramlara və strategiyaya uyğun olaraq sərəncam vermək hüququna sahib olacaqlar. Yəni artıq istədiyi qədər, istədiyi kimi sərəncam vermək erası bitib. Düşünürəm ki, bu, səmərəliliyin artırılmasında diqqət çəkən amillərdən biridir".

Ekspert haqlı olaraq onu vurğulayıb ki, Müşahidə Şurasının tərkibində sadəcə dövlət qurumlarının nümayəndələri deyil, həmçinin vətəndaş cəmiyyətinin, media nümayəndələrinin təmsil olunması yaxşı olardı: "Bununla həmin qurumların inklüzivliyi, yəni əhatəliliyi təmin edilmiş olardı. Təsəvvür edin, müəssisədə Müşahidə Şurası var, ancaq orada əmək kollektivinin nümayəndəsi təmsil edilmir. Bu, şəffaflıq və hesabatlılıq məsələləri ilə birbaşa bağlıdır. Hesab edirəm ki, qeyd etdiyim məqamlar gələcək dövrlərdə nəzərə alınacaq. Təmsilçiliyin bu səviyyədə əhatəli olması Müşahidə Şurasının müstəqilliyinə təsir göstərir. O baxımdan, maraqlar toqquşması kimi amillərə diqqət yetirilməlidir. Müstəqil monitorinq qiymətləndirmə sisteminin yaradılması da mühüm məsələdir. Dövlət şirkətləri təkcə Müşahidə Şuraları qarşısında deyil, eyni zamanda, cəmiyyət üçün də hesabatlı olmalıdır. Ümid edirəm ki, Müşahidə Şurasının yaranması qurumlarda qeyd etdiyim ənənələrin formalaşmasını təmin edəcək".

Ekspertin fikirlərini bölüşməklə bərabər bir daha qeyd etmək lazımdır ki, ümumilikdə Müşahidə Şuraları dövlət şirkətlərinin vəsaitləri hesabına şəxsi (ailə) şirkətlərini yaradan, böyüdən iri məmurların hegemoniya dövrünün arxada qalması ilə nəticələnə bilər. Bu eyni zamanda Azərbaycanda oliqarxlaşma ənənəsinin də tarixin arxivinə göndərilməsinin başlanğıcı kimi qiymətləndirilməlidir. Ümid edək ki, gözləntilər özünü tamamilə doğruldacaq və kimlərinsə büdcə pulları sayəsində öz nəhəng biznes imperiyalarını yaratmaq, ailə üzvlərini-qohum-əqrəbalarını zənginləşdirmək praktikasına, nəhayət, biryolluq son qoyulacaq. Dövlət üzərində yükə çevrilən şirkətlər axır ki, rahat nəfəs alacaq, zərərlə, ziyanla işləməkdən qurtulacaq, ən əsası, onlara rəhbərlik edən oliqarxlaşmış məmurların cibini deyil, büdcəni doldurmağa başlayacaq.

Ümid edək və gözləyək...

***Orxan Həsənli***

# "Bəzən bir nəfər 4-5 dəfə zəng edir" - Təcili yardımla bağlı əhaliyə çağırış

***Təcili yardımdan narazı olanların əksəriyyəti yüngül problemlə müraciət edənlərdir. Təcili yardıma müraciətlər çeşidləmə əsasında qeydə alınır. İlk öncə təcili olanlar icra edilir.***



"Unikal" xəbər verir ki, bu sözləri Bakı Şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının əməliyyat işləri üzrə baş həkiminin müavini Nuridə Fərzəliyeva deyib. Onun sözlərinə görə, gündəlik icra edilən çağırışlar 2500 idisə, 103 xidmətinə zəng edənlərin sayı 10 mindən çoxdur.

"Bəzən bir nəfər 4-5 dəfə zəng edir ki, bu da xətlərin yüklənməsinə və nəticədə ağır xəstələrin kənarda qalmasına səbəb olur. Əhalidən xahiş edirik ki, təcili hallar üçün müraciət edilsin. Biz çağırış zamanı çeşidləmə apara bilək. İlk öncə təcili çağırışlar icra edilir, ağır xəstələrə yardım edilir, sonra təxirəsalınmaz çağırışları icra edirik. Əhalidən xahiş edirik ki, bunu anlayışla qarşılasınlar.

Məsələn, insanın qızdırması 37 dərəcə olur, deyir ki, gəlib müayinə götürülsün. Onları sahə həkimlərinə istiqamətləndirəndə aqresiv yanaşırlar. Hətta ağır xəstələrdən müayinə materialı götürəndə, bunun cavabını almaq üçün bizə müraciət edirlər. Təcili yardım ağır xəstələrdən müayinə götürüb, müvafiq laboratoriyalara göndərir. Analizin cavabı bizdə olmur".

# Cəmil Həsənlinin qızından detallı açıqlama: "400 manat verdi..."

***Cəmil Həsənlinin qızı Günel Həsənli intim videosunun yayılması barədə detallı açıqlama yayıb.***

Unikal.org xəbər verir ki, G.Həsənli təfərrüatı yaymaqla bərabər, həm də videodakı şəxsin - Mahirin fotolarını əlavə edib.

Açıqlamanı olduğu kimi təqdim edirik: "Mən, Həsənli Günel Cəmil qızı, sosial şəbəkələrdə şəxsi həyatıma qanunsuz müdaxilə ilə bağlı yayılan məlumatların, xüsusilə həmin məlumatların ailəmin və atam Cəmil Həsənlinin şəxsiyyətinə ağır zərbə olduğunun dərin məyusluğunu və məsuliyyətini yaşayıram. Heç şübhəsiz ki, öz məsuliyyətsizliyim səbəbindən də yaşadıqlarım və doğmalarıma yaşatdıqlarımı özümə bağışlamıram, çünki Cəmil Həsənlinin qızı olduğum üçün ustalıqla qurulmuş belə bir geniş əməliyyatın hədəfi olacağımı öncədən hesablamalı idim. Lakin nə qədər güclü stress və məyusluq yaşasam da barəmdə sosial şəbəkələrdə yayılan iyrənc iddialara və böhtanlara aydınlıq gətirmək məcburiyyətindəyəm.

38 yaşım var, 10 il öncə həyat yoldaşımdan ayrılmışam, yetkinlik yaşına çatmış iki övladım var. Hər bir qadın kimi mən də ailəmin, yuvamın olmasını arzulamışam və taleyə də bu üzdən düşmüşəm.

Özünü mənə iş adamı Mahir kimi təqdim edən 20.02.1980-ci il doğumlu şəxslə 2020-ci ilin dekabr ayında tanış olmuşam. Dekabr və yanvar aylarında yalnız sosial şəbəkələr üzərindən ünsiyyətimiz olub. Mahirlə ilk dəfə gerçək həyatda 5 fevral tarixində, "Günaydın" restoranında görüşüb birlikdə şam yeməyi yemişik. Mahir ilk ünsiyyətdən özü haqqında çox gözəl təəssürat yaratmağı bacardı və təəssüf ki, mən ona inandım.

Fevral ayının 14-ü yenə "Günaydın" restoranında Mahir mənə qızıl üzük bağışlayıb münasibətinin ciddi olduğunu və mənimlə ailə qurmaq istədiyini dedi. Bir-birimizi yaxından tanımaq üçün zamana ehtiyacımız olduğunu bildirdim və ünsiyyətimiz dərinləşdi.

Mahir növbəti dəfə mənə evlənmək təklif edəndə böyük övladlarım olduğunu və onların razılığı olmadan bu evliliyin mümkün olmadığını bildirdim. 18 mart tarixində Mahir məni və övladlarımı öz avtomobili ilə evimizin qarajından alıb İçəri şəhərdə yerləşən "Qaynana" restoranına apardı və orada oğluma və qızıma mənimlə ailə qurmaq istədiyini, məni xoşbəxt edəcəyini, lakin bu evliliyin yalnız onların razılığı ilə baş tuta biləcəyini bildirdi. Övladlarım mənim xoşbəxt olacağım halda bu izdivaca etiraz etmədiklərini dedilər.

Səhərisi gün, 19 mart tarixində Mahir WhatsApp üzərindən məni dayısı ilə tanış edəcəyini yazdı. Atasının xasiyyətinin ağır olduğunu, ona görə atası ilə pərdəli davrandığını mənə dəfələrlə demişdi. Öz bildirdiyinə görə məqsədi öncə məni dayısı ilə tanış edib sonra onunla birlikdə atasının xeyir-duasını almaq idi.22 mart 2021-ci il tarixdə Mahirlə son bir neçə həftə ərzində görüşdüyümüz mənzilə getdim. Mənzilə daxil olanda orada tanımadığım bir qadını gördüm və çox pərt oldum. Mahir həmin qadınla kiçik bir işi olduğunu və qadının az sonra gedəcəyini dedi. Mən dərhal mənzili tərk etmək istədim, lakin Mahir məni "sən çox əsəbisən, bu halda maşın sürə bilməzsən, qəza törədərsən, əyləş, su iç, özünə gəl, mən özüm səni aparıb evinizə buraxacağam" deyib saxladı. Məni əyləşdirəndən sonra Mahir mətbəxə keçdi və dərhal oradan bir şüşə sarı rəngli, portağal və limon qarışımını xatırladan meyvə şirəsilə qayıtdı və mənə təqdim etdi. Mən həmin şirəni içdim, dərhal başım fırlandı və sonra nə baş verdiyini, ümumiyyətlə, xatırlamıram.

Həmin gün daha sonra ilk xatırladığım dəhşətli baş və qarın ağrılarım, ürəkbulanmam, başgicəlməm olub. Gözümü açanda mənzildə Mahirdən başqa heç kim yox idi. Çətinliklə maşınımı idarə edib evə çatdım. Mən evə çatanda bütün bədənim, gözlərimin ətrafına, saçımın dibinədək qızarmış və səpmişdi. Dərmanlara qarşı allergiyamın olması vəziyyətimi xüsusilə ağırlaşdırmışdı. Evə qayıdandan az sonra sarı rəngli maddə qusdum. Anam, iki övladım, eləcə də mənə sistem köçürmək üçün dəvət etdiyimiz tibb bacısı nə dərəcədə ağır durumda olduğumu görüb təşviş keçirdilər. 23 mart tarixində evdə və 27 martda isə maşınımda iki dəfə eyni sarı rəngli maddəni qusmuşam.



Kəskin baş ağrılarımın davam etməsinə baxmayaraq, səhərisi özümdə güc tapıb Mahirlə "Jasmin" restoranında görüşdüm və dünən niyə bu vəziyyətə düşdüyümün səbəbini soruşdum, amma dolğun cavab ala bilmədim. Əvəzində hiylə ilə telefonumu əlimdən aldı və Gallery-yə daxil oldu. Mən o zaman telefonumdakı şəkillərə baxdığını düşünmüşdüm, lakin evə qayıdandan sonra Mahirin telefonumda onunla olan bütün şəkil, video, hətta WhatsApp yazışmalarını sildiyini gördüm.

23-27 mart tarixlərində səhhətim çox pis olduğu, başımda və qarnımda kəskin ağrılar səngimədiyi üçün mənə ümumilikdə beş sistem köçürülüb. Qəfil allergiya nəticəsində bədənimdə yaranmış səpişiklər hələ də qalmaqdadır. Yalnız 28 mart tarixindən özümü nisbətən yaxşı hiss etməyə başlamışdım.

Pul məsələsinə gəlincə, Mahir mənə yalnız bir dəfə 400 manat pul verib. 8 mart hədiyyəsi ala bilmədiyi üçün üzrxahlıq etdi, təkidlə bu pulu mənə verdi və "özün nə istəyirsən, al" dedi. Tanış olduğumuz dörd ay ərzində bundan başqa ondan heç vaxt pul almamışam.

Mənim təmiz niyyətlə ailə qurmaq, yuva sahibi olmaq istəyimdən belə çirkli və iyrənc üsullarla sui-istifadə etməyin yeganə məqsədi atam Cəmil Həsənlini nüfuzdan salmaq, onun siyasi fəaliyyətinə gölgə düşürməkdir və mənə ən çox əzab verən də budur. Bildirirəm ki, atam iki ilə yaxındır ABŞ və Böyük Britaniyada elmi ezamiyyətdədir və onun mənim şəxsi həyatımda bu yaşadıqlarımla bağlı heç bir bilgisi olmayıb".



# Tarix yazan Vətən sevdalısı Mirzə Axundov

***Mirzə Musa oğlu Axundovun adı İkinci Qarabağ müharibəsində öz qanı ilə tarix yazan Azərbaycanın igid oğulları sırasında iftixarla çəkilir. Ömrünün 36-cı ilində halal torpağı uğrunda şəhidlik zirvəsinə ucalan, böyük bir xalqın qürur yerinə çevirən qəhrəman Mirzə Lənkəran rayonunun Gəgiran kəndində anadan olmuşdur. O, halallıqla gün-güzəran keçirən, doğma yurduna bağlı nəcib, xeyirxah insanlardan görüb götürməklə yetkinlik yaşına çatır. Orta məktəbi bitirəndə el-obada hamı onun vətənpərvərliyinə, iç dünyasından gələn milli ləyaqət hissinə heyran kəsilir. Vətənini özünə şöhrət tacı bilən Mirzə təmiz, ləkəsiz yaşamaq naminə bütün istəyini xalqla bağlayır.***

1991-ci ildə el-oba yığışıb Mirzəni ordu sıralarına yola salırlar. Olduğu hərbi hissədə haqqa, ədalətə tapınmaqla Vətəninə ləyaqətli xidmət edir. Mərdlik, qəhrəmanlıq göstərərək dəfələrlə erməni dığaların Qarabağ torpaqlarının ələ keçirmək iştahasını ürəklərində qoyur. Yurdsevərliyi, Vətən torpağına əsl oğul məhəbbəti, dosta sədaqəti, yaşatmaq eşqi Mirzənin xətrini komandirlərin, əsgərlərin yanında həmişə əziz edir. Beləcə xidmətini nöqsansız, alnıaçıq başa vurur.

Köksündə doğma Vətəninə, xalqına məhəbbət dolu bir ürək çırpınan Mirzə əsgərlikdən sonra halal zəhmətdən yapışır. Özünə yaxşı həyat qurmaqla bərabər, cəmiyyətə layiqli vətəndaş olmağa, insanların işinə yaramağa səy göstərir. Və qoyduğu yaxşı əməllər onu gözlərdə işığa, sevincə döndərir. Bütün bunlar olduğu halda ürəyində təcavüzkar erməni dığalarına nifrəti Mirzəni yenidən hərbiyə çəkir. 2004-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin Zığ qəsəbəsində yerləşən "N" saylı hərbi hissəsində müddətdən artıq xidmətə başlayır. Əsas amalı da Vətəninin şərəfini uca tutmaq, mübarizliklə dığalara qalib gəlib düşmənə əsir düşən Azərbaycanın əzəli torpaqlarını azad etmək olur. Ağdamda, Tərtərdə xidməti zamanı erməni vandalların törətmək istədiyi faciələrinin qarşısını alır. 2016-cı ilin Aprel döyüşlərində isə göstərdiyi hünər, düşmənə vurduğu zərbələr bir daha Mirzənin necə yurdsevər , torpağa bağlı, vətənpərvər olduğunu bildirir. Necə deyərlər, igid əsgər Vətənini sevməklə yanaşı, ölüm-dirim anlarında onu qorumağı da bacarır. Həmişə də halal torpaq naminə son döyüşə atılmaq üçün məqam gözləyir. Komandirləri də onun adını daim ucalıqda saxlayır, nümunəvi xidmətinə, döyüş igidliyinə görə müxtəlif medallara layiq görülür.

Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin miçmanı Mirzə Axundov 44 gün davam edən, şanlı zəfərimizlə başa çatan Vətən müharibəsində ürəyindən keçən qisasını erməni cəlladlardan ala bilir. Müharibə başlayan andan kamil bir hərbiçi kimi döyüşə atılır. Mirzə 30 ilə yaxın düşmən tapdağına dönən ulu yurd yerimiz Qarabağın bir çox yüksəklikləri və yaşayış məntəqələrin alınmasında düşmənin texnikasını, canlı qüvvəsinə məhv etməklə onun axırına çıxır. Oktyabr ayının 2-də Talış istiqamətində gedən ağır döyüşlərdə Vətən, torpaq uğrunda qəhrəmancasına şəhid olur. Şərəfli ölüm Vətənin qalib şəhidinə milyonların ürəyində əzəmətli abidə ucaldır.

Bəli, Vətən onun yolunda şəhid olmağı bacaran oğulların çiynində vətən olur. Bu müqəddəs amalla vətənləşən Mirzə Musa oğlu Axundov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" və "Vətən uğrunda" medallarına layiq görülür.

*Zəfər ORUCOĞLU,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# Şəhid polkovnik - Milli Qəhrəman Şükür Həmidovun doğum günüdür



***Bu gün 44 günlük Vətən müharibəsinin şəhidlərindən biri - Milli Qəhrəman Şükür Həmidovun doğum tarixidir.***

Həmidov Şükür Nəriman oğlu 1975-ci il aprelin 1-də Qubadlının Armudluq kəndində anadan olub. O, ailədə 10 uşaqdan biri olub.

Ş.Həmidov 1990-1993-cü illərdə C.Naxçıvanski adına Hərbi liseydə təhsil alıb.

1993-cü Bakı Ali Hərbi Məktəbinə daxil olub. 1995-ci ildə motoatıcı ixtisasına yiyələnərək, leytenant rütbəsində Naxçıvanda hərbi hissələrin birində tağım komandiri kimi fəaliyyətə başlayıb. Orada mayor hərbi rütbəsinə qədər yüksəlib. Daha sonra bölük komandiri, tabor komandirinin maddi-texniki təminat üzrə müavini vəzifəsində xidmət edib.

O, 2008-ci ildə Hərbi Akademiyanın müdavimi olduqdan sonra müxtəlif hərbi hissələrdə tabor komandiri, qərargah rəisi, hərbi hissə komandiri kimi vəzifələrdə çalışıb.

Şükür Həmidov 2016-cı il Aprel döyüşlərində Lələtəpə yüksəkliyinin azad edilməsi uğrunda döyüşlərdə böyük şücaət göstərib. Azərbaycan Prezidentinin 22 aprel 2016-cı il tarixli sərəncamı ilə Şükür Nəriman oğlu Həmidov "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Bundan əlavə, Lələtəpə yüksəkliyinin azad edilməsi əməliyyatı zamanı göstərdiyi şücaətə görə Şükür Həmidova vaxtından əvvəl polkovnik hərbi rütbəsi verilib.

Silahdaşları bildirirlər ki, Şükür Həmidovun ən böyük arzusu işğal altındakı torpaqlarımızı, eləcə də doğma Qubadlı rayonunu işğaldan azad etmək olub.

Vətən müharibəsində Ş.Həmidov dogma Qubadlının bəzi kəndlərinin azad edilməsi əməliyyatlarında iştirak edib.

Milli Qəhrəman Şükür Həmidov 22 oktyabr 2020-ci il tarixində Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub.

Prezident İlham Əliyev onun adının doğulduğu və azadlığı uğrunda şəhid olduğu Qubadlı rayonunda əbədiləşdiriləcəyini bildirib.

Azərbaycan Prezidenti İlham Əliyev Şükür Həmidovun atası Nəriman Həmidovla telefonla danışarkən deyib ki, Milli Qəhrəmanın adı doğulduğu və azadlığı uğrunda həlak olduğu Qubadlı rayonunda əbədiləşdiriləcək.

Prezident İlham Əliyevin sərəncamı ilə Şükür Həmidov Vətən müharibəsindəki iştirakına görə "Vətən uğrunda" medalı ilə təltif edilib.

Ona ölkə başçısının sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları da verilib.

Şəhid polkovnik Şükür Həmidov Prezidentin 9 dekabr 2020-ci il tarixli sərəncamı ilə "Zəfər" ordeni ilə təltif olunub.

Milli Qəhrəmanın 1 oğlu və 1 qızı yadigar qalıb.

Allah rəhmət eləsin...

# Azərbaycanlı avtoritetlər arasında atışma, ölən var

***Dünən Türkiyədə azərbaycanlı kriminal aləm üzvləri arasında atışma olub.***

Atışma anı binalardan birindən həvəskar kamera ilə qeydə alınıb. Atışma bir müddət öncə güllələnərək öldürülən Lotu Qulinin yaxın adamları ilə mərhum Rövşən Lənkəranskinin yaxınları kimi tanınan Naxçıvanlı Baba, Xarkov Fuad ləqəbli Fuad Hacızadə və digər bir kriminal aləm üzvü arasında gedib.

Nəticədə Naxçıvanlı Baba hadisə yerində ölüb, Xarkov Fuad isə yaralanıb.

Kriminal aləmdə yayılan söhbətlərə görə, bu hücum mərhum Lotu Qulinin qohumu Maqa Rustavskinin bıçaqlanmasının qisası kimi edilib. Məlumata görə, bir müddət öncə Lənkəranskinin yaxınları Maqanı qarnından bıçaqlayaraq ağır xəsarət yetirmişdilər.

Qeyd edək ki, Naxçıvanlı Baba peşəkar cüdoçu olub və müxtəlif turnirlərdə yer tutub. Daha sonra isə kriminal aləmə qoşulub.

# Şuşaya atılan "İskəndər"dən Ermənistanda yoxdur - Bəs kim edib?

***Bir müddət əvvəl Ermənistanın Baş naziri Nikol Paşinyanın 44 günlük Vətən müharibəsində Azərbaycana "İskəndər" raketinin atılmasıyla bağlı etirafı ciddi rezonans yaratmışdı. Belə ki, Paşinyan Ermənistanın keçmiş prezidenti Serj Sarkisyanın "İskəndər" raketindən 44 günlük döyüşlərin 3-4-cü günündə istifadə edilmədiyinə təəccüblənməsinə cavab olaraq bu faktı etiraf etmişdi. Hətta məsələni daha da qabardaraq reaketlərin niyə partlamadığını sabiq prezidentdən soruşmuşdu.***

Bundan əlavə, separatçıların "baş qərargahının keçmiş rəisi" Movses Akopyan noyabrın ortalarında istefa verəndən sonra mətbuat konfransında Qarabağda "İskəndər"dən istifadə edildiyini, ancaq onun hara atıldığını deyə bilməyəcəyini bəyan etmişdi.

Paşinyanın etirafından 1 gün sonra cari ilin fevralın 25-də Rusiyanın Müdafiə Nazirliyi məsələyə dərhal reaksiya verdi. Açıqlamada qeyd edilirdi ki, Dağlıq Qarabağdakı münaqişə zamanı "İskəndər" raket sistemlərindən heç biri istifadə edilməyib.

Məlumatda o da bildirilirdi ki, raketlərin bütün sursat ehtiyatları Ermənistan Silahlı Qüvvələrinin anbarlarındadır.

Məsələyə Ermənistan Müdafiə Nazirliyindən reaksiya verilməsə də, Silahlı Qüvvələri Baş Qərargah rəisinin birinci müavini general-leytenant Tiran Xaçatryan Paşinyanın açıqlamasını ələ salaraq gülmüşdü və Baş Nazirin mövqeyini qeyri-ciddi adlandırmışdı.

Bundan sonra Paşinyanın tələbi əsasında Ermənistan prezidenti Armen Sarkisyan T. Xaçatryanı istefaya göndərmişdi.

Paşinyan isə Rusiya tərəfinin məsələyə reaksiyasından sonra ona səhv məlumat verildiyini, müharibə zamanı raketlərdən istifadə edilmədiyini mətbuat katibi Mane Gevorqyan vasitəsilə xalqa bəyan etmişdi. Rusiya Prezidenti Vladimir Putinlə Paşinyanın telefon danışığından sonra mövcud faktlar və məlumatların müqayisəsi nəticəsində Ermənistan Baş naziri bu qənaətə gəlib ki, "İskəndər" cari duruma dair ona yanlış məlumat verilib.

Ancaq vurğulamalıyıq ki, müharibə dövründə Azərbaycan ictimaiyyətində və etibarlı məlumatları olan bəzi hərbi ekspertlər tərəfindən belə bir fikir hakim idi ki, bir neçə dəfə Azərbaycan ərazisinə "İskəndər" raketi atılıb.

Bu məqamda ötən gün ANAMA əməkdaşı mətbuata çox ciddi reaksiya doğuran açıqlamayla çıxış edərək zamanla səslləndirilən bu fikirlərin doğru olduğunu təsdiqləyib.

Agentliyin nümayəndəsinin sözlərinə görə, 15 mart 2021-ci il tarixdə qurumun əməkdaşları tərəfindən aparılan təmizləmə əməliyyatı zamanı şəhərdə iki partlamış raket qəlpələri aşkarlanıb. Agentliyin mütəxəssisləri tərəfindən raketin identifikasiya nömrəsinin (9M723) yoxlanılması zamanı qalıqların "İskəndər" raket sisteminə aid olduğu müəyyən edilib. Açıq internet mənbələrində axtarış apararkən belə 9M723 eyniləşdirmə nömrəsinin "İskəndər" raketinə aid olduğunu müəyyən etmək olar.

Bütün bunlar Vətən müharibəsi dövründə, xüsusən Şuşa şəhərini dağıtmaq üçün Azərbaycana qarşı "İskəndər" raketlərindən istifadə edildiyini təsdiqləyir.

Bildirək ki, Rusiya tərəfi vaxtilə açıqlamalarında Ermənistana "İskəndər E" raketini satdığını bildirmişdi. Şuşa ərazisində tapılan raketin qalıqlarında isə raketin "M" versiyasının olduğu açıq-aydın göstərilir.

Bu məqamda sabiq MTN zabiti, politoloq Ərəstun Oruclu da məsələyə reaksiya verib. O qeyd edib ki, ANAMA nümayəndəsinin açıqlaması Azərbaycan ərazisinə "İskander" raketləri atılıbmı sualına aydınlıq gətirməklə yanaşı, həm də xeyli yeni suallar doğurur: "Belə ki, həmin identifikasiya kodu Şuşaya atılmış "İskəndər E" deyil, "M" tipli raketə aid olmasını göstərir. Belə raket isə Ermənistanda yoxdur və olmayıb.



Rusiya istehsalı olan "İskəndər"in Ermənistana satılmış versiyası E olub, M tipli "İskəndər"lər isə yalnız Rusiyanın arsenalındadır. Belə olduğu halda Şuşaya raketi kimin atması sualının cavabı da öz-özünə tapılmış olur. Amma bunun ardınca Bakı üzərində vurulmuş "İskəndər"in haradan atılması sualı da üzə çıxır.

Bunun da cavabı prinsipcə bəllidir, çünki "İskəndər E" raketinin maksimum uçuş məsafəsinin 250-280 km arası olması onun hətta Qarabağdan atılmasını istisna edir. Unutmayaq ki, noyabrın 10-da Azərbaycan Ordusu artıq Qarabağın xeyli hissəsinə nəzarət edirdi ki, bu da Bakıdan ən azı 300-330 km-lik məsafə demək idi.

Məlumatlı mənbələr İkinci Qarabağ Savaşı dövründə Azərbaycan ərazisinə bir neçə "İskəndər" atıldığını və onlardan 5-6 ədədinin havada zərərsizləşdirildiyini bildirsələr də, hələlik bu haqda rəsmi məlumat yoxdur.

Amma baxır nəyi rəsmi məlumat saymaq olar. Məsələn, Paşinyanın bu raketlərlə bağlı ilk bəyanatı həmin məlumatla təxminən üst-üstə düşür. Demək, düşmən ölkənin Baş naziri bir o qədər də yalan danışmamışdı. Onun bəyanatına Rusiyanın isterik reaksiyası da Paşinyanın haqlı olmasına işarə kimi qəbul edilə bilər.

Qalır məsələni dərindən araşdırmaq və bunun üçün də ANAMA-nın ortaya qoyduğu və müvafiq foto ilə təsdiqlənən fakta Moskvanın reaksiyası son dərəcə önəmlidir. Moskva isə hələlik susur".

Qeyd edək ki, Şuşa ərazisində tapılan "İskəndər M" raketinin qalıqları ilə bağlı məsələyə Azərbaycan tərəfindən də rəsmi reaksiya verilməyib. Həmçinin rəsmi Kreml də ekspertin vurğuladığı kimi bu fakta hələ ki, münasibət bildirməyib.

***Günel Türksoy***

# Bu gündən Bakıda yaşayanlar üçün bir sıra xidmətlər pulsuz olacaq

***Bu gündən etibarən Azərbaycanda icbari tibbi sığortanın üçüncü-sonuncu mərhələsinin tətbiqinə başlanılır. Bundan sonra Bakı, Sumqayıt, Abşeron, Xankəndi, Qubadlı, Zəngilan və Şuşa da daxil olmaqla, bütövlükdə ölkə ərazisi tibbi sığorta ilə əhatə olunacaq.***

İcbari tibbi sığorta 2020-ci il 1 yanvar tarixindən ölkə ərazisində ilkin mərhələdə tətbiq olunsa da, hələ də bu sığorta növü ilə bağlı əhali üçün qaranlıq məqamlar var. Tibbi sığorta nədir? Hansı xidmətləri əhatə edəcək? Sığortalı vətəndaşlar dövlət tibb müəssisələri ilə yanaşı, özəl müəssisələrin xidmətlərindən də istifadə edə biləcəklərmi?

"Qafqazinfo" mövzunun aktuallığını nəzərə alaraq hələ yanvarda bu məsələyə aydınlıq gətirmək məqsədilə hazırladığı metarialı bir daha təqdim edir:

İcbari tibbi sığorta tibbi xidmətlərin vətəndaş tərəfindən tam ödənişsiz əldə olunması üçün tətbiq olunan sistemdir. Bu, tibb sektorunun yeni maliyyələşmə metodudur. Əvvəllər Azərbaycanda səhiyyə sistemi dövlət büdcəsindən maliyyələşirdi. İcbari tibbi sığorta sisteminin formalaşmasından sonra tibb müəssisələri ödənişləri İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən (İTSDA) və digər mənbələrdən əldə edəcək. Bu sistemin tətbiqi həm də maliyyə məhdudiyyətinin qarşısının alınması və tibb sektorunu daha yaxşı inkişafa motivasiya etmək üçün hesablanıb. Məqsəd tibbi xidmətləri vətəndaşlar üçün əlçatan etməkdir.

### Xidmətlər zərfinə nə daxildir?

Agentliyin Tibbi iddialar departamentinin rəhbəri Vüqar Qurbanovun sözlərinə görə, artıq tibbi sığorta ölkənin böyük hissəsini əhatə edir və vətəndaşlar əlçatan şəkildə tibb müəssisələrinə müraciət etməklə, ödəniş etmədən bu xidmətlərdən istifadə edə bilirlər: "İcbari tibbi sığortanın tətbiq olunduğu keçən il ərzində xidmətlər zərfinə 2550-yə yaxın tibbi xidmət daxil idi. Bura stasionar şəraitdə aparılan bütün tibbi xidmətlər, terapevtik müalicələr, cərrahi əməliyyatlar, stasionar şəraitdə dərman təminatı, təcili tibbi yardım xidməti, ilkin səhiyyə xidməti və bundan başqa, açıq və qapalı ürək əməliyyatları, kardioinvaziv müdaxilələr və sair kimi bahalı və qiyməti yüksək olan əməliyyatlar daxil idi. Bu ildən isə Agentliyin hədəfi odur ki, bu tibbi xidmətlərin sayını və çeşidini artırsın. Bununla bağlı Nazirlər Kabinetinə öz təkliflərimizi təqdim etmişik. İcbari tibbi sığorta ölkə üzrə tam əhatə olunanda 3550-dən çox xidməti əhatə edəcək. Bu xidmətlər də dəyərindən asılı olmayaraq həyat üçün vacib olan, sağlam həyat sürmək üçün lazım olan tibbi xidmətlərdir".

İTSDA-nın məlumatına görə, ölkədə geniş yayılmış, əlillik və ölüm riski olan xəstəliklərin stasionar şəraitdə müalicəsi icbari tibbi sığorta təminatı hesabına həyata keçiriləcək. Miokard infarktı, beyin insultu, ürəyin işemik xəstəliyi, ürək çatışmazlığı və digər ürək-damar xəstəliklərinin, serebrovaskulyar xəstəliklərin, mədə-bağırsaq xəstəliklərinin, uroloji xəstəliklərin, infeksion və parazitar xəstəliklərin müalicəsi, travmalar, yanıqlar, zəhərlənmələr zamanı sığortaolunanların müalicəsi icbari tibbi sığorta təminatı hesabına həyata keçiriləcək. Əlavə olaraq, hamiləlik, doğuş və zahılıq dövründə müayinə və müalicə icbari tibbi sığorta təminatına daxildir.

Həmçinin xidmətlər zərfinə 1100-dən çox cərrahi əməliyyat salınıb. Həmin əməliyyatlar sırasına koxlear implantasiya əməliyyatı, oynaq endoprotezlərin yerləşdirilməsi, aorto-koronar şuntlama əməliyyatı, ürək qapaqlarının dəyişdirilməsi və temiri, anevrizma əməliyyatları, anadangəlmə ürək qüsurlarının cərrahi müalicəsi, eləcə də minimal invaziv üsulla həyata keçirilən kardiocərrahiyyə əməliyyatları (koronar stentlərin taxılması) daxildir. Bahalı əməliyyatlar sırasında həmçinin kifayət qədər geniş sayda oftalmoloji, travmatoloji, uroloji və neyrocərrahiyə əməliyyatları var.



Bir sıra xidmətlər var ki, bunlar İTSDA tərəfindən təminata alınmır. Bura polinklinik şəkildə dərman təminatı, stomatoloji xidmətlər, estetik-kosmetik əməliyyatlar daxildir.

Vüqar Qurbanov deyib ki, Kompüter Tomoqrafiyası xidmətləri də sığortaya daxildir: "Bilirsiniz ki, KT insan sağlamlığı üçün zərərlidir. Bu, ancaq həkim təyinatı əsasında həyata keçirilməlidir".

### Rayonda yaşayıb Bakıda müayinə olunmaq istəyiriksə...

İTSDA-nın rəsmisi Vüqar Qurbanov bildirib ki, sığortalı vətəndaş əvvəlcə yaşadığı ərazidəki tibb müəssisəsinə müraciət etməlidir. Əgər müayinə və müalicəsi orada mümkün deyilsə, Agentliklə müqaviləsi olan bütün tibb müəssisələri - həm dövlət, həm də özəl tibb müəssisəsinə yönləndirilir və tam şəkildə ödənişsiz müalicə və ya əməliyyat edilir. Vətəndaşın şikayəti, onun göndəriləcəyi müayinələr proqram vasitəsilə tibb müəssisəsinə göndərilir. Buradakı həkimlər rəy verir ki, əgər onu Bakıda əməliyyat edə biliriksə, Bakıda dövlət və ya özəl xəstəxanada əməliyyat olunur.

Bəzi hallarda isə regionda yaşayan vətəndaş paytaxtda olarkən təcili şəkildə tibb müəssisəsinə müraciət etməli olur. Bu halda ona hazırda olduğu ərazidə ilkin tibbi yardım göstərilir: "Əgər şəxs sığortalıdırsa, onun hansı regionda olmasından asılı olmayaraq dövlət və ya özəl tibb müəssisəsində Agentliyin ödənişi hesabına tibbi xidməti tam şəkildə ala bilər. Təcili və təxirəsalınmaz hallarla bağlı da xidmət tam şəkildə əhatə olunur və buna görə heç bir ödəniş tələb olunmur. Məsələn, miokard infarktı özü də təcili təxirəsalınmaz tibbi yardım hesab olunur. Bu zaman xəstəyə ilkin tibbi yardım göstərilir. Sonra əməliyyat üçün ixtisaslı tibbi yardımla bağlı müqaviləmiz olan tibb müəssisələrinə və ya TƏBİB-in tabeliyində olan tibb müəssisələrinə müraciət edərək ödənişsiz şəkildə tibbi xidməti əldə edəcək. Təcili hallar üçün heç bir məhdudiyyət yoxdur. Planlı hallar üçün bütün dünyada olduğu kimi növbəlilik halları var. Ola bilər ki, bəzi vətəndaşların yaşadığı yerdə hansısa xidmətə müraciət çoxdur və orada növbə gözləməyə ehtiyac var. Biz çalışırıq ki, bu hallar olmasın".

### İcbari tibbi sığortanın tətbiqindən tibb işçiləri nə qazanacaq?

İTSDA dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrini öz tabeliyinə alıb və həm tibbi xidmətin təşkili, həm də ödənişlərini həyata keçirən qurumdur. Agentlik rəsmisinin sözlərinə görə, hər tibbi xidmətə görə həkimlər həm əmək haqqı, həm də bonuslar alırlar. Orta və kiçik tibb işçiləri göstərilən tibbi xidmətin qarşılığında yalnız əmək haqqı alacaqlar. Lakin bu əmək haqqı əvvəlki kimi deyil, bura həm də həvəsləndirici ödənişlər daxildir:

"Bu qaydalar artıq tənzimlənib. Ölkənin 23 bölgəsində həkimlərə tibbi xidmətə görə bonuslar verilir. Ötən il 9 ixtisas növü üzrə həvəsləndirici nəzərdə tutulurdusa, bu il bu ixtisasların sayı 16-ya çatdırılıb. Məsələn, hemodializ şöbəsində işləyən həkimlərin əmək haqqına 360 manat həvəsləndirici əlavə olunacaq və bu proses daim yenilənəcək. Tibb müəssisələri nə qədər çox və keyfiyyətli xidmət göstərəcəksə, aldıqları vəsait də çox olacaq. Artıq Azərbaycanda yeni maliyyələşmə metodu ortaya çıxır. Xəstəxanalar onlara ayrılan vəsaiti xərclədikdən sonra yerdə qalan məbləği tibb işçilərinin dəyərləndirilməsi üçün də istifadə edə bilərlər".

### Nə qədər tibbi sığorta haqqı ödənilməlidir? Kimlərin sığorta ödənişlərini dövlət qarşılayır?

İcbari tibbi sığorta layihəsi dövlət tərəfindən həyata keçirilən layihədir. Biznes layihəsi olmadığına görə, onun həyata keçirilməsində gəlir əldə etmək məqsədi güdülmür. Burada həm də vətəndaşın ala biləcəyi xidmətlər zərfi var. Vətəndaşlara ayrı-seçkilik qoyulmur. Onun hansı işdə işləməyindən, hansı miqdarda sığorta haqqı ödəməsindən asılı olmayaraq xidmətlər zərfindən eyni qaydada istifadə edə bilər.

Dövlət sığorta haqqı məsələsində daha rahat təkliflə çıxış edib. Belə ki, hamilə qadınlar, uşaqlar, işləməyən pensiyaçılar, ali təhsil alan tələbələrin sığorta haqqı dövlət tərəfindən ödəniləcək.

Beləliklə, dövlət və neft sektorunda çalışan işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manata qədər olan hissəsindən 2%, 8000 manatdan yuxarı olan hissəsindən 0.5% miqdarında icbari tibbi sığorta haqqı tutulması nəzərdə tutulur.

Qeyri-dövlət və qeyri-neft sektorunda çalışan işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manata qədər olan hissəsindən ödənilən sığorta haqqının məbləğinə 2022-ci il yanvarın 1-dək 50 faiz güzəşt tətbiq edilib. Belə ki, 2022-ci il yanvarın 1-dək əmək haqqının 8000 manata qədər olan hissəsindən 1%, 8000 manatdan yuxarı olan hissəsindən 0.5% miqdarında icbari tibbi sığorta haqqı tutulacaq. 2022-ci ildən etibarən isə sözügedən sektor üzrə işəgötürən və işçilərdən aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 manata qədər olan hissəsindən 2% miqdarında icbari tibbi sığorta haqqının tutulması müəyyən olunub.

Xidməti müqavilə ilə çalışan vətəndaşlardan da sığorta haqqı əmək haqqı 8000 manata qədər olan hissəsindən 1% və 8000 manatdan yuxarı olan hissəsindən 0,5% sığorta haqqı tutulacaq. Bundan başqa, bir kateqoriya insanlar da var ki, onlar fərdi sahibkar kimi VÖEN-lə fəaliyyət göstərirlər. Onlar üçün də sığorta ödənişi minimal əmək haqqının 4 % həcmindən müəyyənləşib. Yanvarın 1-dən etibarən onlar da ödəniş etməyə başlayıblar.

### İcbari tibbi sığorta özəl klinikalara da aiddirmi?

İcbari tibbi sığorta təkcə dövlət deyil, Agentliyin müqavilə bağladığı özəl klinikalarına da aiddir. Elə xidmətlər var ki, onları dövlət xəstəxanası verə bilmir, ancaq özəl klinikalarda mümkündür. Ona görə də özəl tibb müəssisələriylə müqavilələr imzalanır. Bu klinikaları seçərkən də müəyyən kriteriyalar nəzərə alınır. Məsələn, belə klinikalar daha geniş spektrda xidmət təklif edən klinikalar olmalıdır ki, vətəndaş bütün xidməti əldə edə bilsin.

Vətəndaş ərazisi üzrə dövlət tibb xidmətinə daxil olan tibb müəssisəsinə müraciət edir, əgər həmin tibb müəssisəsində ona lazım olan xidmət mövcud deyilsə, İTSDA-nın, həmin tibb müəssisənin göndərişi əsasında özəl tibb müəssisəsində bu xidməti əldə edə bilər.

Qeyd edək ki, gələcəkdə icbari tibbi sığorta xarici ölkələrdə də keçərli olacaq. Artıq qarşılıqlı tibbi sığortanın tətbiqi ilə bağlı bir neçə ölkə ilə danışıqlar aparılır.

Xatırladaq ki, bundan əvvəl birinci mərhələdə 23 inzibati ərazidə (Mingəçevir şəhərində, Qusar, Xaçmaz, Quba, Şabran, Siyəzən, Xızı, Qobustan, İsmayıllı, Ağsu, Şamaxı, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, Göyçay, Ucar, Zərdab, Kürdəmir, Yevlax və Ağdaş rayonlarında) tətbiq edilib. Bu il yanvarın 1-dən isə icbari tibbi sığortanın ikinci mərhələdə tətbiqinə başlanılıb. Ölkənin Gəncə, Şirvan, Qazax, Lənkəran, Salyan da daxil olmaqla daha 36 şəhər və rayonu icbari tibbi sığorta sisteminə qoşulub.

*Gülnar Əliyeva*

# Zəngəzur dəhlizi türk dünyasını birləşdirəcək - TƏHLİL



***Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) yaranandan bu günə kimi qarşıya qoyulan məqsədlərə nail olmaq üçün kifayət qədər böyük işlər görüb.***

Fəaliyyətinin əsas məqsədi türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığa yardım etmək olan TDƏŞ ticarət əlaqələri və investisiyalara dair əlverişli şəraitin yaradılmasından tutmuş, xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviq edilməsinə qədər ən müxtəlif mövzularla bağlı həmrəylik və birliyi özündə birləşdirir. TDƏŞ-in 2019-cu ildə Bakıda Zirvə görüşü keçirməsi məhsuldar nəticələri ilə seçilmişdi. Keçən ilin aprel ayında isə Azərbaycanın təşəbbüsü ilə COVID-19-a həsr edilmiş Zirvə görüşü təşkil olundu. Bu ilin martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası bir daha Zirvə görüşünü reallaşdırdı. Pandemiyanın yaratdığı bəlli səbəblərdən budəfəki qeyri-formal Zirvə görüşü videokonfrans formatında baş tutdu.

Zirvə toplantısının keçirilməsinin səbəblərindən biri də məhz son ildə dünyada baş vermiş dəyişikliklər, xüsusilə pandemiya ilə mübarizə oldu. Liderlərin Zirvə görüşü ötən il tarixi uğura nail olmuş Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinə dair fikirlərlə yadda qaldı. Qazaxıstanın birinci Prezidenti- Elbası, Türk Şurasının fəxri sədri Nursultan Nazarbayev çıxışında Azərbaycan Prezidentini qələbə münasibətilə təbrik edərək ərazi bütövlüyünün bərpa edilməsi məsələsində Türkiyənin önəmli rol oynamasını xüsusilə qeyd etdi:

"Biz hamımız bu prosesləri həyəcanla izləyir və nəticələri gözləyirdik. Əlbəttə ki, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi və Rusiyanın dəstəyi ilə Bakı və Yerevan arasında imzalanmış sülh razılaşması böyük İpək Yolunun çiçəklənməsi üçün yeni imkanlara yol açır və Çinin "Bir kəmər, bir yol" təşəbbüsündən istifadə etməklə Xəzər dənizinin rolunu artırır".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə ölkələrimizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi ilə bağlı məsələlərdə təşkilatın həmrəylik nümayiş etdirdiyini xüsusilə vurğulayaraq dedi ki, Qarabağdakı türk irsinin bərpası və qorunması üçün bütün imkanlarımızla Azərbaycanın yanında olmağa davam etməyimiz hamımız üçün əhəmiyyət daşıyır.

"Qırx dörd gün davam edən, dastana bənzər mübarizədən sonra 30 illik işğal sona çatıb, Dağlıq Qarabağ Ana Vətənlə yenidən qovuşub. Ancaq deməliyəm ki, Qarabağ bölgəsindəki 67 məsciddən 63-ü dağıdılıb, həmçinin kilsələr də yerlə-yeksan edilib. Həmçinin bu gün 1918-ci ildə azərbaycanlı qardaşlarımızın məruz qaldıqları soyqırımın anıldığı gündür. Biz Xocalı qətliamını heç vaxt unuda bilmərik. Biz bu qətliamın növbəti ildönümünü bir müddət əvvəl qeyd etdik. Mən qətlə yetirilən 10 minlərlə qardaşımıza rəhmət diləyirəm.

Qarabağdakı türk irsinin bərpası və qorunması üçün bütün imkanlarımızla Azərbaycanın yanında olmağa davam etməyimiz hamımız üçün əhəmiyyət daşıyır. Eyni qaydada bu addımı atarkən tezliklə Azərbaycanın bu bölgəsini inkişaf etdirmək üçün bütün məcburi köçkün qardaşlarımızın yenidən doğma torpaqlarına qayıtmalarına önəm verirəm. Arzum odur ki, ən qısa zamanda - Ramazan bayramından sonra qardaşımla birgə Şuşanı ziyarət edək, inşallah, burada yeni bir bayram yaşayaq", - deyən Ərdoğan Ramazandan sonra Şuşaya səfərinin anonsunu verdi.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev də Azərbaycanın qazandığı Qələbə münasibətilə təbriklərini çatdıraraq bildirdi ki, Dağlıq Qarabağ artıq öz sahibinə qaytarılıb və tarixi ədalət bərpa olunub.

"Biz qədim abidələrin, məscidlərin, mədəni maarifləndirmə məkanlarının bərpası haqqında danışmışıq. Biz hazırda bu istiqamətdə fəaliyyətimizi azərbaycanlı həmkarlarımızla davam etdiririk",-deyə Şavkat Mirziyoyev qeyd etdi.

Zirvə görüşündə Türk Şurasının Baş katibi Bağdad Amreyev də öz növbəsində Azərbaycanı parlaq Qələbə münasibətilə təbrik edərək dedi:

"Bütün çağırışlara və çətinliklərə baxmayaraq, 2020-ci ilin gündəliyi zəngin olub. Ötən il türk dünyası üçün həqiqətən də məhsuldar və hətta Zəfər ili olub. Türk dünyası önəmli uğurlarına, ən başlıcası Azərbaycan ərazilərinin işğaldan azad olunmasına, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsinə görə daha da güclənib. Dağlıq Qarabağdakı müharibə zamanı Türk Şurası bütün üzv dövlətləri və Zati-alilərinız adından Azərbaycanı bütün vasitələrlə dəstəkləyib. İcazə verin, təşkilatın fəaliyyətdə olan sədri kimi Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə çoxşaxəli əməkdaşlığın inkişafında göstərdiyi səylərinə görə təşəkkürümü bildirim".

Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışı zamanı bu ilin sonunda ölkəmizin Türk Şurasındakı sədrliyini qardaş Türkiyəyə təhvil verəcəyini xatırladaraq həmkarlarına II Qarabağ müharibəsi haqqında və postmüharibə dövründə görüləcək işlər barədə geniş məlumatlar verdi. Ölkə başçısı beynəlxalq təşkilatların Azərbaycanın mövqeyini daim dəstəklədiyini, Ermənistanın isə Xocalıda xalqımıza qarşı soyqırımı törətdiyini xatırlatdı. Prezident, həmçinin çıxışında Qarabağ probleminin 30 illik dövrü ərzində baş vermiş proseslərlə bağlı kifayət qədər ətraflı informasiyalar səsləndirərək ölkə rəhbərlərinə artıq problemin hərbi-siyasi yollarla həll olunduğunu çatdırdı.

"Biz müharibənin ilk günündən qardaş Türkiyədən böyük dəstək aldıq" , - deyən Azərbaycan Prezidenti əslində üzv ölkələrə türkdilli xalqların, dövlətlərin bir, həmrəy olmasının tarixin ən vacib məqamlarında necə mühüm rol oynadığı mesajını çatdırmış oldu.

"Mənim əziz qardaşım, Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan sentyabrın 27-də müharibə başlanan gün açıq şəkildə Azərbaycana dəstək ifadə etdi. Bu siyasi və mənəvi dəstəyin çox böyük əhəmiyyəti var idi. Əziz qardaşım bildirmişdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Əlbəttə ki, bu, çox ciddi mesaj idi, ciddi siqnal idi. Bu, bizə imkan verdi ki, əks-hücum əməliyyatını uğurla keçirək, imkan verdi ki, hər hansı bir kənar qüvvə məsələyə müdaxilə etməsin. Mən həmişə demişdim ki, əgər xarici müdaxilə olmasa, Azərbaycan Dağlıq Qarabağ məsələsini qısa müddət ərzində həll edə bilər və belə də oldu. Bu dəstəyə görə qardaş Türkiyəyə və onun hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğana dərin təşəkkürümü bildirmək istəyirəm", - deyə İkinci Qarabağ müharibəsindən qalib ayrılan Azərbaycanın müzəffər Ali Baş Komandanı Türkiyə liderinə təşəkkürlərini çatdırdı.

Prezident xüsusi olaraq qeyd etdi ki, onu və Azərbaycan xalqını Şuşanın azad olunması ilə əlaqədar ilk təbrik edən Prezident məhz Rəcəb Tayyib Ərdoğan olub. Azərbaycan lideri ümumilikdə Türk Şurasının müharibə zamanı Azərbaycanın yanında olmasının da əhəmiyyətini önə çəkib. O, Türk Şurasının sentyabrın 28-də - müharibədən bir gün sonra Azərbaycana dəstək xarakterli açıqlama verməsini xatırladıb, müharibə dövründə də bir neçə dəfə oxşar mesajların çatdırılmasını təqdir etdi.

Ölkə başçısı çıxışı zamanı Türk Şurasına təşəkkürünü bildirdi, digər beynəlxalq təşkilatlar - Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatının da Azərbaycana dəstək olduğunu vurğuladı.

Daha sonra tarixə qovuşan Qarabağ münaqişəsindən söz açan Prezident, həmçinin gələcək perspektivlərdən də danışdı. Təbii ki, təşkilata üzv ölkələr üçün bundan sonra regionda formalaşan yeni reallıqlar fonunda nəqliyyat və iqtisadi imkanlar açılır.

Çıxışı zamanı Azərbaycan Prezidenti azad edilmiş torpaqlarda hər şeyin dağıdıldığını diqqətə çatdırdı, Ağdamı xarici və yerli jurnalistlərin Qafqazın Xirosiması adlandırdığını söylədi:

"Ermənilər bütün şəhərlərimizi məhv ediblər, bütün tarixi abidələrimizi məhv ediblər, qəbiristanlıqları şumlayıblar, qəbirləri dağıdıblar, 60-dan çox məscidi dağıdıblar və yarımçıq sökülmüş məscidlərdə inək və donuz saxlayıblar" deyən ölkə başçısı bunun bütün müsəlman aləminə qarşı təhqir, cinayət olduğunu vurğulayıb. "Biz öz tarixi missiyamızı icra etdik, erməni faşizmini məhv etdik. Hazırda bərpa işlərinə start verilib. Müharibədən sonra bir çox azərbaycanlı mülki şəxs və hərbçi minaya düşərək həlak olub və yaralanıb. Ermənistan bu günə qədər bizə mina xəritələrini vermir. Bu, növbəti hərbi cinayətdir. Ona görə minalardan təmizləmə işi daha çox vaxt aparacaq. Bu işlər başa çatmadan, əlbəttə ki, biz köçkün, qaçqın soydaşlarımızı o torpaqlara qaytara bilmərik".

Ölkə başçısı ardınca zirvə görüşündə Zəngəzur dəhlizi ilə bağlı tarixi mesaj ünvanladı. Cənab İlham Əliyev bəyan etdi ki, qədim Azərbaycan torpağı olan Zəngəzur indi türk dünyasının birləşməsi rolunu oynayacaq:

"Müharibə başa çatdı, münaqişə tarixdə qaldı. Yeni imkanlar yarandı. Onların arasında hesab edirəm ki, ən vacib imkan nəqliyyat imkanlarıdır. Bu gün biz artıq Zəngəzur dəhlizi üzərində çox fəal çalışırıq. Naxçıvanda keçirilmiş Zirvə görüşündə mən demişdim ki, vaxtilə Zəngəzuru Azərbaycandan alıb Ermənistana birləşdirmək türk dünyasının coğrafi parçalanması idi. Çünki əgər xəritəyə baxsaq görərik ki, sanki bizim bədənimizə xəncər saplanmışdır, türk dünyası parçalanmışdır. Qədim Azərbaycan torpağı olan Zəngəzur indi türk dünyasının birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək, eyni zamanda, digər ölkələr üçün əlavə imkanlar yaradacaq, o cümlədən Ermənistan üçün. Ermənistanın hazırda onun müttəfiqi olan Rusiya ilə dəmir yolu əlaqəsi yoxdur. Bu dəmir yolu əlaqəsi Azərbaycan ərazisindən yarana bilər. Ermənistanın onun qonşusu olan İranla dəmir yolu əlaqəsi yoxdur. Naxçıvan vasitəsilə bu dəmir yolu təmin edilə bilər. Azərbaycan Naxçıvan Muxtar Respublikası vasitəsilə Türkiyə ilə birləşir, Orta Asiya Avropa ilə birləşir. Yəni, yeni nəqliyyat dəhlizi yaranmaqdadır. Artıq Azərbaycan bu işlərə start vermişdir. Əminəm ki, tərəfdaş ölkələr də bu imkanlardan istifadə edəcəklər".

Ümumiyyətlə noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatda Prezident İlham Əliyevin tələbi ilə ölkəmiz və region üçün çox vacib olan 9-cu maddənin salınması mühüm diplomatik qələbə hesab olunmalıdır. Həmin maddə yalnız Naxçıvanla birbaşa əlaqənin bərpasına, muxtar respublikanın nəqliyyat blokadasından çıxmasına imkan vermir, bu, həm də Çindən, Asiyadan Türk Şurasına üzv ölkələrdən Qərbə doğru yeni nəqliyyat qapısının açılması deməkdir. Zəngəzur dəhlizinin açılması, Naxçıvana dəmir yolu əlaqəsinin bərpası Şərq-Qərb, Şimal-Cənub dəhlizləri ilə bağlı yeni şərait yaradır. Zəngəzur dəhlizi nəhəng geosiyasi və iqtisadi layihə kimi mühüm əhəmiyyətə malikdir. Gələcəkdə region dövlətləri ilə yanaşı türkdilli ölkələr də marşrutdan yararlana biləcəklər. Bu, olduqca vacib və strateji məsələdir.

Digər mühüm əhəmiyyət daşıyan fakt isə odur ki, alternativi çox olan hər bir marşrut daha etibarlı sayılır. Məsələn, hər hansı bir səbəbdən - istər siyasi, istərsə də texnogen qəzalar səbəbindən Bakı-Tbilisi-Qars marşrutu fəaliyyətini dayandırarsa, yüklərin Çindən Avropaya daşınması üçün Azərbaycan-Naxçıvan-Türkiyə marşrutundan istifadə etmək mümkün olacaq.

Bu mənada Prezidentin martın 31-də keçirilmiş Zirvə görüşündə Zəngəzurla bağlı çıxışı türkdilli dövlətlərə ünvanlanmış tarixi mesajdır. 44 günlük Vətən Müharibəsində şanlı Zəfər qazanan Azərbaycan regionda yeni siyasi reallıqlar yaratmaqla Zəngəzur dəhlizinin açılması ideyasını gündəmə gətirdi və bu istiqamətində işlərə start verdi. Zəngəzur layihəsinin reallaşması təkcə region ölkələri üçün deyil, eyni zamanda türkdilli dövlətlərin birlik və əməkdaşlığının möhkəmləndirilməsi baxımından da tarixi əhəmiyyətlidir.

***Tural Tağıyev***

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Şuşaya "İsgəndər" raketlərinin atılması mədəni tarixi izi silmək məqsədi daşıyıb

## Naqif Həmzəyev: "Şuşaya "İsgəndər" raketlərinin atılması Dağlıq Qarabağ həqiqətlərinin bir parçası olaraq dünyaya car çəkilməlidir"

***44 günlük Vətən müharibəsi zamanı düşmənin kasetli bombalardan istifadə etməsi öz təsdiqini tapsa da, Ermənistana qarşı hələki beynəlxlaq təşkilatlardan heç bir sanksiya tətbiq edilməyib. Bu günlərdə isə Vətən müharibəsi zamanı Ermənistanın Azərbaycana qarşı "İsgəndər" raketlərindən istifadə etdiyi rəsmi açıqlandı.***

Bunu "Caliber.az"a müsahibəsində Azərbaycan Respublikasının Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin (ANAMA) nümayəndəsi deyib. ANAMA rəsmisi bununla bağlı bir sıra məqamlara toxunub: "ANAMA 2020-ci ilin dekabrından bəri işğaldan azad edilmiş Şuşa şəhərində minaların təmizlənməsi və döyüş sursatlarının zərərsizləşdirilməsi işlərini aparır. 2021-ci il martın 15-də agentlik əməkdaşları tərəfindən aparılan təmizləmə əməliyyatı zamanı şəhərdə iki partlamış raketin qalıqları aşkar edilib. Raket qalıqlarının coğrafi koordinatları aşağıdakı kimidir: 39°45'38.10"N 46°44'33.90"E və 39°45'27.80"N 46°45'25.80"E. Agentliyin mütəxəssisləri tərəfindən raketin identifikasiya nömrəsinin (9M723) yoxlanılması zamanı qalıqların "İsgəndər" raket sisteminə aid olduğu müəyyən edilib. Hətta açıq internet mənbələrində axtarış apararkən belə 9M723 identifikasiya nömrəsinin "İsgəndər" raketinə aid olduğunu müəyyən etmək olar. Bütün bunlar Vətən müharibəsi dövründə, o cümlədən də Şuşa şəhərini dağıtmaq üçün Ermənistanın Azərbaycana qarşı "İsgəndər" raketlərindən istifadə etdiyini təsdiqləyir".

Rəsmi açıqlama da göstərir ki, Ermənistan həqiqətən də dinc yaşayış məntəqələrinə qarşı "İsgəndər" raketləri tətbiq edib. Bu isə beynəlxalq cinayətdir.

Millət vəkili Naqif Həmzəyev "Unikal" qəzetinə açıqlamasında "İsgəndər" raketlərindən istifadənin Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılması ilə bağlı aparılan işdə önə çəkilməli olduğunu söyləyib. Həmsöhbətimiz deyir ki, bu həqiqət dünyaya çatdırılmalı, Şuşaya atılan "İsgəndər" raketlərinin timsalında Ermənistanın necə bəşəriyyət üçün təhlükəli cinayətkar ölkə olduğu göstərilməlidir: "Bilirsiniz ki, Şuşa tarixi şəhərdir. Bizim tarixi, mədəni abidələrimizin diyarıdır Şuşa. Ermənistan Şuşaya "İsgəndər" raketləri atmaqla tarixi irsi yer üzündən silməyə cəhd edib. Xöşbəxtlikdən onların atdığı "İsgəndər" raketləri tam partlamayıb. Bu zaman Şuşanın hansı vəziyyətə düşəcəyini təsəvvür etmək çətin deyil. Odur ki, mənim qənaətimcə necə ki, hərbi ataşelər, səfirlər Gəncəyə, 44 günük müharibədə kasetli bombaların atıldığı digər şəhərlərimizə, kəndlərimizə aparıldı, onların səfərini Şuşaya da təşkil etmək lazımdır. Qoy beynəlxalq təşkilatların nümayəndələri, səfirlər, insan haqları müdafiəçiləri Şuşaya "İsgəndər" raketlərinin atıldığını gözləri ilə görsünlər. Bu fakt araşdırılıb Dağlıq Qarabağ həqiqətlərinin bir parçası olaraq dünyaya car çəkilməlidir. Ermənistanın bu cinayətinə beynəlxalq hüquqla layiqli cəza verilməlidir".

Deputat deyir ki, bu məsələdə hər zaman Ermənistana baxan gözlərini yuman beynəlxalq təşkilatlar da susmamalıdır: "Artıq onlar bu ikili standartdan əl çəkməli, dünya üçün təhlükə olan, cinayətkar dövlətə qarşı sanksiya tətbiq etməklə bağlı tələblər irəli sürməlidirlər".

N. Həmzəyev onu da bildirir ki, Ermənistan tərəf "İsgəndər" raketindən istifadə etdiklərini etiraf ediblər: "Dəfələrlə ermənilərin əsl simalarının özlərini dünyaya təqdim etdikləri kimi deyil, qatil, terrorist, faşist ideyalarına xidmət etdikləri, xəstə təxəyyülə sahib olduqlarını söyləsək də, bizə inananlar çox az olurdu. Amma indi dediklərimiz sübut olunur. Ermənistanın eks-prezidenti Serj Sarkisyan müsahibəsində Şuşa döyüşlərində "İsgəndər" raketindən istifadə etdiklərini etiraf etmişdi. Nikol Paşinyan isə bu raketdən istifadə etsələr də, partlamadığını, ya da qismən partladığını açıqlayıb. Sonradan bu səhvini düzəltməyə çalışsa da, əsas fikrini bildirmiş oldu. Bu, onu göstərir ki, Azərbaycan hərbi sahəyə doğru şəkildə yatırım edib öz ordusunu formalaşdıra bildiyi halda, qarşı tərəf ordusunu köhnə və ya yararsız silahlarla təmin edib. Bütün bunlara baxmayaraq, ermənilərin hərbi cinayət törətdikləri bir daha sübut olundu və mən hesab edirəm ki, dünya ictimaiyyəti bu prosesə susmamalı, gələcəkdə ermənilərin region üçün törədə biləcəkləri təhlükə və təhdidlərin qarşısını almalıdır".

Deputat bu qənaətdədir ki, bu etirafların özəyində başqa məqsədlər yatır: "İstənilən halda, hazırda Rusiyanın dəstəyi ilə Ermənistan ordusunun yenidən formalaşması məsələsi gündəmdədir. Fikrimcə, bu, həm də Rusiyaya təzyiq xarakteri daşıya bilər ki, onların ordusunu modern silahlarla təchiz etsin. Başqa bir ehtimalla, bu, Serj Sarkisyanın açıqlamaları zamanı Paşinyan hökumətinin və hərbçilərin "İsgəndər" raketlərindən doğru zamanda istifadə etmədiklərinə qarşı verilmiş bir cavab ola bilər. Düşünürəm ki, Rusiya münaqişənin həllində bu günə qədər təmkinli davranıb, Azərbaycanın mövqeyinə və ərazi bütövlüyünə hörmətlə yanaşıb. Bu gündən sonra da Rusiya atacağı addımlarda regionun təhlükəsizliyi və bu münaqişənin yenidən alovlanmaması üçün çalışaraq Azərbaycanla dostluq və qonşuluq əlaqələrini davam etdirəcək. Ermənistanın isə bu məsələdə tək çıxış yolu Azərbaycan və Türkiyə ilə əlaqələrini yaxşılaşdırmaqdır".



Deputat onu da bildirir ki, Ermənistan başlarına dəymiş "dəmir yumruq"dan düzgün nəticə çıxarmalıdır: "Ermənistan regionda Azərbaycan və digər dövlətlərə qarşı ərazi iddialarından tamamilə əl çəkməlidir. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin qurmaq istədiyi sülh və əmin-amanlıq şəraitindəki Qafqaz ailəsinə onlar da öz töhvələrini verməlidirlər".

N. Həmzəyev deyir ki, Ermənistanın "İsgəndər" raketindən istifadəsi bütün dünyaya nümayiş etdirilməli, onlara qarşı beynəlxalq aləmdə qınaq formalaşdırmağa nail olunmalıdır: " Ermənistan Gəncəni bombalayanda da eyni mövqe sergilədi. İddia etdi ki, Gəncədə hərbi baza var. Amma bu ağ yalandır. Onlar məqsədli şəkildə sivilləri hədəfə almışdılar. Şuşa şəhərində Azərbaycanın hərbi təyinatlı bazası olmayıb. Ancaq Ermənistan bunu bilə-bilə şəhərə "İsgəndər" raketi atıb. Bu, Ermənistan tərəfinin necə cinayətkar olduğunu göstərir".

Qeyd edək ki,(Berlin) - Human Rights Watch təşkilatının 11 dekabr tarixli məruzəsində qeyd edilib ki, 2020-ci ilin sentyabr-noyabr aylarında baş vermiş müharibə zamanı Ermənistan hərbi qüvvələri qeyri-qanuni olaraq Azərbaycana qarşı hərbçilər və mülki əhali arasında fərq qoymadan kasetli silahlardan istifadə edib.

Noyabr ayında hadisə yerlərini xüsusi olaraq araşdırmış Human Rights Watch Erməni silahlı qüvvələrinin ballistik raket və iri kalibrli artilleriya silahlarından istifadə etdiyi 11 insidenti sənədləşdirib. Ən az dörd ayrı hadisə zamanı hərbi hədəflərin müşahidə edilmədiyi ərazilərdə mülki şəxslər və ya mülki obyektlər raket hücumuna məruz qalıb.

"Ermənistanın hərbi qüvvələri müharibə qanunlarını pozaraq dinc sakinlər yaşayan şəhərlərə və kəndlərə raketlər atıb, ağır artilleriya zərbələri endirib," Human Rights Watch-un Avropa və Orta Asiya üzrə rəhbəri Hugh Williamson deyib. "Altı həftəlik müharibə ərzində bu hücumlar dəfələrlə sivilləri və mülki evləri qanunsuz olaraq hədəf alıb və baş verənlər qərəzsiz şəkildə araşdırılmalıdır."

Human Rights Watch Ermənistan hərbi qüvvələri tərəfindən Azərbaycanın Ağdam, Bərdə, Füzuli, Gəncə, Goranboy, Naftalan və Tərtər rayonlarının şəhər və kəndlərininin raket və ağır artilleriya hücumlarına məruz qalma faktını araşdırıb. Bu məruzə 40 mülki vətəndaşın öldürülməsi və bir çoxunun yaralanması ilə nəticələnən 18 hücumu hərtərəfli öyrənərək 53 hadisə şahidiylə apardımış müsahibə, 12 telefon müsahibəsi, media xəbərləri, o cümlədən hökumətin elan etdiyi məlumatlardan əldə olunmuş informasiyalar əsasında hazırlanıb. "Human Rights Watch" 18 hücumdan üçünün qanuni olub olmadığını dəqiqləşdirə bilməyib. Eyni zamanda "Human Rights Watch "17 hücumdan 10-nun peyk görüntülərini, 9-nun sosial mediada paylaşılmış foto və videolarını araşdırıb. Hücumların saat və tarixi, səbəb olduğu dağıntı miqyası müəyyənləşdirilib.

***Mələk Eyvazlı***

# Səkkizinci sinif şagirdi olan qızına görə tüfəngə əl atdı: “Kürəyindən vurdum”

***1976-cı il təvəllüdlü Bərdə rayon sakini Qadir İbrahimov 1997-ci il təvəllüdlü həmkəndlisi Namiq Ağamirovu ov tüfəngi ilə öldürmək istəyib.***

Hadisə iyulun 12-də saat 6 radələrində Bərdə rayonu, Otuzikilər kəndində baş verib. Qadir İbrahimov Namiq Ağamirovun evi önündə olarkən qızına bəslədiyi sevgi mübasibətlərinə görə əvvəllər mübahisə edib.

Hadisə baş verən günü o, Namiqin atla iribuynuzlu heyvanları otlaq sahəsinə apardığını görüb və kənd ərazisində başqa yolla gedə biləcəyi halda, qızına görə onun evi qarşısından keçməsinə əsəbləşib. İdarə etdiyi “VAZ-2106” markalı avtomobilin ön oturacağına qoyduğu ov silahını götürüb və patronla doldurduqdan sonra Namiqə ardıcıl iki atəş açıb.

Namiq müxtəlif dərəcəli xəsarət aldıqdan sonra xəstəxanaya çatdırılıb. Ona vaxtında tibbi yardım göstərildiyi üçün həyatını xilas etmək mümkün olub.

İstintaq orqanı tərəfindən Qadir İbrahimovun barəsində Cinayət Məcəlləsinin 29,120.1-ci (qəsdən adam öldürməyə cəhd) maddəsi ilə ittiham elan edilib.

### “Qızımı narahat edirdi”

Qadir İbrahimov elan olunmuş ittiham üzrə özünü təqsirli bilib. O, ifadəsində göstərib ki, həbs edilməzdən əvvəl ailə üzvləri ilə birlikdə Bərdə rayonu Otuzikilər kəndində yaşayıb:

“Əvvəllər heç bir cinayət hadisəsi törətməmişəm. Ailədə özümdən başqa həyat yoldaşım Şövkət, Elnarə və Rövşən adlı iki azyaşlı övladlarım var. Qızım Elnarə və oğlum Rövşən Bərdə rayonu, Xanqaraqoyunlu kənd orta məktəbinin 8-ci və 5-ci siniflərində təhsil alıblar. Rəsmi olaraq heç bir yerdə işləməmişəm və təsərrüfatla məşğul olaraq ailəmi dolandırmışam.

Namiqi həmkəndlim Əhmədin oğlu kimi uzun müddətdir tanıyıram. Aramızda əvvəllər heç bir düşmənçilik və ya ədavət olmayıb. Xatırladığım qədəri ilə təxminən 3-4 ay əvvəl qızım Elnarə məktəbdən evə gələrək Namiqin onun arxasınca düşdüyünü və narahat etdiyini dedi. Buna görə həmin gün Namiqin atası Əhmədlə görüşdüm, ona oğlunun qızımı narahat etdiyini bildirdim. Əhməd oğlu ilə danışıb, bu məsələyə son qoyacağına dair söz verdi”.

### “Xəbərdarlığıma güldü...”

Qadirin sözlərinə görə, bir neçə dəfə Namiqi yaşadığı evin həndəvərində görüb: “Daha iki dəfə Namiqə yaşadığım evin yaxınlığına gəlməməsi ilə bağlı xəbərdarlıq etdim, amma o bu xəbərdarlıqlara məhəl qoymadı. Əksinə, gülərək özündənrazı davranış nümaiş etdirdi.

Sonuncu dəfə Namiqi hadisədən təxminən 10-15 gün əvvəl günorta saatlarında yaşadığım evin yaxınlığında gördüm. Ona bu hərəkətlərinin axırının yaxşı olmayacağını dedim.

Bu zaman yanımda arvadım Şövkət və oğlum Rövşən də olub. Arvadım və oğlum mənim Namiqlə aramızda olan söhbəti eşitdilər. Hərəkətlərinin axırının yaxşı olmayacağını deməklə Namiqi döymək, bıçaqlamaq və ya odlu silahla güllələmək kimi müxtəlif şeyləri ağlımdan keçirdim.

Ancaq Namiqi tüfənglə, yaxud bıçaqla vurmaq üçün hər hansı bir imkanım olmadı”.



### “Gizli evimin önünə gəlib-getməyə davam etdi”

Qadir ifadəsində göstərib ki, Namiqin dediklərindən nəticə çıxaracağını və qızı Elnarəni daha narahat etməyəcəyini düşünüb: “Ancaq Namiq yenə xəbərdarlıqlarıma məhəl qoymadı, yaşadığım evdə olmayan zamanlarda gizli şəkildə evimin önünə gəlib-getməyə davam etdi. Bununla bağlı məlumatı mənə oğlum Rövşən verib.

Rövşən sonuncu dəfə Namiqin yaşadığımız evin yaxınlığına gəlməsi barədə məlumatı hadisədən 5 gün əvvəl verd. Bundan sonra artıq Namiqin söz başa düşən bir insan olmadığını qəbul etdim.

Bu səbəbdən Namiqi uzun illərdən bəri yaşadığım evdə saxladığım, babam Əsədulladan yadigar qalmış tüfənglə vurmaq qərarına gəldim”.

### “Qızıma etdiyi hörmətsizlik yadıma düşdü”

Qadir İbrahimov qeyd edib ki,hadisə günü, səhər saat 06.00-da yaşadığı kənd ərazisindəki bostanda əkdiyi qarpızı qarğalardan qorumaq üçün təkbaşına bostana getməli olub: “Yaşadığım evin çıxış üçün iki qapısı var. Həmin qapılardan biri heyvanların, digəri isə avtomobillərin çıxması üçün nəzərdə tutulub.

Evdən çıxan zaman ətraf aydınlıq olduğundan hər yer rahat və aydın şəkildə görünürdü. Bu səbəbdən idarə etdiyim avtomobilin işıqlarını yandırmadım. Bostanda uçan qarğaları qorxutmaq üçün tüfəngi də özüm ilə götürmüşdüm. Bostanın kənarına doğru avtomobillə yola düşdüm. Həmin vaxt tüfəngi avtomobilin sağ ön oturacağının üzərinə qoymuşdum.

Avtomobillə hərəkətdə olan zaman yolda hər hansı şəxs görmədim. Təxminən 150 metr hərəkət etdikdən sonra yolun üzərindəki burulma hissəsini keçərkən Namiqin at belində 3-4 baş iribuynuzlu heyvanı otarmaq üçün torpaq sahələrinə tərəf apardığını gördüm.



Namiqi görən kimi sözlərimə məhəl qoymaması və qızıma etdiyi hörmətsizlik yadıma düşdü”.

### “Kürək nahiyəsini nişan aldım”

Təqsirləndirilən şəxs qeyd edib ki, istifadəsində olan torpaq sahəsinin sağ tərəfində avtomobillə hərəkət edib: “Namiq isə mənim əks tərəfimdə, yolun sol tərəfi ilə atın üzərində mal-qara otarırdı. Namiqin arxa tərəfinin mənə doğru olmasına baxmayaraq atın üzərində sağa-sola çevrildiyindən məni gördü. Məni gördükdə özlərinin torpaq sahəsinə doğru atı çapdı. Həmin vaxt Namiq ilə mənim aramda təxminən 25-30 metr məsafə vardı.

Dərhal avtomobili saxladım, ön oturacaqda olan tüfəngi özümlə götürdün və iki patronu içərisinə daxil edərək avtomobildən yerə düşdüm. Namiq məndən uzaqlaşmağa davam etdi. Həmin əraziyə avtomobillə getmək mümkün olmadı. Əlimdəki tüfəngi doldurduqdan sonra Namiqin kürək nahiyəsini nişan alaraq ard-arda iki dəfə atəş açdım. Atəşin Namiqin hansı nahiyələrinə dəydiyini bilməmişəm.

Namiq atəş açıldıqdan sonra daha sürətlə uzaqlaşdı. Onun arxasınca getmədim”.

### “Polislər evimə gəldi”

Qadirin sözlərinə görə, Namiqin getdiyi torpaq yolla avtomobil sürmək mümkünsüz olduğundan həmin istiqamətdə hərəkət edə bilməyib: “Hadisə zamanı ətrafda başqa heç kim olmayıb. Namiqə atəş açdıqdan sonra bostana getmədim, evə qayıtdım. Həmin vaxt evdə arvadım, qızım və oğlum olublar. Ailə üzvlərimə Namiqi tüfəngdən atəş açaraq vurduğumu, ancaq ölüb-ölməməsini bilmədiyimi dedim. Evdə bir neçə dəqiqə gözlədim.

Çay içdikdən sonra polis əməkdaşları yaşadığım evə gələrək məni Bərdə rayon polis şöbəsinə dəvət etdilər. Polis əməkdaşları ilə razılaşdım, cinayət hadisəsini törədərkən istifadə etdiyim tüfəngi, evdə saxladığım 15 ədəd patronu, içərisində gizilər olan qatarı, barıtı, qırma bağlamasını götürdüm, polis əməkdaşları ilə birlikdə Bərdə rayon polis şöbəsinə gəldim”.

### “İstəyimi qıza bildirmək qərarına gəldim”

Cinayət işi üzrə zərərçəkmiş şəxs qismində ifadə verən Namiq qeyd edib ki, ailə üzvləri ilə birlikdə Otuzikilər kəndində yaşayır: “Rəsmi olaraq heç bir yerdə işləməsəm də, təsərrüfatla məşğul olaraq dolanıram. Qadir həmkəndlimdir, onu uzun müddətdir tanıyıram. Əvvəllər nə mənim, nə də ailə üzvlərimin Qadirlə heç bir düşmənçiliyimiz olmayıb.

Təxminən bir il əvvəl Qadirin qızı Elnarəni məktəbə gedib-gəldiyi zaman gördüm. Ciddi niyyətlə istəyimi qıza bildirmək qərarına gəldim”.

### “Atama qızdan xoşum gəldiyini söylədim”

Namiqin sözlərinə görə, 2019-cu ildə Elnarə məktəbə gedib-gələn vaxtlarda ona yaxınlaşıb və ondan xoşu gəldiyini bildirib: “Elnarə onu narahat etməməyimi və ondan uzaq durmağımı dedi. Bundan sonra bir daha heç vaxt Elnarəni narahat etmədim.

2020-ci ilin qış aylarında evdə olan zaman atam mənə Qadirin qızı Elnarəni narahat etdiyimi irad tutdu. Atama qızdan ciddi niyyətlə xoşum gəldiyini söylədim. Ancaq atam mənə camaatın qızını narahat etməməyimlə bağlı məsləhət verdi, vaxtı gələn zaman elçi gedəcəklərini söylədi.

Hadisədən təxminən 10-15 gün əvvəl kənd ərazisində yerləşən mağazanın qarşısında olarkən Qadirlə qarşılaşdım. Qadir məndən haradan gəldiyimi soruşdu. Mən isə işimlə əlaqədar kənd ərazisində olduğumu bildirdim. Qadir mənə əməllərimin sonunun yaxşı nəticələnməyəcəyini deyərək xəbərdarlıq etdi”.

### “Məni xəstəxanaya çatdırdı”

Namiq bildirib ki, hadisə günü, təxminən saat 05.30-da ata minib və iribuynuzlu heyvanları otarmaq üçün evdən çıxıb: “Qadirin evinin arxa tərəfində yerləşən örüş-otlaq sahəsinə yollandım. Təxminən saat 06.00-da qəflətən atəş açıldı və yolun kənarından avtomobili ilə keçən Qadirin tüfəngini mənə tuşladığını gördüm. Sonuncunun yenidən atəş açmaq niyyətində olduğunu bildim. Qadirin açdığı ilk atəş nəticəsində xəsarət almışdım. Buna görə dərhal mindiyim atı çaparaq uzaqlaşmaq istədim.

Həmin vaxt mənimlə Qadirin arasında təxminən 25 metr məsafə olub. Qadir mənə ikinci dəfə atəş açdı. İkinci atəşdən sonra kürək və baş nahiyəmdən xəsarət aldım. Buna görə sürətlə atı çaparaq dayım Müslümün yaşadığı evə getdim. Dayım qonşusu Suliddinlə birlikdə məni Bərdə rayon mərkəzi xəstəxanasına çatdırdı”.

Namiq ifadəsinin sonunda bildirib ki,təqsirləndirilən Qadirə qarşı heç bir şikayəti yoxdur, onunla barışıb.

Bu cinayət işinə Gəncə Ağır Cinayətlər Məhkəməsində hakim Nural Əliyevin sədrlik etdiyi kollegiyada baxılıb.

Qadir İbrahimov 9 il 6 ay müddətinə azadlıqdan məhum edilib(teleqraf.com).

# Bu dövlət qurumları ərzaq balansının hazırlanmasında iştirak edəcək



***Azərbaycanda ərzaq balansının tərtib olunmasında Dövlət Statistika Komitəsi (DSK), İqtisadiyyat Nazirliyi (İN), Kənd Təsərrüfatı Nazirliyi (KTN), Fövqəladə Hallar Nazirliyi (FHN) və Dövlət Gömrük Komitəsi (GDK), eləcə də yerli icra hakimiyyəti qurumları iştirak edəcək.***

Bu, Baş Nazir Əli Əsədovun təsdiqlədiyi "Ərzaq balansının tərtib olunması Qaydası"da öz əksini tapıb.

Qaydaya əsasən, aidiyyəti orqanlar ərzaq balansının hesabat ili üzrə göstəricilərinin tərtibi üçün müvafiq illik məlumatları aşağıdakı müddətlərdən gec olmayaraq DSK-ya təqdim edirlər:

- FHN - dövlət ərzaq ehtiyatlarına dair məlumatları yanvarın 15-nə qədər;

- KTN - "Elektron Kənd Təsərrüfatı" İnformasiya Sistemi"ndə qeydiyyatdan keçmiş təsərrüfat subyektlərinin buğda istehsalı barədə, habelə istixana, taxıl elevatorları və soyuducu anbarlar üzrə məhsul satışı, qalıqları və itkiləri barədə mövcud məlumatları yanvarın 30-na qədər;

- DGK - müvafiq ərzaq məhsullarının (o cümlədən buğdanın siniflər üzrə) idxal-ixracı barədə məlumatları yanvarın 15-nə qədər;

- yerli icra hakimiyyəti orqanları - bələdiyyələrin məlumatlarını nəzərə almaqla, kənd təsərrüfatı məhsullarının istehsalına dair məlumatları yanvarın 20-nə qədər.

Bundan başqa, DKS rəsmi statistika hesabatları ilə əhatə olunması mümkün olmayan göstəricilərin əldə edilməsi məqsədilə xüsusi sorğular vasitəsilə əldə edilmiş məlumatları martın 15-nə qədər ümumiləşdirir, ərzaq balansının hesabat ili üçün tərtib olunmuş ilkin göstəricilərini fevralın 10-na qədər, yekun göstəriciləri isə iyulun 15-nə qədər İN-ə təqdim edir.

Aidiyyəti orqanlar isə ərzaq balansının cari il üzrə gözlənilən və növbəti il üçün proqnoz göstəricilərinin tərtibi üçün aşağıdakı məlumatları sentyabrın 20-dən gec olmayaraq İN-ə təqdim edirlər:

- KTN - kənd təsərrüfatı məhsullarının istehsalına dair cari ilin gözlənilən və 5 növbəti il üçün proqnoz göstəriciləri və "Elektron Kənd Təsərrüfatı" İnformasiya Sistemi"ndə qeydiyyatdan keçmiş taxıl elevatorları və soyuducu anbarlarda cari ilin 6 ayının yekunları üzrə məhsul qalıqları və itkiləri barədə mövcud məlumatları;

- FHN - dövlət ərzaq ehtiyatlarına dair cari ilin 8 ayının yekunları üzrə məlumatları və cari ilin sonuna gözlənilən və növbəti il üçün proqnoz göstəriciləri;

- DSK - ərzaq məhsullarının istehsalına dair cari ilin 8 ayının yekunları üzrə məlumatları;

- DGK - ərzaq məhsullarının (o cümlədən buğdanın siniflər üzrə) idxal-ixracı barədə cari ilin 8 ayının yekunları üzrə məlumatları;

- ərzaq məhsullarının istehsalı, emalı, saxlanılması, idxalı, ixracı və satışı sahəsində fəaliyyət göstərən subyektlər və əlaqəli dövlət qurumları - İN-in sorğu məktubuna uyğun olaraq müvafiq məlumatlarını.

- İN təqdim olunmuş məlumatlar əsasında hazırlanan və hesabat ili, cari il üzrə gözlənilən və növbəti il üçün proqnoz göstəricilərini özündə əks etdirən ərzaq balansını oktyabr ayının 15-nə qədər Nazirlər Kabinetinə təqdim edir.

- Ərzaq balanslarının tərtibi zamanı dövlət sirri təşkil edən məlumatların mühafizəsi, məxfiləşdirilməsi, istifadə edilməsi və digər məsələlər qanunvericiliklə müəyyən olunmuş qaydada həyata keçirilir.

# Müəssisələr nə üçün cərimələnir? - AÇIQLAMA

***"Pandemiya dövrünün tələblərinə uyğun olaraq qanun pozuntusu aşkarlanmış müəssisələrdə İnzibati xətalar məcəlləsinin müvafiq maddələrinə uyğun olaraq, maskadan düzgün istifadə olunmadığı, sıxlıq normalarına əməl olunmadığı halda və digər qayda pozuntuları ilə bağlı cərimələr tətbiq olunur".***

Bu sözləri BiznesMedia-ya AQTA-nın İnformasiya təminatı və İnnovativ fərdlər şöbəsinin müdiri Mənsur Piriyev bildirib. Onun verdiyi məlumata görə, pandemiya dövrünün tələblərinə uyğun sahibkarlıq subyektlərində ardıcıl olaraq yoxlamalar keçirilir.

"Agentlik müfəttişləri tərəfindən sahibkarlıq subyektlərində əgər nöqsan aşkarlanırsa, müştəri yox, sahibkarlıq subyektləri cərimələnir. Cərimələr aşkarlanmış nöqsana uyğun olaraq müəssisəyə tətbiq olunur. İnzibati xətalar məcəlləsinin 211-ci maddəsinin 1 və 2-ci bəndinə bununla bağlı fərqli cərimə tədbirləri nəzərdə tutulub".

Mənsur Piriyevin sözlərinə görə, ən çox qayda pozuntusu sıxlıq normalarına əməl olunmadıqda, maskadan düzgün istifadə olunmadıqda və yaxud müəssisənin işçi heyəti maska ilə yetərincə təmin olunmadıqda aşkarlanır.

"Bildiyimiz kimi, Nazirlər Kabinetinin 237 saylı qərarına olunan son əlavədə, hər bir ictimai-iaşə müəssisəsində məsul şəxs təyin olunmalıdır. Həmin məsul şəxslər hər bir müəssisənin daxilində qaydalara riayət olunmasına nəzarət etməlidirlər. Əgər daxildə tələb olunan nəzarət sistem qurulmayıbsa, məsul şəxs təyin olunmayıbsa və bununla bağlı zəruri məlumatlar Agentliyə təqdim olunmayıbsa, bu da qayda pozuntusudur".

Cərimələrin təyin olunması və məbləğinə aydınlıq gətirən AQTA rəsmisi bildirib ki, paralel olaraq geniş maarifləndirmə və təbliğat işləri də həyata keçirilməkdədir.

"Karantin qaydalarının pozulması ilə əlaqədar İnzibati xətalar məcəlləsinin 211-ci maddəsinin 1 və 2-ci bəndinə əsasən, vəzifəli şəxslər 4000-5000, hüquqi şəxslər isə 5000-11000-ə qədər, eyni zamanda tibbi maskadan istifadə ilə bağlı qayda pozuntusuna görə vəzifəli şəxslər 300 manat, hüquqi şəxslər isə 600 manat cərimə olunur. Monitorinq aparılan müəssisələrdə aşkar olunan nöqsanlara uyğun olaraq qanunda nəzərdə tutulan cərimələr təyin olunur".

Mənsur Piriyev, həmçinin pandemiyadan kənar həyata keçirilən nəzarət tədbirlərinin də davam etirildiyini bildirib: " AQTA-nın ölkəmizdə qida təhlükəsizliyinin təmin olunması ilə bağlı həyata keçirdiyi yoxlama-nəzarət tədbirlərini planlı və plandan kənar olmaqla iki yerə ayırmaq olar. Planlı yoxlamalar əvvəlcədən müəyyənləşdirilmiş sahibkarlıq subyektinin qida zəncirində olan risk səviyyəsinə uyğun olaraq dövrü (3 ay, 6 ay, 1 ildən bir), vətəndaş şikayəti olarsa, istehlakçı hüquqlarının pozulması faktı olarsa, həmin o fakt əsasında plandan kənar yoxlama açılır və qanunvericiliyə uyğun şəkildə həmin müəssisədə faktın araşdırılması üçün müvafiq tədbirlər həyata keçirilir".

Qeyd edək ki, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən pandemiya dövrünün tələblərinin icrasını təmin etmək məqsədilə nəzarət tədbirləri çərçivəsində 29 mart 2021-ci il tarixində ölkə üzrə 441 ictimai iaşə obyektində 746 monitorinq keçirilib. Monitorinqlər zamanı 24 müəssisədə qanunvericiliyin tələblərinin kobud şəkildə pozulması faktları aşkar olunub.

***Nübar Lətifli***



## Səfər Mehdiyev: "Gömrük Komitəsi bu il büdcə öhdəliyinə 119% əməl edib"

***"Dövlət Gömrük Komitəsi cari ilin yanvar-mart ayları üzrə nəzərdə tutulan büdcə öhdəliyinə 119,55 % əməl edib.***

"Unikal" xəbər verir ki, bunu DGK sədri Səfər Mehdiyev "Tvitter"də yazıb.

"Nəzərdə tutulan proqnozdan əlavə 153,5 milyon manat gömrük ödənişlərinin toplanaraq dövlət büdcəsinə köçürülməsi təmin olunub", - S. Mehdiyev bildirib.

## Mərkəzi Bankının valyuta ehtiyatları martda azalıb

***Bu il aprelin 1-nə Azərbaycan Mərkəzi Bankının (AMB) valyuta ehtiyatları 6 356,2 milyon ABŞ dolları təşkil edib.***

"Unikal" xəbər verir ki, bu, martın 1-i ilə müqayisədə 0,2% azdır. AMB-nin valyuta ehtiyatları ilin əvvəlinə nisbətən də 0,2%, son 1 ildə isə 0,6% azalıb.

## Dünya Bankından Azərbaycanın istehlak bazarı ilə bağlı proqnoz

***Dünya Bankı bu il Azərbaycanda istehlak bazarının 3,7% artacağını proqnozlaşdırır.***

"Unikal" Dünya Bankının region üzrə dərc olunmuş yeni hesabatına istinadən verdiyi məlumata görə, 2022-ci ildə istehlak bazarında 3,6%-lik, 2023-cü ildə isə 3,5% səviyyəsində artım gözlənilir.

Qeyd edək ki, istehlak bazarı dedikdə, Azərbaycanda istehlakçıların şəxsi tələbatlarının ödənilməsi məqsədilə satılmış məhsulların və göstərilmiş xidmətlərin dəyəri nəzərdə tutulur. Xatırldaq ki, 2020-ci ildə ölkədə istehlakçılar 47,9 mlrd. manat dəyərində məhsullar və göstərilmiş xidmətlər alıblar ki, bu da 2019-cu il ilə müqayisədə 8,1% azdır.

## Dünya avtomobil bazarında elektromobillərin payı artacaq

***Dünya avtomobil bazarının yarısından çoxu 2033-cü ildən sonra elektromobillərin payına düşəcək.***

"Report" NGV-yə istinadən xəbər verir ki, "Rystad Energy" enerji tədqiqatları və məsləhət mərkəzinin hesabatına görə, bu ilin sonunda dünya avtomobil bazarında elektrik maşınlarının payı 6,2 faiz, gələn il isə 7,7 faiz təşkil edəcək. Yaxın illərdə elektromobillərin tətbiqi sahəsində birinciliyi əldə saxlayacağı gözlənilən Avropanın elektromobil satışlarındakı payı bu ildə 10 faizi, 2025-ci ilədək də 20 faizi ötəcək. Sonrakı yerlərdə Şimali Amerika və Asiya olacaq.

Həmçinin 2050-ci ilədək Afrikadan başqa bütün regionlarda elektromobillərin payının 100 faizə yaxınlaşacağı güman edilir.

Qeyd edək ki, Beynəlxalq Enerji Agentliyinin (IEA) hesablamalarına görə, dünyada 2030-cu ilədək karbon qazı tullantılarının 40 faiz azaldılması hədəfinə çatmaq üçün sərnişin avtomobil vasitələri satışlarında elektrik maşınlarının payı 50 faizə çatdırılmalıdır.

# “Azərsu”da İctimai Şura yaradılır



***“Azərsu” ASC-nin fəaliyyətində ictimai iştirakçılığın və nəzarətin təmin edilməsi məqsədilə Səhmdar Cəmiyyətdə İctimai Şuranın yaradılması prosesinə başlanılıb.***

“Unikal” xəbər verir ki, “Azərsu” ASC sədrinin 17 mart 2021-ci il tarixli 158 nömrəli əmrinə əsasən, yaradılacaq İctimai Şuraya seçkilərin keçirilməsi və şura üzvlərinin say həddinin müəyyən edilməsi məqsədilə İctimai Şuranın təşkili ilə bağlı Seçki Komissiyası yaradılıb. Komissiya “Azərsu” ASC-nin 4 əməkdaşından və vətəndaş cəmiyyəti institutlarının 5 nümayəndəsindən ibarət olmaqla təşkil edilib.

Seçki Komissiyasının ilk iclasında “Azərsu” ASC-nin İşlər İdarəsinin rəisi Möhsün Quliyev bildirib ki, Prezident İlham Əliyevin təsdiqlədiyi “İctimai iştirakçılıq haqqında” qanunda dövlət siyasətinin həyata keçirilməsində və qərarların qəbulunda ictimaiyyətin və vətəndaş cəmiyyəti institutlarının iştirakı və ictimai rəyin nəzərə alınması xüsusi qeyd olunur. “Azərsu” ASC-də İctimai Şuranın yaradılması Səhmdar Cəmiyyətin fəaliyyətində şəffaflığın daha da artırılmasına, ictimaiyyətlə qarşılıqlı fəaliyyətin gücləndirilməsini təmin etməyə imkan yaradacaq.

“Azərsu” ASC-nin Hüquq departamentinin rəis müavini, Seçki Komissiyasının üzvü Yaşar Ağayev şuranın yaradılmasının hüquqi əsasları barədə məlumat verərək bildirib ki, İctimai Şura Səhmdar Cəmiyyətin fəaliyyət istiqamətləri üzrə hüquqi aktların qəbulunda, müvafiq fəaliyyət sahələrində ictimai nəzarətin təşkilində vətəndaş cəmiyyəti institutlarının iştirakını təmin edəcək.

Komissiyada təmsil olunan vətəndaş cəmiyyətinin üzvləri qeyd etdilər ki, “Azərsu” ASC-də yaradılacaq İctimai Şura içməli su təchizatı və tullantı su sektorunda müxtəlif məsələlərlə bağlı müzakirələr təşkil etmək, müvafiq sahədə dövlət siyasətinin həyata keçirilməsi ilə bağlı təkliflər vermək və qanunvericiliklə müəyyən edilmiş hüquqlara malik olan məşvərətçi qurum kimi fəaliyyət göstərəcək.

İclasda təşkilati məsələlərə baxılıb. “Azərsu” ASC-nin Hüquq departamentinin rəis müavini Yaşar Ağayev seçki komissiyasının sədri, Sosial inkişaf şöbəsinin aparıcı mühəndisi Günay Məmmədli katib seçilib. “İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının Qanununa və Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş “İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə”yə uyğun olaraq şura üzvləri 11 nəfər olmaqla 2 il müddətinə seçiləcək. Şura üzvlüyünə namizədliyin irəli sürülməsi və qeydə alınması prosesi 01-30 aprel 2021-ci il tarixinlərində aparılacaq.

Vətəndaş cəmiyyəti institutlarından ictimai şuranın üzvlüyünə irəli sürülən namizəd barədə aşağıdakı sənədləri təqdim etmələri xahiş olunur:

- Namizədin şəxsiyyət vəsiqəsinin surəti; - Namizədin tərcümeyi-halı; - Namizəd hər hansı bir vətəndaş cəmiyyəti institutunun üzvü olduğu halda həmin üzvlüyü təsdiq edən sənədin surəti; - Şəxsin müvafiq sahə üzrə təcrübəyə və ya biliyə malik olmasını sübut edən sənəd.

İctimai Şuraya namizədliyi irəli sürmüş şəxsin qeydiyyatına Seçki Komissiyası tərəfindən 3 iş günü müddətində baxılacaq və müvafiq qərar qəbul ediləcək.

İctimai Şuraya seçkilər namizədlərin irəli sürülməsi və qeydiyyat prosesi başa çatdıqdan sonra 1 ay müddətində keçiriləcək.

İctimai Şura üzvlüyünə namizədlərin irəli sürəcək şəxslərdən tələb olunan sənədlərin surətini anar.cabrayilli@azersu.az elektron ünvanına göndərmələri xahiş olunur.

Əlaqələndirici şəxs: Anar Cəbrayıllı, “Azərsu” ASC-nin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, İctimai Şuraya seçkilərin təşkili məqsədilə yaradılmış Seçki Komissiyasının üzvü.

Tel: (+99 412) 430-04-43.

# Səlcuk Bayraktarın Bakıya gəlişinin strateji hədəfləri...

***Qarabağ müharibəsinin və dünya müharibə strategiyasının seyrini dəyişən “Bayraktar”ların yaradıcısı Səlcuk Bayraktarın Bakıya gəlişi diqqəti iki məqama yönəldir:***

- 44 günlük müharibədən sonra Bakıya səfər edən Bayraktarın çantasında hansı layihə var?

- Səfərin Türk Şurasının Zirvə toplantısının keçirildiyi gün gerçəkləşməsi təsadüfdürmü?

Təsadüf deyil və istisna deyil ki, Azərbaycan paytaxtında böyük layihələrin təməli atılır.

a) PUA-ların istehsalı məqsədilə Türkiyə-Azərbaycan ortaq mərkəzinin yaradılması: bu, Azərbaycanın müdafiə sənayesinin inkişafına dəstəklə yanaşı, ordumuzun ehtiyacı olan pilotsuz uçuş aparatlarının daşınması ilə bağlı yarana biləcək risklərin də önlənməsi məqsədi daşıya bilər; Azərbaycan-İsrail hərbi əməkdaşlığında belə bir təcrübə var.

b) Bakıda yaradıla biləcək pilotsuz uçuş aparatlarının istehsalı mərkəzi türk dünyasının gələcək hərbi strategiyasının bir hissəsidir: Bayraktarın Zirvə toplantısı ilə eyni gündə gəlişi bu ehtimalı gücləndirir.

“Türk Şurasının 2020-2025 strategiyası” hazırlanır və türkdilli ölkələrin hərbi əməkdaşlığının dərinləşdirilməsi prioritet istiqamətlərdəndir:

bu strategiyada türkdilli ölkələrin ordusunun və döyüş taktikasının dövrün tələbinə uyğun qurulması addımları atıla bilər, Qarabağda 44 günlük müharibə belə zərurəti bütün dünya üçün yaratdı;



Azərbaycan artıq ordunun Türkiyə təcrübəsinə əsasən qurulması istiqamətdə proseslərə start verib, Türkiyə ilə hərbi saziş bağlayan Qazaxıstan və Özbəkistanda da eyni proseslərin olacağını görə bilərik;

Qarabağ müharibəsi müasir döyüş taktikasında PUA-ların əhəmiyyətini göstərdi və istisna deyil ki, Bakıda yaradıla biləcək ortaq istehsal mərkəzi türk dünyasının hərbi arsenalının bu texnikaya olan ehtiyacının ödənilməsini həyata keçirəcək.

Yer olaraq Bakının seçilməsi daşımalarda yarana biləcək risklərə alternativ marşrutun yaradılmasına hesablanıb.

Türkiyədən Azərbaycana və Mərkəzi Asiyaya çıxış üçün əsas marşrut hava yoludur. Zəngəzur dəhlizinin açılması prosesi gedir, lakin təhlükəsizliyini rusların təmin edəcəyi bu dəhlizdən hərbi yüklərin keçidi də həmişə münasib olmaya bilər. Bu baxımdan, Bakıda ortaq istehsal mərkəzi yaradılarsa, yüklərin Mərkəzi Asiya ölkələrinə alternativ marşrutla - dəniz yolu ilə çatdırılması imkanı yaranar və daşımalarda önəmli olan məsafənin yaxınlığı faktoru da var.

Proseslərin inkişafı həm də Bakının türk dünyasının mərkəzi olma perspektivi istiqamətindədir.

***Asif Nərimanlı***

# Amerikalı virusoloq: “AstraZeneca” təhlükəsiz və effektivdir

***Məlum olduğu kimi, bəzi Avropa ölkələrində peyvənd edilən xəstələrdə qan laxtalanması özünü göstərdiyi üçün “AstraZeneca”nın keyfiyyətinə şübhələr yaranıb və bu peyvəndin istifadəsi dayandırılıb. İlk belə qərarı Avstriya verib. Ardınca Bolqarıstan, Almaniya, Danimarka, İrlandiya, İslandiya, İspaniya, İtaliya, Niderland, Norveç, Rumıniya və Fransa bu addımı atıb.***

Daha sonra Avropa ölkələri tədricən “AstraZeneca” ilə peyvəndlənməni bərpa etməyə başlayıblar.

Bəs “AstraZeneca” nə dərəcədə təhlükəsizdir, bu vaksinin qan laxtalanmasına səbəb olmasına dair dəlillər varmı?

Nyu-York Universitetinin Qlobal Xalq Sağlamlığı Kollecinin biologiya və sinir elmləri bölməsinin dosenti Kerol Şoşkes Reyss mövzu ilə bağlı Azvision.az-ın suallarını cavablandırıb.

Onun sözlərinə görə, dünyada yüz minlərlə insana SARS-CoV-2 əleyhinə ChAdOx peyvəndi vurulub:

“Anladığım qədər peyvəndi qəbul edən, lakin qan laxtalanması eyni olmayan 25 nəfərdən kiçik bir qrup var. Oxuduğum məlumatlara əsasən, bu insanlar eyni vaksin par-



tiyası ilə peyvəndlənmiş ola bilər. Ancaq peyvənddən hansı müddət sonra bu şəxslərdə simptomların ortaya çıxması və bunun inyeksiya ilə birbaşa və ya dolayı əlaqəsinin olub-olmadığı mənə məlum deyil. Ona görə də simptomların birinci və ya ikinci dozanın alınmasından sonra inkişaf edib-etmədiyini bilmək çox vacibdir.

Bundan əlavə, birinci və ikinci inyeksiya arasındakı fasilə, insanların sağlamlıq vəziyyəti barədə məlumatın olması zəruridir.

Peyvəndin bu günə qədər yüz minlərlə insana təhlükəsiz şəkildə tətbiq edildiyini nəzərə alaraq, mən onun təhlükəsiz olduğunu və narahatlıq üçün heç bir əsasın olmadığını hesab edirəm”.

Amerikalı mütəxəssis qeyd edib ki, Rusiyanın “Sputnik V” vaksini digər xəstəliklərin müalicəsində istifadə olunan adenovirus vektoru ilə peyvəndlənmə üçün çox yaxşı reputasiyaya sahib olan J&J Jansen və AZ ChAdOx peyvəndlərinə çox oxşardır. Bunların da geniş hüquqi-normativ tənzimləmə bazası var.

Amerikalı virusoloq koronavirusun hələ də ciddi təhdid olduğunu diqqətə çatdırıb:“Bəli, bu, ciddi bir təhdiddir. Peyvəndlənmə əsas vasitələrdən biridir. Amma maska taxmaq, sosial məsafəni qorumaq, küçəyə çıxan insanlarla bağlı məhdudlaşdırıcı tədbirlər və test analizləri aparmaq da vacibdir. Peyvəndlər vacibdir, lakin onlar bütün dünyada geniş yayılmalıdır. Çox güman ki, gələcəkdə daha çox vaksinə ehtiyac olacaqdır”.

Qeyd edək ki, Azərbaycana koronavirus əleyhinə 432 000 doza ”AstraZeneca” peyvəndinin gətirilməsi gözlənilir. İlkin mərhələdə ölkəmizə aprelin 5-də Koreyadan “AztraZeneca” şirkətinə məxsus 84 000 doza vaksin göndəriləcək. Eləcə də, 8 həftə ərzində Azərbaycana 218 790 doza “Pfizer-BioNTech” vaksinləri ayrılacaq.

# Heydər Əliyevin tərcüməçisi - Livan prezidentini təəccübləndirən azərbaycanlı diplomat





**Bu dünya bir pəncərədir,**
**Hər gələn baxar keçər...**

O da dünya adlı pəncərədən baxıb özü ilə bir dünya bilgi, savad, elm apararaq getdi...

Vətənini, xalqını, peşəsini sonsuz dərəcədə sevən sözün əsl mənasında peşəkar diplomat idi Azər Abbas!

Azərbaycana layiqli vətəndaşın ölümündən 1 il ötür...

Azər Abbas 1963-cü il Bakı şəhərində ziyalı ailəsində doğulmuşdu. Bakı şəhəri 20 saylı məktəbin rus bölümünü bitirib, 1981-ci il BDU-nın Şərqşünaslıq fakultəsinin ərəb dili bölümünə daxil olub. Və oranı fərqlənmə diplomu ilə, professor Ə. Məmmədovun ən sevimli tələbəsi kimi bitirib.

Tələbəlik illərində 1 il Yəmən Ərəb Respublikasında praktikada olub. Universiteti bitirdikdən sonra İraq Ərəb Respublikasında keçmiş SSRİ-nin tərkibində hərbi tərcüməçi kimi fəaliyyət göstərib. Və çox qısa bir müddətdə bilik və bacarığı ilə ön sıraya çəkilib, ən çətin tərcümələrə cəlb olunub. O, uzaq illərdən bu günə qədər qorunub qalan dostlarından biri, Rusiya XİN-in diplomatı V.Dembitckinin dediyi kimi "Azərin xarakterindəki ciddilik, yüksək dil bacarəğı bizim hər birimiz marağına səbəb olurdu və onun yanında olmağı özümüzə şərəf bilirdik".

O zamanlar tələbələr xaricə ezam olunmazdan öncə Moskvada xüsusi imtahanın komissiyasından keçirdilər. Onu iki dəqiqə dinləyən komissiya üzvləri "otur və bizimlə birlikdə imtahanı sən də götürəcəksən!" söyləmişdilər.

Bu gənc tərcüməçinin keşməkeşli peşə yolunda ilk addımları idi...

Amma onun ürəyinin dərinliyində gənclik illərindən yatıb qalan bir arzusu var idi, diplomat olmaq!

Sonralar 26 illik diplomatik fəaliyyətində hər dəfə zorluqlar, çətinliklərlə rastlaşdıqda deyirdi : "Mənə güc verən mənim bu peşəyə sevərək, arzulayaraq gəlməyimdir. Yoxsa mən bu təzyiqlərə çətin dözərdim!" .

1991-94 cü illərdə İraqın Bakıdakı səfirliyində tərcüməçi kimi çalışıb. 1994-cü ildən Azərbaycan Xarici İşlər Nazirliyində işə başlayıb və 26 illik bir yol keçib...

Uzun illər sinxron tərcüməçi və diplomat fəaliyyətinə dayanaraq Yəmən, İraq, Misir, Qətər, Mərakeş kimi dövlətlərdə çalışıb. Ərəb ölkələrinin daxili durumunu, siyasətini dərindən öyrənib-bilən Azər Abbas hər zaman Azərbaycan və Ərəb ölkələri arasında münasibətlər qurmaq imkanlarının böyük və sonsuz olduğunu vurğulayıb.

Onun yüksək dil qabiliyyəti müsahiblərini çaşdırırdı, "doğru söylə, sən həqiqətən qeyri-ərəbsən?" kimi suallar verirdilər. Buna bənzər hadisə dövlət səviyyəli görüşlərin birində də baş vermişdi. Keçmiş xarici işlər naziri Həsən Həsənovun Suriya-Livan səfəri zamanı, Livan prezidenti danışıqları kəsərək, üzünü bu gənc diplomata tutaraq, "siz ərəbsiniz?" deyə soruşmuş və onun gözəl nitqinə heyran qaldığını bir neçə dəfə vurğulamışdı.

Bacarıqlı diplomata 1994-1999 cu illər Ümummilli liderimiz Heydər Əliyevin tərcüməçisi olmaq kimi missiya verilmişdi. Və bunun ardından 2004-2007 və 2007-2009-cu illərdə Prezident İlham Əliyevin tərcüməçisi olmuşdu.

Azər Abbas 2009-cu ildə Suriya dövlətinin prezidenti Bəşər Əsədin Azərbaycana səfəri zamanı müasir Azərbaycanın tarixində ilk dəfə Azərbaycan və Ərəb dillərinin sinxron təcüməsini yerinə yetirmişdi.

Azər Abbas olduğu ölkələrin televiziya və qəzetlərinə dəfələrlə dəvət almış və geniş auditoriyanı Azərbaycan dövlətinin tarixi,mədəniyyəti haqqında bilgiləndirmişdir.

Azər Abbas özündə diplomatlara lazım olan bir çox xüsusiyyətlərə malik idi. Öncəliklə dil baryeri yox idi. Azərbaycan, Rus, Ərəb və İngilis dillərində yüksək səviyyədə danışırdı və yazırdı. Çox səbrli, susmağı bacaran bir insan idi. Çox zaman diplomatlara bir neçə dildə susmağı bacaran insanlar deyirlər, Azər Abbas məhz belə insan idi!

Çox mübariz, qorxmaz və nəfsinə sahib bir insan idi. Vətəninin, dövlətinin adına kölgə sala biləcək nə isə bir şey gördükdə çox qəzəblənər və vəzifəsindən asılı olmayaraq belə insanlar onun gözündə sıfıra enərdilər.

Onun tez-tez söylədiyi sözlərdən biridə bu idi: "Biz diplomatlar olduğumuz hər bir ölkədə bir fərd deyil, vətənimizik, Azərbaycanıq! Bizim ölkəmiz ilə tanışlıq ilk növbədə biz diplomatlarla tanışlıqdan başlayır. Və olduğumuz dövlətlərdə davranışlarımız çox həssas xarakter daşımalıdır!".

O öz ölkəsini sevdirə bilən diplomatlardan idi! Güclü yumor qabiliyyəti onun qurduğu münasibətlərdə bir açar kimi insanların ürəyinə yol açır, üzlərinə gülüş gətirirdi.

Ötən illər ərzində bir çox dövlət adamlarının Ərəb ölkələrinə səfərində diplomat-tərcüməçi kimi iştirak etmişdi.

Onun siyasi analitik materialları XİN daxili aylıq jurnalda tez tez çap edilirdi.

Hər kəsin bir tale yazısı var deyiblər. Azər Abbasın da yazısında vətəndən uzaqda, ona güc-qüvvət verən sevimli peşəsinin ağuşunda qəfil ürəktutmasından bu dünyadan köçmək var imiş.

Mahir dilşünas və peşəkar diplomat, siyasi analitik, eyni zamanda gözəl ailə başçısı, 3 övlad atası idi.

Həmin ağır günlərdə Azər Abbasın ailəsinə ünvanlanan başsağlığında deyildiyi kimi:

"İnsan var ki evdən gedər. İnsan var ki eldən gedər".

Azər öz mədəni dünyası, savadı və bacarığı, peşəkarlığı ilə eldən gedən oğullardandır.

Allah məkanını cənnət eləsin!

***Ruhu şad olsun!***

# Azərbaycanın Ermənistanla sərhədində yeni hərbi hissəsi fəaliyyətə başladı

***Azərbaycan Respublikasınınərazi bütövlüyü təmin edildikdən və Ermənistan Respublikası ilə dövlət sərhədləri işğaldan azad olunduqdan sonra Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən bu ərazilərdə sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması üzrə tədbirlər davam etdirilir.***

Dövlət Sərhəd Xidmətindən "Unikal"a verilən məlumata görə, aprelin 1-də Qubadlı rayonu ərazisində Ermənistanla dövlət sərhədində yeni hərbi hissə xidməti-döyüş fəaliyyətinə başlayıb.

Bununla əlaqədar təşkil olunmuş mərasimdə Dövlət Sərhəd Xidməti rəisinin birinci müavini general-leytenant Rəşad Sadiqov çıxış edərək Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbrikini şəxsi heyətə çatdırıb.

Çıxışda Vətən Müharibəsində düşmən üzərində tarixi qələbənin əldə olunmasında Azərbaycan sərhədçilərinin şərəflə iştirak etmələri və qarşıya qoyulmuş döyüş tapşırıqlarını ən yüksək səviyyədə yerinə yetirmələri, dövlət sərhədlərimizin işğaldan azad olunmasından sonra qısa müddət ərzində bu ərazilərdə sərhəd mühafizə bölmələrinin xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkilinin böyük əhəmiyyət kəsb etməsi qeyd olunub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dövlət sərhədlərimizin mühafizəsinə göstərdiyi yüksək etimadı doğrultmaq üçün səy və bacarıqlarını əsirgəməyən Azərbaycan sərhədçilərinin düşmən tapdağından azad olunmuş müqəddəs sərhədlərimizin toxunulmazlığının təmin edilməsi vəzifəsinin öhdəsindən də layiqincə gələcəklərinə əminlik ifadə olunub.

Yeni hərbi hissə kompleksinin açılışını bildirən rəmzi lent kəsildikdən sonra tədbir iştirakçıları hərbi hissənin şəxsi heyətinin xidməti-döyüş fəaliyyətinin təşkili üçün yaradılmış şəraitlə tanış olmuş, o cümlədən xidməti otaqlara, kazarma və yeməkxanaya, hamam-camaşırxana kompleksinə, anbar, silah və texniki vasitələrə, avtomobil texnikasına baxış keçirmişlər. Kompleks daimi işıq və istilik sistemi, zəruri avadanlıqlar, mebel və məişət əşyaları ilə təmin edilib.

Tədbirin sonunda xidməti fəaliyyətində yüksək nəticələr göstərmiş hərbi qulluqçular təltif olunublar.

# Azərbaycana yenidən yarım milyon doza peyvənd gətirildi

***Çindən Azərbaycana koronavirus əleyhinə daha 500 min doza vaksin gətirilib.***

Çinin "SinoVac" şirkətinin istehsal etdiyi 500 min doza "CoronoVAC" peyvəndini gətirən təyyarə Heydər Əliyev Beynəlxalq Hava Limanında enib.

Azəbaycan ilə Çin arasında ənənəvi yüksək səviyyəli əlaqələr mövcuddur. Bunu Çinin Azərbaycandakı səfiri Qo Min koronavirusa qarşı növbəti partiya vaksinin Çindən Azərbaycana gətirilməsi mərasimində deyib.

Səfir bildirib ki, koronavirusa qarşı mübarizədə Çin və Azərbaycan bir-birinə lazımi dəstək göstərir, təcrübə mübadiləsi aparır: "Bir neçə gündən sonra digər vaksin partiyaları da Azərbaycana çatdırılacaq. Biz inanrıq ki, Azərbaycan Çin vaksinlərinin köməyi ilə koronavirusa qalib gələcək".

Səfir Çindən Azərbaycana vaksinlərin vaxtında çatdırılacağını deyib: "Bu gün Çindən vaksin sifariş edən ölkələr çoxdur, lakin məhz Azərbaycana vaksinlərin vaxtında çatdırılması üçün Çin yaşıl dəhliz yaradıb".

Qeyd edək ki, Çinin "Sinovac" şirkətinin istehsalı olan 4 milyon doza "CoronaVac" vaksininin Azərbaycana gətirilməsinə dair razılıq əldə olunub.

# Lələ Təpə FATEHİ

***Elə bil bu dünya sənsizliyə qərq olub. Hər yerdən sənsizlik boylanır. Hər kəsin gözlərindən sənsizlik tökülür. Artıq 5 il ötməsinə baxmayaraq bu sənsizlik ilk günkü kimidir. Ürək sənsizliyin ilk toxunuşunda necə titrəmişdisə hələ də eyni titrəyir. Hələ bəzi xəyallar ki, var bax ən çox onlar düçar olub sənsizliyə. Səni sənsiz yaşadan xəyallar. Sanki bir nəfəs kimi yaxın olduğun xəyalların qanadları bir anda qırılır və bir daş məzara çırpılır. O an bütün cahanı sən adlı sənsizlik bürüyür Rasim...***

Əslində sən doğulduğun gün 1977-ci ilin 20 mayında vətənə pənah olmuşdun. O zaman heç kim bunun fərqində olmasa da qısa müddət sonra əqidənlə sən bunu aşkara çıxardın. Fərqliliyinlə fərqləndin. Bir az da ailənin qəhrəmanlarına bənzəyirdin. Axı böyüdüyün ailə qəhrəmanlar ailəsi idi. Atanın, əminin ürəyindəki vətən eşqi ürəyinə, gözlərindəki intiqam qığılcımı isə gözlərinə sıçramışdı. 1983-1994-cü illərdə Cəhri kənd orta məktəbində oxuyan şagirdlər arasında vətənin işıqlı sabahı olacağın heç kimə sirr deyildi. Çünki sən bir qəhrəman oğlu idin. O qəhrəmanın isə düşməndən alınacaq qisası var idi. Bir də düşmən tapdağında olan torpaqlar. Bir qazi oğlu vətən torpaqlarının düşmən tapdağında olmağına razı olarmı? Xeyir!

Sən sonunu bildiyin yolu getməkdə qərarlı idin. Çünki o yolun yolçusu olan atan Əbdül Məmmədov gözlərinin önündə idi. Yaxşı bilirdin ki, vətən yolunun gedənlərin son dayanacağı ya şəhadətdir ya da şəhadətin bir addımlığından dönülən qazilik. Bu gerçəyi bilərəkdən 1996-cı ildə Bakı Ali Birləşmiş Komandirlər Məktəbinə addım atdın.2000-ci ildə həmin məktəbi tank qoşunları komandiri ixtisası üzrə bitirdikdən sonra Müdafiə Nazirliyinin əmri ilə hərbi xidmətini N saylı hərbi hissədə davam etdirdin. Sən artıq bir Leytenant Rasim Məmmədov idin. Ancaq hələ gedəcək yolun uzun idi. 2000-ci ildən 2001-ci ilə qədər N saylı hərbi hissədə "təlim taborunun tuşlayıcı tağımının komandiri, 2001-ci ildən 2002-ci ilə qədər isə həmin hərbi hissədə "təlim döyüş tankları" tağımının komandiri vəzifələrində çalışdın. 2002-ci ildə Müdafiə Naziri Səfər Əbiyevin əmri ilə baş leytenant rütbəsi aldın. Həmin ildən 2005-ci ilə qədər N saylı hərbi hissədə "tank" tağımının komandiri vəzifəsində çalışdın. Baş leytenant rütbəsi aldıqdan 3 il sonra, 2005-ci ildə kapitan rütbəsi aldın və N saylı hərbi hissədə Mexanikləşdirilmiş bölük komandiri vəzifəsində çalışdın. Ötən zamanla bərabər bir hərbçi kimi püxtələşdin. Körpəlikdən könül verdiyin vətəninə sevərək xidmət etməyin çətinliyi gözlərinə görünmürdü. Axı sevənlər sevdiyi uğrunda ölümə belə gedərlər. 2007-ci ildən 2010-cu ilə qədər Motoatıcı Taborun Qərargah rəisinin Maddi Texniki Təminat üzrə köməkçisi, 2010-cu ildən 2011-ci ilə qədər isə həmin Motoatıcı Taborun rəisi vəzifəsində çalışdın. Daha sonra bir müddət digər hərbi hissənin Motoatıcı Taborun Qərargah rəisi kimi xidmət etdin. 2011-ci ildə Müdafiə Naziri Səfər Əbiyevin əmri ilə mayor rütbəsinə yüksəldin. Ancaq yüksələcəyin ən böyük rütbə hələ qabaqda idi. 2011-ci ildən 2012-ci ilə qədər N saylı hərbi hissədə Motoatıcı Taborun komandirinin müavini, 2012-ci ildən 2014-cü ilə qədər isə həmin hərbi hissədə Motoatıcı Taborun komandiri vəzifəsində çalışdıqdan sonra, 2014-cü ildən 2015-ci ilə qədər həmin hərbi hissənin 2-ci Motoatıcı Taborun komandiri kimi xidmət etdin.18 aprel 2015-ci ildən, şəhid olduğun günə qədər isə N saylı hərbi hissədə Motoatıcı Taborun komandiri vəzifəsində çalışdın.

Ömrünün hər anından vətən boyda ümid boylanırdı vətənə. İki əlli tutduğun vətənin yolunda irəlilədikcə sevdiklərindən uzağa düşürdün. Addım-addım uzaqlaşırdın. Məsafələr dərinləşir, kəskinləşirdi. Bəzən həsrətin sevənlərinin ürəyinə toxunurdu. Ancaq bir gəlişinlə qışdan sonra gələn bahar kimi çöhrələrə gülüş bəxş edərdin, yazda qoxan torpaq kimi qoxardın vətən oğlu. Nazilə ana səndən övlad qoxusu duyardı, Qazi Əbdülsə həsrət qaldığı torpaqların qoxusun. Bir gün o həsrətli torpaqların, Qarabağın torpağını gətirəcəyin arzusu ilə yaşayırdı səni sevənlər. Elə də oldu. Bir zaman sən torpaq qoxurdun, indi isə torpaq sən qoxur. Qoxunu duydum şəhid. Lələ təpə torpağına hopan qanının qoxusunu...

Əbəs yerə Lələ təpə fatehi deyilmir sənə. Sən o torpağı fəth edən qəhrəman kimi tarixin yaddaşına həkk olunmasın Rasim Məmmədov.

2016 - cı ilin aprel ayında tarixin toz tutan səhifələrini igidlər qan ilə yudular. Vətən yollarına şəhidlər qan, şəhid anaları göz yaşı çilədi. O yolların bir çox yolçuları dönüşlərində azad olan torpaqlarda ucalan bayraqların əksi düşən tabutlarda döndülər. Sənin kimi...

Dönüşün duruşun kimi əsalətindən xəbər verirdi. Zarafat deyil illərdən sonra düşmən tapdağından torpaq azad etmək. Azadlığa gedən yoldan bəhs olunan "Aprel zəfəri" adlı qəhrəmanlıq dastanının ilk səhifəsini qanı ilə yazan şəhidlərdən biri kimi tarixdə qaldın. Sən qalib kimi döndün. Şanına yaraşdı ucaltdığın bayraq. İllərdi addım ata bilməyən atan bayraqlı tabutunun önündə məğrur durdu. İllər öncə Sədərəkdə məğrur duruşu ilə göz oxşayan hərbçi indi şəhid atası kimi məğrur duruşu ilə göz oxşadı. Ürəyindən qopan o teli bəlli etmədi kimsəyə. Əslində həmin gün ruhu yaşamdan ayrıldı cismi günlər sonra yaşamdan ayrılan şəhid atasının.

Qardaşların Aslan, Şahin və Etibar şəhadətinin alovu ilə yanan ürəklərinə əmanətlərinin göz yaşlarını çilədilər. Bu həsrətin küləyi nə qədər sərt əsə də qardaşlar bir-birinə tutunub ayaqda qalmağı bacardılar. Axı onlar şəhid qardaşlarıdır.O adı qürurla daşıdılar.

Həmin gün qanınla boyanan şanlı bayraq övladlarının göz yaşları ilə islandı. Onlar atasızlıq adında sonu görünməyən bir yola ilk addım atdılar. Ürəyi sevginlə döyünən yarın həmin gün sənsizliyə düçar oldu.

Aprelin 4-dən 5-nə keçən gecə sanki Naxçıvanın gözlərinin yuxusu ərşə çəkilmişdi. Bütün naxçıvanlılar qəhrəmanının gələn yollarına düzülmüşdü. Hər kəs qalibiyyətin dərilən çiçəyinə gözlərindən səhər jaləsi pay verməyə çalışırdı. Vətəndaşlar son dəfə sevgi seli ilə şəhidini son mənzilə yola saldılar. Əslində isə 5 aprel günü sənin cismin torpağa tapşırılsa da adın ürəklərdə əbədi yazıldı.

Həsrətinə atan kimi dözməyib cənnətinə tələsənlərdə oldu, bu dünyada sənsizliyə qərq olanlar da...

Vətənə elə layiqli xidmət etdin ki, ilk öncə əsgərlərin, zabitlərin, rəğbətini qazandın. Daha sonra xidmətin ölkə başçısı İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 İlliyi" yubiley medalı, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" yubiley medalı, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)" yubiley medallarına layiq görüldün. Şəhadətə ucaldığın gün ən ali mükafatı qazandın və şəhadətindən sonra "Qüsursuz xidmətə görə " 2-ci dərəcəli medalı və "Vətən uğrunda" medalına layiq görüldün.

Şəhadət ən böyük arzun olsa da Qarabağı tam azad etdikdən sonra şəhadətə ucalmaq arzusunda idin. Ancaq sən Qarabağa gedən yoldakı ən aşılmaz səddi aşdın və şəhid oldun. Sayəndə 5 il öncə Lələ təpə yüksəkliyinə sancılan bayraq hər əsintisində Azərbaycan ordusunda qalibiyyət əzmini daha da artırdı. Həmin o əzmin gücündən 2020-ci ildə zəfər doğdu. Azərbaycan ordusu sənin və sənin kimi minlərlə oğulların intiqamını alıb, Qarabağın vətən həsrətli üreyində bayraq ucaltdı.



### ŞƏHİD RASİM

**Sənin məzarından vətənin əksi,**
**Görünür hər Günəş qürub edəndə.**
**Gecənin sükutu susub dinləyir,**
**Susmuş rəsimlərin dilə gələndə.**

**Bu susmuş daş məzar dil açıb deyir,**
**Vətənin qanayan yaralarından.**
**Sanki anaları xəbərdar edir,**
**Yaralı can verən balalarından.**

**Neçə əsgərinin son nəfəsində,**
**Sonuncu kəlməsin duymusan şəhid?!**
**Sən də son nəfəsi verdiyin zaman,**
**O son nəfəsinə kim oldu şahid?**

**Sən Lələtəpəyə sancdığın bayraq,**
**Zəfər sədasıyla hey dalğalanır.**
**Bu günkü zəfərin qalib ordusu,**
**Bütün şəhidləri rəhmətlə anır.**

**İlk zəfər sevincin siz yaşatdınız,**
**Dərdi tükənməyən uca millətə.**
**Rasim, öz ömrünü sən bəxş elədin,**
**Qəlbi dağlı olan bu məmləkətə.**

***MANYA SƏXAVƏTQIZI***

# İçkinin əlimizdən aldığı böyük Azərbaycan aktyoru - Maraqlı faktlar

***Dünən böyük aktyor, əməkdar artist Səməndər Rzayevin anım günü idi. Milli.Az Kulis.az-a istinadən bu münasibətlə aktyor haqqında maraqlı faktları təqdim edir.***

Səməndər Rzayev 2 yanvar 1945-ci ildə Ağsuda anadan olub. O, Ağsu rayonundakı dram dərnəyində fəaliyyət göstərib. 1964-cü ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə qəbul olub. Müəllimləri Rza Təhmasib, Mehdi Məmmədov, Adil İsgəndərov olublar. 1968-ci ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının truppasına Tofiq Kazımovun dəvəti ilə qəbul edilib. Onun ilk rolu Uilyam Şekspirin "Hamlet" tamaşasında Horatsio olub.

***

Səməndər çoxuşaqlı ailənin sonbeşiyi olub. Uşaqlıq illəri müharibədən sonrakı dövrlərə tuş gəldiyi üçün çox çətinliklə böyüyüb. Anası adının qısaldılmış formada Səməni - deyə çağırarmış.



Bir gün dostları ilə oynadığı zaman körpüdən sürüşüb üzüaşağı yuvarlanan Səməndər dizindən ağır zədə alır. Diz qapağı sınan uşaq düz dörd il xəstəxana, sonra isə ev şəraitində müalicə olunur.

***

Həmin dörd il onun üçün gələcək həyatının bünövrəsini qoyub. Hər gün radio tamaşaları, verilişləri dinləməkdən başqa əlacı olmayan Səməndər radiodan dinlədiyi "Arxip baba və Lyonka" radio-tamaşasındakı Arxipbaba rolunda Ələsgər Ələkbərovun səsini eşidib aktyor olmağa qərar verir.

Xəstə yatan zaman həkimlər Səməndərə deyirlər ki, ona kökəlmək lazımdır. Əgər kökəlməsə, ayaq sümüyü çürüyə bilər. Ondan sonra aktyor kökəlməyə başlayır. Amma köklük də ona ağırlıq gətirdiyindən həmişə zədəli ayağı ağrılı olur.

***

Gürcüstanın o vaxtkı dövlət başçısı Şevardnadze Səməndər Rzayevi çox sevərmiş, aktyor bir dəfə Tiflisdə qastrolda olarkən Şevardnadze əlini onun kürəyinə vuraraq "sən böyük aktyorsan" demişdi.

Qızı Rübabə Səməndərin dediyinə görə atasının çox gözəl şarjları, həcvləri vardı. Aktyor harda olsa, dəftərin, kağızın bir küncünə nəsə çəkirmiş. Rəhmətlik Mikayıl Mirzə Səməndər Rzayevin bu rəsmlərini ondan alır ki, haqqında yazacağı kitaba daxil etsin. Lakin, iş elə gətirir ki, Mikayıl Mirzənin evində yanğın baş verir, şarjlar da həmin yanğın zamanı tələf olur.

***

Səməndər Rzayev ömrünün son dövrlərində ruhdan düşür. Nə səhnədə, nə də kinoda potensialına uyğun rollarla özünü ifadə edə bilmirdi. Səməndər dolubədənli olduğu üçün çox vaxt ona yaşından böyük və bir-birinə oxşar obrazlar verirdilər. Vaqif Mustafayev aktyoru "Yaramaz" filmindəki Hətəm roluna çəkməyi planlaşdırsa da aktyorun qəfil ölümü bu planının həyata keçməsinə mane olur.

Xalq artisti Səfurə İbrahimova Səməndər öz müsahibələrinin birində Səməndər haqqında belə deyir: "Səməndər əla aktyor, əvəzolunmaz insan və fitri istedad sahibi idi. Çox yumşaq, həlim oğlanıydı. Rasim Balayevə xalq artisti adı verdilər, ona yox. Səməndər fikirdən o günə düşdü. Bir gün işdən çıxıb evə gedəndə gördüm fikirli-fikirli teatrın həyətində başını tutub gəzir. Yaxınlaşıb çağırdım. O qədər fikirli idi ki, məni eşitmədi. Bir xeyli onu danladım, dedim, sən böyük aktyorsan, insanlar səni sevir, dərdin olanda da üzə vurma, içində çək. Mənə dedi ki, axı bu elə işdir ki, mənə toxunur. Rasim gözəl aktyordur, amma onu teatra mən gətirmişəm, lazım gələndə onunla mən məşq eləmişəm. Bəs niyə ona məndən qabaq ad verilir, amma mənə yox. Ona təskinlik verdim, özümü misal çəkdim. Çünki mənim adımı da on il əvvəldən xalq artistliyinə versələr də, hər il siyahıdan silirdilər."

***

Yeriyəndə yer silkələnən, danışanda gözləri ilə lərzəyə salan Səməndərin səhhətində bir müddət sonra problemlər yaranmağa başlayır. Aktyor o qədər arıqlayır ki, onu görənlər təəccüblənir. Deyilənə görə içkidən çox istifadə etməsi onu qara ciyər xəstəsinə çevirir. Həkimlər də ona serroz diaqnozu qoyub.

***

Xəstə olsa da teatrdakı rollarından qalmayan aktyor günlərin birində "Sizi deyib gəlmişəm" tamaşasında Xudayar bəyi oynayır. Tamaşa vaxtı aktyorun halı gözlənilmədən pisləşir. Tərəf müqabili Səidə Quliyeva danışır ki, tamaşanın bir hissəsində səhnədə mən Səməndəri sillə ilə vururdum: "Həmin yer gələndə Səməndər yavaşca pıçıldadı ki, Səidə, ölürəm, yola ver, vursan, yıxılacam, halım pisdir. Tamaşadan sonra səhnə arxasından onu xəstəxanaya götürdülər, siması ağappaq, özü də büzüşmüşdü".

Qızı həmin günü belə xatırlayır: "Həmin günü mən yaxşı xatırlayıram. O, teatrdan evə gəldi, mən yatılı olsam da, onun səsini eşidib ayılmışdım. O, anama dedi ki, bu gün işdə "çepe" baş verib. Sən demə, tamaşa vaxtı onun ayaqları şişibmiş, ciyərində də güclü problem olub. Səhnədəki rola uyğun olaraq da səhnənin döşəməsində bir müddət uzanmalı olub. Vəziyyəti daha da pisləşib. Amma rolunu axıra qədər ifa etmişdi. Biz həmin günə qədər onun serroz olduğunu bilməmişdik. Ondan sonra öyrəndik."

***

Yanvarın 2-də ad gününü qeyd edən aktyor sonrakı gün xəstəxanaya aparılır. Bir müddət sonra xəstəxanada komaya düşür. Bir ay komada qaldıqdan sonra martın 27-də dünyasını dəyişir.

Xəstəliyinin son günlərində rejissor Ramiz Həsənoğlu xəstəxanaya Səməndərin yanına gedir. Onlar xeyli söhbət edirlər. Söhbətin sonunda Səməndər rus dilində belə deyir "Mne tak xoçetsa jit"... (Yaşamaq istəyirəm)

***

Qızı Rübabə müsahibələrinin birində atasının son günlərini və vəfatını belə xatırlayır: Atam xəstəxanada dünyasını dəyişdi. Qohumlarımız bizdə qalırdılar. Artıq hamı bilirdi ki, vəziyyəti pisdir. Yadıma gəlir ki, babam gəldi. Bizə dedi ki, sizi atanızın yanına aparacam. Bizi aldatmışdı. Binamızın qarşısında rəhmətlik Mikayıl Mirzəni gördük. O, babama başsağlığı verəndə biz bildik ki, atamız rəhmətə gedib. Təbii ki, şok yaşadıq. Sözün məcazi mənasında həmin an mənə elə gəldi ki, atamı sanki Mikayıl Mirzə öldürüb. Sonra evə qalxanda artıq atamın cənazəsini gördüm. Xahiş etdim ki, üzünü açsınlar, baxım. Amma icazə vermədilər. İndi düşünürəm ki, yaxşı ki, qoymayıblar. Çünki atam mənim yaddaşımda həmişə cavan, sağlam və xoşbəxt adam kimi qaldı."

Onun haqqında dövrünün ən böyük aktyorları belə deyirdilər. Məlik Dadaşov: "Səməndər kimi aktyorları tarix nadir hallarda yetirir. Bu, əsrdə bir dəfə mümkündür".

Nəsir Sadıqzadə: "Mən son onilliklərdə Səməndər dühasına bərabər bir sənətkar tanımıram".

Amaliya Pənahova: "Səməndər lap kiçik, sözsüz səhnələrdə belə salonun bütün diqqətini özünə cəmləşdirərdi. Və baş rolun ifaçıları qalardı kölgədə. Belə bir fitri istedad idi Səməndər".



## ICESCO-nun 14-cü Baş Konfransı Misirdə keçiriləcək

***Rabatda keçirilən İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatı (ICESCO) İcraiyyə Komitəsinin 41-si sessiyası başa çatıb.***

Təşkilatın mənzil-qərargahından AZƏRTAC-a bildiriblər ki, videokonfrans formatında keçirilən tədbirdə ICESCO-nun Baş Konfransının 14-cü və İcraiyyə Komitəsinin 42-ci sessiyasının bu ilin dekabrında Misirin paytaxtı Qahirədə keçirilməsi qərara alınıb.

İki gün davam edən sessiyada ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl Malik təşkilatın 2019-2020-ci illərdə fəaliyyətinin yekunları, yaxın illərdə həyata keçiriləcək layihələr, Nizamnaməyə dəyişikliklər, Gənc Peşəkarlar Proqramının layihəsi və maliyyə vəziyyəti barədə məlumat verib. O qeyd edib ki, təşkilatın xətti ilə İslam ölkələrinin nüfuzlu universitetlərində və mədəniyyət institutlarında elmi tədqiqatlar üzrə bölmələr açılacaq. Baş direktor diqqətə çatdırıb ki, bu məqsədlə Səudiyyə Ərəbistanının Kral Əbdüləziz Universiteti 500 min dollar vəsait ayırıb.

Yekunda ICESCO-ya üzv ölkələrin milli komitələrinin iştirakı ilə təşkilatın Baş Direktorluğunun hazırladığı bir neçə inzibati və hüquqi sənəd, habelə Milli Komitələrin Nizamnaməsinin layihəsi, ötən ilin yanvarında Əbu-Dabidə keçirilmiş 40-cı iclasında təqdimatı olmuş təşkilatın yeni strukturu təsdiq edilib.

## "Sənsiz" bədii qiraət müsabiqəsi

***Ölkə başçısının müvafiq Sərəncamı ilə elan edilən "Nizami Gəncəvi İli" çərçivəsində Mədəniyyət Nazirliyi tərəfindən müxtəlif layihə və tədbirlər nəzərdə tutulub.***

Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının təşkilatçılığı ilə keçiriləcək "Sənsiz" bədii qiraət müsabiqəsi də bu qəbildəndir.

Teatr Xadimləri İttifaqından verilən məlumata görə, müsabiqənin keçirilməsində əsas məqsəd milli mədəniyyət məkanında baş verən yaradıcılıq proseslərini fəallaşdırmaq, bədii qiraətə olan marağı artırmaq və yeni yaradıcılıq axtarışlarına şərait yaratmaqdır.

Qiraət yarışında iştirak etmək istəyənlər Nizami Gəncəvi yaradıcılığından ifa etdikləri nümunələrin videodiskini (xronometraj 10 dəqiqəyə qədər olmalıdır) aprelin 15-dək Azərbaycan Teatr Xadimləri İttifaqına təqdim edə bilərlər.

İştirakçılar üçün yaş məhdudiyyəti olmayan müsabiqəyə təqdim edilən nümunələr münsiflər tərəfindən seçiləcək və ilk üç yerin sahibi mükafatlandırılacaq.

# İmmunitet və onun növləri

***İmmun reaksiyalar mühafizəedici və uyğunlaşdırıcı xarakterlidir. Bu reaksiyalar sayəsində orqanizm xarici mühitdən daxil olan antigenlərdən təmizlənir və onun daxili mühitin sabitliyi mühafizə edilir. Orqanizmin özünəməxsus olan zülal maddələrin dəyişikliyə uğraması nəticəsində yaranan yad cisimlər immun reaksiyaların köməyi ilə zərərsizləşdirir. Bundan əlavə orqanizmdə eyni növlü canlılardan ibarət olan zülal maddələrə qarşı immun reaksiyalar müşahidə edilir. Bir orqanizmdən digərinə qan, toxuma və orqanlar köçürüldükdə bu cür arzuolunmaz reaksiyaya daha çox rast gəlinir.***

İmmunitetin əsas mexanizmlərindən biri orqanizmdə yoluxucu xəstəliklərin törədicilərinə əks-təsir göstərən anticisimciklər (immun cismlər) yaratmaqdan ibarətdir. Lakin bu anticismlər orqanizmdə yalnız qeyri-infeksion təbiətli yad cisimlərin təsiri ilə də əmələ gəlirlər. Onların fəaliyyəti nəticəsində orqanizmin daxili mühitinin sabitliyi təmin edilir. Bu xassələrinə əsasən immunitetə aşağıdakı tərif verilmişdir.

”İmmunitet orqanizmin infeksion və qeyri-infeksion təbiətli yad maddələrdən mühafizəetmə qabiliyyətidir”

İmmunitetin bir-neçə növü var:

* anadangəlmə immunitet
* nisbi immunitet
* qazanlma immunitet
* antimikrob immunitet
* antitoksik immunitet
* steril immunitet
* qeyri-steril immunitet.

Orqanizmdə immun reaksiyaların yaranma və inkişafı xüsusi hüceyrə və orqanlar sisteminin fəaliyyəti ilə əlaqədardır. Bu kompleks immun sistem adlanır.

İmmun reaksiyalar antigenin orqnizmə daxil olması ilə başlayır. Bu antigenin təkrar orqanizmə daxil olması ilə əlaqədar olaraq yenidən baş verə bilir. Buna təkrari immun reaksiyalar deyilir. Təkrari reaksiyalar zamanı, təkrar reaksiya əvvəlkindən ən azı 3 dəfə artıq olur.

# Havanın insan səhhətinə təsiri

***Alimlər havanın insan orqanizminə birbaşa təsiri olduğunu söyləyirlər. Xüsusən də xroniki xəstələr üçün havanın necə olacağını bilmək daha vacibdir. Çünki rütubətli və nəm hava xroniki xəstələrin ağrılarını artırır.***

İngilis alimləri on minlərlə könüllülərdən ibarət eksperiment keçirmişdir. Alimlər eksperimentdə iştirak edənlərin smartfonuna xüsusi proqram yükləmiş, xroniki xəstələrlə aktiv əlaqədə olaraq onların səhhəti ilə maraqlanmışdırlar. Eksperimentdə iştirak edənlər öz sağlamlıqları və orqanizmlərində baş verən patoloji hallar barədə hər gün həkimləri məlumatlandırmış və bəzi qərarlar qəbul etmişlər. Eksperiment yarım il boyu davam etdirilmiş və nəticələr smartfona qeyd edilərək həkimlərə göndərilmişdir.

Nəticələri yoxlayan mütəxəssislər isti günlərdə insanların özlərini gümrah, yağışlı və rütubətli havalarda isə narahat hiss etdiklərini öyrənmişlər. Belə ki, yağışlı və rütubətli havada insanların əksəriyyəti ağrılardan şikayət etmişdir.

Eksperimentin nəticələrinə əsaslanaraq mütəxəssislər belə bir çıxış etmişlər:

”Biz havanın insan orqanizminə təsir etdiyini bilirdik. Amma istərdik ki, insanlar canları ağrıyan zaman əmin olsunlar ki, bu heç də onların səhhəti ilə bağlı deyil. Qoy onlar bunun səbəbini bilsinlər və sağlamlıqlarına əmin olsullar. Havanın nə cür olmağından asılı olmasına baxmayaraq öz əhval-ruhiyyələrini yüksək tutsunlar”.

# Sistit - yaz mövsümünün aktual problemi



***Sirr deyil ki, yaz fəsli bir çox iltihabi xəstəliklərin baş qaldırması və xroniki proseslərin kəskinləşməsi dövrüdür. Sidik kisəsinin iltihabi xəstəliyi olan sistit də həmçinin istisna deyil. Məlumdur ki, bu dövrdə sistit ilə xəstələnmə halları başqa dövrlərə nisbətən daha artıq olur. Bu da orqanizmin ümumi müqavimətinin azalması fonunda patogen mikrofloranın aktivləşməsi ilə əlaqədardır.***

Sistit daha çox qadınlar arasında (80%) rast gəlinir, bu da onların sidik kanalının anatomik quruluşu ilə bağlıdır. İnfeksiya qısa sidik kanalından sidik-cinsiyyət sisteminə daha rahat keçərək iltiha bın yaranmasına səbəb olur. Statistikaya görə hər dörd qadından biri həyatı boyu 1 dəfə olsa da sistit lə xəstələnir. Kişilərdə bu patologiyaya daha az təsadüf olunur və yalnız 0,5% -də xroniki formaya keçir.

Sistitin yaranmasının əsas səbəbləri: Uroloqlar daha çox aşağıdakı səbəbləri göstərirlər: soyuqlama; ”qeyri-uyğun” geyimlər (soyuq mövsümə uyğun olmayan, yüngül geyimlər və ya dar, çanağı sıxan geyimlər); oturaq, az hərəkətli həyat tərzi; şəxsi, əsasən də cinsi gigiyena qaydalarına əməl olunmadıqda; hipovitaminozlar və müxtəlif səbəblərdən yaranan immun sistemin zəifliyi; sidiyi saxlamaq adəti; stress, yorğunluq, yuxusuzluq; menopauza, şəkərli diabet; yeməklərdə çox kəskin, acı ədviyyatlardan istifadə etmək, həmçinin çox qızardılmış yeməklərə üstünlük vermək.

Sistitin əsas əlamətləri: tez-tez və qırıq-qırıq sidiyə getmə; sidik ifrazı zamanı ağrı və göynəmə hissi; pis qoxulu, bulanıq sidik, bəzən sidikdə qan; beldə ağrılar; zəiflik və tez yorulma; temperaturun yüngül qalxması. Bəzən xəstələr bu xəstəliyə barmaqarası baxırlar, mütəxəssisə müraciət etmədən özünümüalicə ilə məşğul olurlar və bununla da xəstəliyin gedişini xroniki edirlər.

Sistitin profilaktikası üçün tövsiyyələr. İlk öncə yuxarıda sadalanan risk faktorlarından uzaq durmaq, gün ərzində 2 litrə qədər su içmək, çay və qəhvə qəbulunu azaltmaq, şəxsi gigiyena qaydalarına əməl etmək, mövsümə uyğun isti geyinmək, dar, çanağı sıxan geyimdən uzaq olmaq, kifayət qədər fiziki aktivliklə məşğul olmaq, vaxtında yatmaq.

Sistitin müalicəsi üçün ənənəvi olaraq antibakterial dərmanlar tətbiq olunur. Bununla belə sidikçıxarıcı yolların istənilən infeksiyalarının müalicəsində əsas məqsəd xəstəliyin xroniki formaya keçməsinin və residivlərin qarşısını almaqdır. Mütəmadi və nəzarətsiz olaraq antibiotiklərin qəbulu, xəstəliyə səbəb olan mikroblarda rezistentlik, yəni davamlılıq yarada bilər. Bu səbəbdən Avropa Uroloqlar Cəmiyyəti antibiotiklərlə müalicəni bitki mənşəli fitopreparatlarla kombinə etməyi məsləhət görür.

# Kişi bədəninin tüklənməsi barədə maraqlı faktlar



***Kişilərin bədəni hormonal sistemlərinin inkişafı ilə əlaqədar olaraq tüklü olur. Yetinkilk dövrlərindən sonra onların bədənlərinin müəyyən hissəsində sıx tüklər meydana gəlməyə başlayır. Bəzi moda jurnallarının səhifələrində bədəninin tüksüz olması ilə öyünən oğlanlardan fərqli olaraq bəzi oğlanlar bədənlərində olan tüklənmə ilə fəxr edirlər. Kişilərin tüklənməsi barədə hər şeyi bilirsinizmi?***

*** Ana bətnində tüklənmə**

Kişilərin bədənlərinin tüklənmə prosesi hələ ana bətnində olduğu zaman formalaşmağa başlayır. Tüklənmə oğlanların bütün bədən örtüyünü tutur, doğuşdan qısa bir müddət sonra bu tüklər tökülür. Ana bətnində əmələ gələn tüklər nazik və ətraf mühitə davamsız olduğuna görə qısa müddət ərzində tökülməyə məruz qalır.

*** Tüklərin növləri**

Zərif tüklər - bu cür tüklər zəif, dəriyə çox yaxın, rəngsiz və yumuşaq olur. Bu cür tüklər piy vəzilərinə və dərialtı toxumaya möhkəm yapışmış olmur.

Sərt tüklər - bu cür tüklər yetkinlik yaşlarında meydana gəlir və sərtliyi və dərialtı toxumaya möhkəm bağlılığı ilə zərif tüklərdən fərqlənir. Sərt tüklər piy toxumaları ilə bağlı olur və bədənin özünəməxsus iyinin olmasına səbəb olur.

*** Qadınların kişi tüklərinə münsibəti**

Qərb ölkələrində qadınlar kişilərin bədəninin az tüklü və sığallı olmasını daha məqbul sayırlar. Amma kişilərin sinələrində sığallı və bir-birinə qarşı meyilli tüklərin olması qadınlarda xoş təsir oyadır. Kişilərin kürək nahiyələrində olan tüklənməni isə qadınlar heç xoşlamırlar.

*** Hər tükün öz qoruyucusu var**

Yeniyetmə dövründə yumşaq tüklər tökülür və yerinə cod kişi cinsinə məxsus tüklər bitir. Bu tüklər piy vəziləri və piylər tərəfindən qorunur. Bu həm də dərinin və tük follikullarının bakteriyalardan qorunmsına səbəb olur. Çünki bakteriyalar nə qədər çox olarsa, bədənin iyi də bir o qədər çox olar.

*** Tüklərlə piylər bir-birini əvəz edir**

Bədənin tük çıxa bilən hissələrində piy toxumasının çox olması tüklərin sayının azalmasına səbəb olur.

*** Tüklər orqanizmdə 2 əsas rol oynayır**

Tüklərin də orqanizmdə özünəməxsus rolu vardır. Belə ki, soyuq havada tük örtüyü bədənin isti qalmasına, yayın istisində isə tərlədikdə bədənin sərin qalmasına səbəb olur.

*** Bədəndə olan tüklərin intellektlə əlaqəsi**

Amerika psixoloqu doktor Aykarakudi Alias 1996-cı ildə müxtəlif araşdırmalar apardıqdan sonra belə qənaətə gəlmişdir ki, insanın bədənində nə qədər tük çox olursa, onun intellekti bir o qədər artıq olur.

*** Tüklərin isti ilə əlaqəsi**

Mütəxəssislər yay aylarında tüklərin daha tez uzandığını söyləyirlər. Bundan başqa tüklərin uzanmasının androgenlərlə əlaqəsi olduğu da söylənilir. Bundan başqa mütəxəssislər tüklü kişi bədəninin qadınlar tərəfindən daha cazibədar göründüyünü qeyd edirlər.

# Dünya çempionatları tarixinin seçmə mərhələlərinin ümumi cədvəli

***Dünya çempionatları tarixinin seçmə mərhələlərinin ümumi cədvəli açıqlanıb.***

"Unikal" qəzetinin məlumatına görə, martda baş tutan qarşılaşmaların da əksini tapdığı siyahıda müxtəlif illərdə yarışda oynamış 215 milli komanda yer alıb.

Azərbaycan yığmasının da dünya çempionatlarındakı mövqeyi bəlli olub. DÇ-1998 çərçivəsində 1996-cı ildə debüt matçına çıxan millimiz tarixində 7-ci tsiklə başlayıb.

60 görüş keçirən komandamız 7 qələbə, 14 heç-heçə və 39 məğlubiyyətlə aktivinə ümumilikdə 35 xal yazıb. 30 top vuran futbolçularımız 107-ni buraxıb. Bu göstərici ilə millimiz dünya çempionatlarının 147-cisidir.



Azərbaycan yığmasından ön sıralarda Botsvana (36 xal), Banqladeş, Barbados, Fələstin (hərəsi 37 xal), Mozambik (38 xal), Vanuatu (39 xal) kimi qeyri-futbol ölkələri yer alıb.

Yığmamız Avropada yalnız 9 komandanı qabaqlayır. Bunlar Farer adaları (29 xal), Moldova, Lüksemburq (hər ikisi 28 xal), Malta (17 xal), Lixtenşteyn (12 xal), Andorra (9 xal), San-Marino (2 xal), Kosovo (1 xal) və Cəbəllütariq (0 xal) milliləridir.

Qeyd edək ki, cədvələ seçmə mərhələlərdə 376 xal toplayan Meksika başçılıq edir. Kosta-Rika 298 xalla ikinci, Avstraliya 294 xalla üçüncüdür.

# Vaqif Cavadov milli komandanı tənqid etdi

***Azərbaycan millisinin sabiq futbolçusu Vaqif Cavadov yığma komandanın oyunu ilə bağlı danışıb.***

"Unikal" qəzeti xəbər verir ki, V.Cavadov Millimizin DÇ-2022-nin seçmə mərhələsində Portuqaliya (0:1) və Serbiya (1:2), həmçinin yoldaşlıq görüşündə Qətərlə (1:2) oyununu tənqid edib:

"Portuqaliya ilə matçın birinci hissəsindəki mübarizəyə futbol deyə bilmərəm. İnanmıram ki, yığmamız tarix boyu indiyə qədər belə oyun göstərsin. Hətta 9 müdafiəçi ilə oynatdığı deyilərək tənqid olunan Foqtsun vaxtında belə, bu cür futbol olmamışdı. İkinci hissədəki dəyişikliklər və rəqibdəki arxayınlıq nəticəsində bizimkilər ümidverici çıxış etdilər. Qətərlə matç bunun əksi oldu. Bu dəfə ikinci hissə bərbad keçdi. Əsas heyətdə meydana çıxan Ramil Şeydayev qol da vurdu. Amma əgər baş məşqçisənsə onun fiziki durumuna da bələd olmalısan. Fasilədə Ramili əvəzləmək lazım idi. Axı bilirsən ki, onun 85 dəqiqəlik gücü yoxdur. Fiziki gücünə əsasən demək lazımdır ki, Şeydayev 45 dəqiqəlik futbolçudur. Baş məşqçi belə nüansları görmürsə, daha nə deyə bilərəm?".



# III Avropa Oyunlarının proqramına daha iki idman növü daxil edildi

***2023-sü ildə Polşanın Krakov və Malopolye şəhərlərində keçiriləcək III Avropa Oyunlarının proqramına daha iki idman növünün daxil edilməsi təsdiqlənib.***

"Unikal" qəzetinin Avropa Olimpiya Komitəsinin (EOC) rəsmi saytına istinadən xəbər verir ki, bunlar idman dırmanması və triatlondur.

İdman dırmanması Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarından sonra III Avropa Oyunlarında da olacaq və 2024-cü il Paris olimpiadasına lisenziya xarakteri daşıyacaq. Triatlon ilk dəfə "Bakı 2015" I Avropa Oyunlarının proqramında olsa da, 2019-cu ildə Belarusun paytaxtı Minskdə keçirilmiş II Avropa Oyunlarında olmayıb.




Avropa Triatlon Federasiyasının prezidenti Renato Bertrandi Polşadakı yarışda Bakıdakı ilə müqayisədə daha çox idmançının çıxış edəcəyini bildirib.

Qeyd edək ki, III Avropa Oyunlarının 9 - 25 iyun 2023-cü ildə təşkili nəzərdə tutulub. 2020-ci ildə açıqlanmış ilkin proqramda 23 idman növu yer alıb.

# İrqçiliyə yol verən azarkeşlərə ömürlük qadağa qoyuldu

***Çexiyanın "Slaviya" (Praqa) klubu Şotlandiya "Reyncers"inin futbolçusu Qlen Kamara ilə bağlı irqçi bannerin müəlliflərini və onunla şəkil çəkdirən azarkeşlərini cəzalandırıb.***

"Unikal" qəzetinin məlumatına görə, bu barədə Praqa təmsilçisinin prezidenti Yaroslav Tvrdik klubun rəsmi tvitter səhifəsinə açıqlamasında deyib.

Funksioner irqçiliyə yol verən fanatların bir daha komandanın ev oyunlarına buraxılmayacağını, onlara ömürlük qadağa qoyulduğunu bildirib.

O, həmin şəxsləri müəyyənləşdirmək üçün polislə yaxından əməkdaşlıq etdiklərini vurğulayıb.

Qeyd edək ki, "Reyncers" və "Slaviya" komandaları arasında Avropa Liqasının 1/8 final mərhələsinin cavab matçında qonaq komandanın müdafiəçisi Ondrjey Kudela ilə meydan sahiblərinin yarımmüdafiəçisi Qlen Kamara arasındakı qalmaqal baş verib. İddiaya görə, Kudela oyun vaxtı Kamaraya qarşı irqçi ifadələr işlədib. Nəticədə 34 yaşlı arxa xətt oyunçusu final fitindən sonra tuneldə naməlum şəxs tərəfindən döyülüb.

Bu hadisədən sonra "Slaviya" azarkeşləri üzərində "Kamara adi zəncidir" ifadəsi yazılmış irqçi banner hazırlayaraq, bununla foto çəkdirib və sosial şəbəkələrdə yayıblar.

İlk matçda "Reyncers"lə 1:1 hesablı heç-heçə edən "Slaviya" cavab görüşündə 2:0 hesabı ilə qalib gələrək, 1/4 finala yüksəlib.

# Xorvatiyalı tennisçi bədəninin bir hissəsini satdı

***Xorvatiya tennisçisi Aleksandra Oleynikova bədəninin bir hissəsini satıb.***

"Unikal" qəzetinin məlumatına görə, Ukrayna paytaxtı Kiyevdə anadan olan 20 yaşlı idmançı sağ əli və çiyninə tatu qoydurmaq hüquqlarını hərracda satışa çıxarıb.

Dünyanın 658-ci raketkası bu satışdan 3 kriptovalyuta (təxminən 5415 dollar) qazanıb. 15x8 sm hissəyə tatu yerləşdirmək hüququna "Jump-High" ləqəbli istifadəsi sahib çıxıb.

Qeyd edək ki, Oleynikovanın bədənində 9 tatu var.

# Cənubi Koreya KXDR ilə birgə olimpiada təşkil etmək üçün IOC-a təklif göndərdi

***Cənubi Koreya hökuməti 2032-ci il Yay Olimpiya Oyunlarının Koreya Xalq Demokratik Respublikası (KXDR) ilə birlikdə keçirilməsinə dair Beynəlxalq Olimpiya Komitəsinə (IOC) təklif göndərib.***

"Unikal" qəzeti xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə hökumətin açıqlamasında bildirilib.

Daha əvvəl IOC İcraiyyə Komitəsi Avstraliyanın Kvinslend ştatını 2032-c ildə keçiriləcək Yay Olimpiya Oyunlarına əsas namizəd kimi təsdiqləyib. Kvinslend ştatının inzibati mərkəzi Brisben şəhəridir.

Hökumətin açıqlamasında bildirilib ki, qərar onlar üçün gözlənilməz olub.

Məsələ ilə bağlı yekun qərar IOC-un 2021 və ya 2022-cü il Sessiyasında qəbul olunacaq.

Qeyd edək ki, Brisbenlə yanaşı, 2032-ci il Oyunlarını keçirmək istəyini Doha (Qətər), Budapeşt (Macarıstan), Reyn-Rur regionu (Almaniya), Çendu və Çuntsin (hər ikisi Çin) ifadə edib.

# Baş məşqçi və köməkçiləri liftdə qaldı

***İspaniya millisinin baş məşqçisi Luis Enrike xoşagəlməz hadisə ilə üzləşib.***

"Unikal" qəzetinin məlumatına görə, hadisə DÇ-2022-nin seçmə mərhələsinin Kosovo ilə oyunundan əvvəl baş verib.

Çalışdırıcı və köməkçilərindən bir neçəsi matçın keçiriləcəyi stadiona gedərkən məskunlaşdıqları otelin liftində qalıb. Onun liftdən çıxarılmasına təxminən 1 saat vaxt lazım gəlib.

Həmin müddət ərzində komandanı aparan avtobus da yola düşüb. Nəticədə Enrike və yanındakılar qarşılaşmaya gecikiblər.

Qeyd edək ki, İspaniya III turun matçında Kosovonu 3:1 hesabı ilə məğlub edib.

# Avropa çempionatında iştirak edəcək Azərbaycan milli komandasının heyəti müəyyənləşib

***Rusiyanın Soçi şəhərində keçiriləcək batut gimnastikası və tamblinq üzrə Avropa çempionatında iştirak edəcək Azərbaycan milli komandasının heyəti müəyyənləşib.***

"Unikal" qəzeti bu barədə Avropa Gimnastika Federasiyasına istinadən məlumat verir.

Çempionatda Azərbaycanı Nicat Mirzəyev, Hüseyn Abbasov, Maqsud Maqsudov, Selcan Maqsudova, Hüseyn Əsədullayev, Bilal Qurbanov, Adil Hacızadə, Tofiq Əliyev, Mixail Malkin təmsil edəcək.

Qeyd edək ki, batut gimnastikası və tamblinq üzrə Avropa çempionatı aprelin 29-dan mayın 2-dək keçiriləcək. Yarışda 23 ölkənin idmançıları iştirak edəcək.

Səhifəni hazırladı: Aygün İlqarqızı